- investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqindən, o cümlədən, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması sahəsindəki proseslərin idarə olunmasından;
- ixracın stimullaşdırılması məqsədilə, bir sıra ölkələrdə reallaşan tədbirlərdə muxtar respublika sahibkarlarının iştirak etməsindən və bu sahədə, dövlət dəstəyinin göstərilməsindən;
- İnfrastruktur layihələrinin həyata keçirilməsindən, xüsusilə də, torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılmasından, torpaq və su ehtiyatlarından səmərəli istifadə olunmasından söz açılmışdır. Burada, 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarının istifadəyə verilməsindən;
- enerji siyasətinin səmərəli təşkil olunmasından, elektrik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində görülən işlərdən, o cümlədən də, muxtar respublika ərazisində günəş və külək elektrik stansiyalarının istifadəyə verilməsindən, etibarlı enerji təsisatlarının və mexanizmlərinin yaradılmasından;
- muxtar respublikanın təbii qaz təminatının gücləndirilməsindən və bu sahədə uzunluğu 27 km olan Naxçıvan-Şahbuz ortatəzyiqli və uzunluğu 82,2 km olan Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərlərinin tikilərək istifadəyə verilməsindən;
- rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində etibarlı və dayanıqlı təsisatların yaradılmasında və digər bu kimi tədbirlərdən söz açılmışdır (5).

Müasir iqtisadi inkişafın tələbləri və çağırışları müstəvisində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf proseslərinin tənzimlənməsi bütün tərəflərinə görə perspektivliliyi ilə seçilməkdədir. Dövlət proqramının “Mövcud çağırışlar” bölməsində muxtar respublikada biznes mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçiriləcək tədbirlər çərçivəsində Sahibkarlara icazə və lisenziyaların verilməsini, həm də onun vahid mərkəzdən idarə olunması nəzərdə tutulmuşdur. Həmin idarəetmənin təşəkkülü sahəsində “Lisenziyalar və icazələr portalı”nın işləkliyinin təmin olunması, müvafiq sahə üzrə fəaliyyətin məhz bu portal vasitəsilə həyata keçirilməsi mümkün olacaqdır. Qarşıdakı mərhələlərdə, eyni zamanda, muxtar respublikada dövlət xidmətlərinin daha da əlçatan olmasına diqqətin artırılması, o cümlədən, “ASAN xidmət” və “DOST” və digər mərkəzlərin işlərinin təmin olunması və bu sahədəki işlərin sürətləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır (5).

Muxtar respublika iqtisadiyyatında istehsal və xidmət bölmələrinin təşəkkülü, eyni zamanda, təbii ehtiyatlar, xüsusən də, əlvan metallar hesabına hasilat sənayesinin inkişafı nəzərdə tutulmuşdur. Məhz bu təşkilatlanma ilə, ərazidə istehsal proseslərinin fasiləsizliyinin təmin olunması və həmçinin təminatqabiliyyətli olması sahəsində mühüm tədbirlərin keçirilməsi də səmərəli hesab olunmuşdur. Çünki, nəzərə alsaq ki, muxtar respublika iqtisadiyyatında da mühüm istiqamətlərin, daha doğrusu, iqtisadiyyatın aparıcı sahələrinin bir-biri ilə əlaqəli şəkildə olmaqla, diqqətə alınması ilə, hasilat sənayesinin inkişaf etdirilməsinin səmərəliliyi daha da yüksək olacaqdır.

Təbii olaraq, nəzərdə tutulan bu tədbirlər, mahiyyətinə görə, üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan və s.) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayışdır olaraq, dövlətin sosial siyasətinin olduqca mühüm tərəflərinin ifadəsi olmaqdadır (Əliyev, Quliyev, 2005: 76).

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası ərazisinin ixtisaslaşmasına və əhalisinin yerləşmə xüsusiyyətlərinə aqrar bölgə olması burada iqtisadiyyatın xammaz bazası əsasında inkişaf etdirilməsində də mühüm göstəriciyə çevrilmişdir. Təbii olaraq, xammal bazasının perspektivlərinin nəzərə alınması, həm də, onunla bağlı olan digər istiqamətlərin də, xüsusilə də, emal və sənaye

QƏDİM DİYAR Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 1.028. 2023 / Cild: 5 Sayı: 8 / 11-19 ISSN: 2706-6185
ANCIENT LAND International online scientific journal. Impact Factor: 1.028. 2023 / Volume: 5 Issue: 8 / 11-19 e-ISSN: 2709-4197

sahələrinin də inkişaf etdirilməsinə zəmin yaratmış olacaq. Bu isə mezoiqtisadi baxımdan və aqrar sənaye inteqrasiyası əhəmiyyətinə görə də, mövcud proseslərin səmərəliliyini artırmış olacaq. Dövlət proqramında da nəzərdə tutulmuşdur ki, elə xammal bazası əsasında iqtisadiyyatın aparıcı sahəsi olan və əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda ilk yerdə qərarlaşan sənaye sahəsi üzrə təşkilatlanma mütərəqqi əsaslarda mümkün olacaq. Nəzərdə tutulmuşdur ki, xammal bazası əsasında yeni sənaye müəssisələrinin inşa olunsun ki, burada da, tikinti materialları, qida məhsullarının yaradılması və s. təmin olunsun.

Dövlət proqramı, Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmaq etibarı ilə qarşıdakı mərhələlər üzrə bir sıra zəruri tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edir. Həmin tədbirlər, "mövcud vəziyyətin təhlil olunması" bəndində, "əldə olunmuş nailiyyətlər", "mövcud çağırışlar", burada isə, GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) indikatorları ilə öz əksini tapmışdır. Təbii olaraq, muxtar respublika iqtisadiyyatının güclü tərəfləri onun zəif tərəflərinin aradan qaldırılmasına yol açmaqla yanaşı, eyni zamanda, mövcud olan imkanların isə ola biləcək təhlükələrin zərərsizləşdirilməsinə səbəb olacağını qeyd etməyə zəmin yaranmışdır. Bununla yanaşı, bəhs olunan strateji tənzimləmə mexanizminin "Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri" adlı bölməsində "Prioritetlər" olaraq, bəhs olunan tədbirlər, xüsusilə, aktuallıq kəsb etməkdədir. Bunlar, şəkil 6-nın məlumatlarında öz əksini tapmışdır:

**Şəkil 6.**

**Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri**




*Şəkil müəllif tərəfindən hazırlanmışdır*

Qarşıya qoyulan tədbirlərin həyata keçirilməsi məqsədilə, Dövlət proqramında Tədbirlər Planı da təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı üzrə keçmiş, cari və gələcək mərhələlərin sintezindən ibarət olan Dövlət proqramında 2023-2027-ci illərin əhatə olunduğu dövrdə sosial və iqtisadi sahələrin dinamik inkişafının yeni keyfiyyət mərhələsi hədəf olaraq müəyyən olunmuşdur. Burada, eyni zamanda, Naxçıvan Muxtar Respublikasında "Yaşıl enerji" potensialının yaradılması kimi zəruri təsisatların da yaradılması məsələlərinə aktual tədbirlər olaraq yanaşılmış, onun uzunmüddətli səmərəliliyi müstəvisində enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirlərinin genişləndirilməsi, həmçinin də ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsinin stimullaşdırılması hədəf olaraq qəbul olunmuşdur. Məlumdur ki, dövlət başçısı tərəfindən işğaldan azad olunan ərazilər, xüsusilə də, Qarabağ və Şərqi Zəngəzur "Yaşıl Enerji Zonası" olaraq elan olunmuşdur.

Azad olunan ərazilərin təsdiq olunan potensialı ümumilikdə, 9200 Meqavat dəyərləndirilir. Bunun, 7200 meqavatı Günəş, 2000 meqavatı isə külək enerjisindən ibarət olmaqdadır (Qasımlı, 2022: 181). Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi məsələsi ölkə başçısı tərəfindən müəyyən olunmuşdur. Aydın olduğu kimi, muxtar respublikada elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. 11 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə qeyd etdiyi kimi, muxtar respublikada, günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də "yaşıl enerji"ni ixrac edəcəyik (10).

Beləliklə, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafina dair 2023–2027-ci illər üçün Dövlət proqramı qarşıdakı mərhələlər üzrə muxtar respublikanın milli miqtisadi quruculuq proseslərindəki rolunu və mövqeyini daha da gücləndirmiş olacaq. Dövlət proqramının həyata keçirilməsi məqsədilə, Tədbirlər Planı da təsdiq olunmuşdur. Orada, 11 prioritet istiqamət üzrə (Şəkil 6-nın məlumatlarında olduğu kimi) ümumilikdə, 81 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## Nəticə

Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrin tənzimlənməsi sahəsindəki proseslər öz mahiyyətinə görə:

- iqtisadiyyatın bütöv bir halda götürülməsinə və onun sahə strukturunun əlaqəli inkişafına zəmin yaratmış olacaq;
- milli iqtisadiyyat üzrə uzunmüddətli prioritetlərin daha da əlçatan olmasına təkan verəcək və diversifikasiya proseslərini sürətləndirəcək;
- regional iqtisadi idarəetmənin optimal variantlarının, xüsusilə də, bölgələr üzrə təsərrüfatçılıq imkanlarının genişlənməsinə təsir göstərmiş olacaq;
- əmək ehtiyatlarından səmərəli istifadənin əlverişli yollarının müəyyən olunması və etibarlı məşğulluq göstəricilərinin təşəkkülü mümkün olacaq;
- yeni iqtisadi reallıqlara müvafiq olan etibarlı infrastruktur təsisatlarının yaradılması prosesləri daha da məhsuldar olacaq və s.

## Ədəbiyyat


1. Qasımov, C., Ələsgərova, F. (2017). Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Dərs vəsaiti. Naxçıvan: Əcəmi.
2. İbadov, S. (2009). İqtisadi nəzəriyyə. Dərslik. Bakı: Şərq-Qərb.
3. Qəribov, A. (2007). Beynəlxalq iqtisadi münasibətlər və gömrük işi (terminlərin qısa izahlı lüğəti). Bakı: Səda.
4. Ağayev, A. (2005). Maliyyə terminlərinin izahlı və tərcümə lüğəti. Bakı: Ziya.
5. https://e-qanun.az/framework/54322
6. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafina dair 2023-2027-ci illər üçün Dövlət proqramı. 5 iyun 2023-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 3910 №-li Sərəncamla təsdiq olunub.
7. İsmayılov, B. (2018), Strateji menecment. Bakı: Təhsil.
8. Əliyev, A., Quliyev, A. (2005). Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu;
9. Qasımlı, V. (2022). Yaşıl iqtisadiyyat. Bakı: Azprint.
10. https://president.az/az/articles/view/60429


Göndərilib: 01.06.2023 Qəbul edilib: 07.07.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/20-25

**Salatın Hacıyeva**
Naxçıvan Dövlət Universiteti
psixologiya üzrə fəlsəfə doktoru
salatinhaciyeva72@gmail.com

# HƏRBİ XİDMƏTÇİLƏRİN DÖYÜŞƏ PSİXOLOJİ HAZIRLIĞI

**Xülasə**

Məqalə müasir dövr üçün olduqca aktual bir məsələyə - hərbi xidmətçilərin döyüşə psixoloji hazırlığı məsələsinə həsr olunub. Məqalədə göstərilir ki, hərbi qulluqçuların psixoloji hazırlığı hərbçidə döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün vacib olan psixoloji dözümlülük, emosional və iradi keyfiyyətlər, qorxu hissi ilə mübarizə aparmağa imkan verən, fiziki və psixoloji gərginliyə dözümlülüyünü artıran, döyüşdə fədakar, fəal və təşəbbüskar hərəkət etmək bacarığının formalaşdırılmasına xidmət edən kompleks tədbirləri özündə əks etdirir.

Döyüşçünün psixoloji hazırlığı bölüyün ani döyüş əməliyyatlarına hazırlığının əsas komponentlərindən biridir. Bu birinci növbədə döyüşçünün Vətənin, doğmaların, yaxınların taleyi üçün məsuliyyətini dərk etməsini, özünə, yoldaşlarına, döyüş texnikası və silahlara inamı, ikincisi isə, döyüşmək arzusu, özünü sınamaq, zəif cəhətlərini aradan qaldırmaq və düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur. Döyüşə psixoloji hazırlığın mühüm komponentləri bunlardır: tələskənlik, qərarsızlıq və ya qapalılığın olmaması, ehtiyatlı, hesablanmış və rəvan davranış, əmr və tapşırıqların səhvsiz, dəqiq yerinə yetirilməsi, fizioloji vəziyyətin normal olması (nəbzin tezliyi, nəfəsalma, üzün rəngi və s).

***Açar sözlər:*** *müharibə, şərait, əməliyyat, əsgər, psixoloji hazırlıq*

**Salatin Hajiyeva**
Nakhchivan State University
PhD in Psychology
salatinhaciyeva72@gmail.com

## Psychological preparation of military personnel for battle

**Abstract**

The article is devoted to a rather relevant issue for the modern era – the psychological read in ess of military personnel for battle. The article shows that the psychological training of military personnel includes a set of measures that contributeto the formation of psychological endurance, emotional and volitional qualities that are important for performing battle tasks, allowing them to fight fear, increasing the irresistance tophysical and psychological stress, the ability to act selflessly, actively and proactively inbattle.

Psychological training of a fighteris one of the main components of the unit'spreparation for sudden combat operations. This implies, firstly, the warrior' sawareness of his responsibility for the fate of the motherland, relatives, friends, faithin himself, in his comrades, in combat equipment and weapons, and secondly, the desire to fight, test himself, overcome his weaknesses and win over the enemy. The article also touches on such issues as the importance of the absence of haste, in decisionori solation, as well as ability of calculating, clear and well-coordinated behavior, error-free, accurateex ecution of orders and tasks, normal physiological state (pulserate, breathing, complexion, etc.), which are considered important components of psychological readiness for battle.

***Keywords:*** *war, situation, operation, solider, psychological preparation*

## Giriş

Silahlı zorakılıq vasitələrinin, siyasi, informasiya, psixoloji qarşıdurma metodlarının inqilabi inkişafı XXI əsrdə dünyanın əvvəlki tarixi dövrlərə nisbətən daha ekstremal, daha kövrək və həssas olmasına gətirib çıxardı. Aparıcı hərbi analitiklərin fikrincə, Azərbaycan və Rusiya da daxil olmaqla son illər dünya miqyasında hərbi risklər məkanı xeyli genişlənib.

Bu gün Azərbaycan silahlı Qüvvələrində hərbi hissələrin müasir tələblərə uyğun qurulması, yenidən elmi əsaslarla təşkilatlanması, onun inkişaf edib formalaşması, yeni maddi - texniki təminat bazası ilə təchiz edilməsi hərbi xidmətin günün tələblərinə uyğun qurulmasına əsas verir. Hərbi hissələrdə şəxsiyyətlərarası münasibətlərin də yenidən qurulması tələbatı ortaya çıxır. Buna görə də hərbi hissələrdə və bütün digər hərbi qurumlarda psixoloji yanaşmanın vacibliyi prioritet məsələlərdən hesab olunur (Əliyev, Gözəlov, 2000: 5).

Müharibə xalqın və onun Silahlı Qüvvələrinin maddi və mənəvi gücünün hərtərəfli sınağıdır. Onun gedişatı və nəticəsi Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi - psixoloji vəziyyətindən asılıdır (Rüstəmov, 2012: 34).

Dünyanın bir sıra aparıcı ölkələrinin hərbi - siyasi rəhbərliyi silahlı qüvvələrin yüksək mənəvi və psixoloji vəziyyətinin qorunması problemini milli təhlükəsizlik sahəsində prioritet məsələlərdən biri hesab edir, döyüşlərin orqanizmə və psixikaya təzyiqini aşağı salmaq üçün ciddi səy göstərirlər. Ordusu olan hər bir ölkə bu məsələlər üzərində işləyir, hərbçilərin yalnız fiziki cəhətdən deyil, psixoloji cəhətdən də gücləndirilmələrinin, itkilərin minimuma endirilməsinin yollarını axtarırlar.

Ordunun psixoloji hazırlığını təşkil edərkən müasir müharibələrin əsgərlərin mənəvi güclərinə təsir xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Çünki bu, bütün şəxsi heyətin mənəvi - döyüş keyfiyyətlərinin məqsədyönlü şəkildə formalaşdırılması üçün zəruridir (Şəfiyeva, 2006:13).

Müasir müharibələrdə məntiq belədir ki, şəxsi heyət müharibənin ağır sınaqlarına əvvəlcədən hazır olmalıdır. Əvvəlki müharibələrdə mənəvi möhkəmlənmə döyüşün gedişində əldə edilirdisə, indi buna ümid bəsləmək olmaz. Təcavüzkar düşmənin qəfil hücum ehtimalı heç zaman tamamilə istisna edilə bilməz. Müharibələrin tarixindən də məlumdur ki, belə qəfil hücumlar şəxsi heyətin psixikasına güclü mənəvi zərbə vura bilər. Ona görə də psixikanı öncədən möhəmləndirmək, məşq etdirmək, əzmli və qətiyyətli döyüşlərdə döyüşçülərin hər birinin mənəvi və psixoloji hazırlığına nail olmaq lazımdır.

Ordunun döyüş qabiliyyətinin ən vacib elementlərindən biri onun əsgər və zabitlərinin yüksək mənəvi - psixoloji vəziyyətidir. Məlumdur ki, "yüksək mənəvi – psixoloji hazırlıq insanlığa məlum olan ən dağıdıcı bombadan, ən ağır tankdan daha güclü silahdır. Yüksək mənəvi - psixoloji vəziyyət məğlubiyyəti qələbəyə çevirə biləcək bir vasitədir. Ordu məğlubiyyət şüuru ilə birləşməyincə məğlub deyil, çünki məğlubiyyət ağlın nəticəsidir və fiziki vəziyyət deyil. Döyüşlər və hərbi sənət tarixi də göstərir ki, müharibə uzun sürən bir xarakter aldıqda, onun nəticəsini fiziki güc deyil, mənəvi - psixoloji güc formalaşdırır" (Kouplend,1991: 26). Həqiqətən də, müharibələr qəhrəmanlıq filmlərindəki romantik səhnələrdə görə bilmədiyimiz bir çox çətinlikləri, fiziki və psixoloji təzyiqləri özündə cəmləşdirən bir vəziyyətdir. Döyüşən insanın ailəsindən, yaxınlarından uzaqda olması, azadlıqlarının ciddi şəkildə məhdudlaşdırılması, qidalanma və yuxu pozgunluğu, xəstəliklərə yoluxma ehtimalının yüksək olması, davamlı ölüm və yaralanma, əsir düşmə təhlükəsinin olması kimi hallar mənəvi - psixoloji güc tələb edən vəziyyətlərdir.

Mənəvi - psixoloji vəziyyət döyüş şəraitində aktiv və fədakar hərəkətlər üçün psixoloji imkanların, səfərbərlik dərəcəsinin və hər bir əsgərin psixikasının məcmusudur. Döyüşçülərin döyüş ruhunun formalaşması və möhkəmləndirilməsində ən vacib amil şəxsi heyətin güclü stresslərə qarşı psixi müqavimətlərinin artırılmasına və döyüş tapşırıqlarının effektiv həlli üçün psixoloji hazırlıqlarının formalaşdırılmasına yönəlmiş elmi əsaslı psixoloji işdir.

Müasir müharibələrin mühüm cəhətlərindən biri də odur ki, düşmən ordunun qarşısında birbaşa olmaya da bilər, lakin əsgər təhlükənin təsirini hər an, hər yerdə hiss edəcəkdir. Bu cür vəziyyət uzun müddət davam edərsə əsəbilik və mənəvi gərginlik yarada bilər. Belə vəziyyətlərdə komandirin insanlara psixoloji rahatlıq verəcək və bu gərginliyi aradan qaldıracaq şərait yaratması vacibdir. Bununla yanaşı döyüşə hazırlıq, silah və texnikanın hazırlıq vəziyyətinin yoxlanılması ilə

bağlı mənfi düşüncələrin də aradan qaldırılmasına nail olmaq olar. Bu baxımdan komandirin ən çətin vəziyyətlərdə çağırışçı və ruhlandırıcı sözləri də mühüm əhəmiyyət kəsb edir. Hətta yüksək inkişaf etmiş hərbi texnika və mükəmməl silahlar dövründə də müharibədə əsas rol əsgərə məxsusdur. Müasir dövrdə döyüş əməliyyatlarının nəticəsi əhəmiyyətli dərəcədə şəxsi heyətin mənəvi - psixoloji vəziyyətindən, hərbi cətinliklərə və ehtiyaclara tab gətirmək, döyüşdə qorxu hissini aşmaq və iradəli olmaq qabiliyyətindən asılıdır. Əgər döyüşdə həyatını, canını itirəcəyini bilən əsgərin döyüş ruhu, mənəvi - psixoloji durumu, ideoloji hazırlığı, psixoloji dözümlülüyü yetərincə deyilsə, fiziki gücün, say çoxluğunun, müasir dağıdıcı silahın heç bir əhəmiyyəti yoxdur. Çünki döyüşə atılaraq Vətəni qorumaq naminə düşmənə qalib gəlməyi qarşısına məqsəd qoyan ordunun, əsgərin ideoloji gücü, mənəvi qüdrəti silahının imkanlarından maksimum bəhrələnməyə böyük təsir edir və qarşıya qoyulan tapşırıqların uğurlu icrasında mühüm rol oynayır. Döyüş hazırlığı üçün əsgərin öz vəzifəsinə, döyüş əhval - ruhiyəsinə və döyüş sahəsindəki davranışına münasibətindən daha önəmli heç bir şey yoxdur. Hər bir hərbçi döyüş əməliyyatlarına şüurlu surətdə hazırlaşmalı, özündə psixoloji davamlılıq və döyüş vəziyyətinin istənilən şərtləri ilə mübarizə aparmaq bacarığını inkişaf etdirməlidir. Döyüşçünün fəaliyyətinin səmərəliliyi onun psixikasının döyüş şəraitinin və tapşırığının yerinə yetirilməsinin tələblərinə uyğun şəkildə cərəyan etməsinə əsaslanır. Əsgərin döyüş fəaliyyətinin səmərəsini şərtləndirən konkret psixoloji amillər bunlardır: müsbət ictimai davranış motivləri, yüksək idrak imkanları, emosional – iradi dözümlülük, döyüş ustalığı, stenik hisslər. Kollektivin döyüş fəaliyyətinin məhsuldarlığı tapşırığın yerinə yetirilməsi uğrunda ümumi səy, iradə birliyi, ictimai rəy, əhval – ruhiyyə və təcrübədən asılıdır (5).

Döyüş əməliyyatları, həyat üçün təhlükələr əsgərə güclü təsir göstərir və hərbi xidmətçilərdən psixoloji dözümlülük, davamlılıq, təşəbbüskarlıq və nizam - intizam tələb edir. Psixoloji hazırlığı olan hərbi xidmətçilərdə döyüş vəziyyətində xarakterik döyüş həyəcanı və kəskin diqqət, hafizə və təfəkkür təzahür edir ki, bu da əməliyyatların aktivliyinə və məqsədyönlülüyünə imkan yaradır. Kifayət qədər psixoloji hazırlığı olmayan hərbçilərdə isə döyüşdə yaranan mənfi hisslər və psixikanın ümumi vəziyyəti döyüşçülərin reaksiyasını ləngidə, hərəkətlərin koordinasiyasını və sabitliyini poza, diqqət və hafizəni zəiflədə bilər. Bu isə əsgərlərin fəaliyyətlərinin səmərəliliyini azaldır və onları təhlükə altına salır. Beləliklə, psixoloji hazırlıq prosesində hərbi xidmətçi döyüş vəziyyəti üçün xarakterik olan bütün spektrlərinin onun orqanizminə və psixikasına (görmə, eşitmə, kinestetik, qoxubilmə, dadbilmə, vestibülyar) təsirini öyrənməli və imkan daxilində hiss etməli, onlara düzgün reaksiya verməyi, onların artması hallarında aktiv fəaliyyət göstərməyi öyrənməlidir.

Müasir elmi təsəvvürlər səviyyəsində hərbi xidmətçilərin psixoloji hazırlığı dedikdə hərbi xidmətçilərin və hərbi kollektivlərin psixoloji keyfiyyətlərinin formalaşmasına yönəlmiş, onların döyüş meydanında fəal və səmərəli psixoloji hazırlığını və müasir döyüş vasitələrinin təsirinə müqavimətini təmin edən qarşılıqlı əlaqəli tədbirlər sistemi nəzərdə tutulur. Psixoloji hazırlığın mahiyyətini ayrı - ayrı hərbiçilərdə və hərbi hissələrdə döyüş meydanında onlara tanış olan və adət edilmiş mühitdəki kimi hərəkət etməyə, döyüş meydanında baş verən hadisələri anında aşkar edib başa düşməyə, təhdidedici meylləri aşkar edib onlara düzgün və vaxtında reaksiya verməyə, psixotravmatik amillər mühitində döyüş qabiliyyəti və fəallığını lazımi səviyyədə saxlamağa imkan verən psixoloji mənbələr təşkil edir. Hərbi psixologiyada psixoloji hazırlığın üç növünü ayırırlar: ümumi, xüsusi və məqsədli hazırlıq.

Ümumi hazırlıq hərbi xidmət müddətində hər kəslə (“çağırışdan süngü hücumuna qədər, strateji, əməliyyat, taktiki səviyyədə) aparılır və:

-hərbi xidmətçilərin hərbi vəzifələrini yerinə yetirməyə psixoloji hazırlığı;

-hərbçilərin müasir döyüşlərin stress amillərinə müqaviməti;

-hərbçilərin yoldaşlarına psixoloji dəstək üsullarına yiyələnməsi;

-hərbi xidmətçilərin psixi özünütənzimləmə və səmərəli mübarizə taktikalarına yiyələnməsi;

-hərbçilərin döyüş vəziyyəti üçün səciyyəvi olan həyat fəaliyyəti rejiminə ilkin adaptasiyası;

-hərbçilərdə həmkarları və hərbi kollektivlərlə qarşılıqlı münasibətdə məsuliyyət və kollektivçilik hissinin formalaşdırılmasını əhatə edir.

Psixoloji hazırlıq prosesində insanın hiss üzvləri, bütünlükdə orqanizmi və psixikası döyüş vəziyyətindəki səslərə, mənzərələrə, qoxulara, dadlara və taktil duyğulara maksimum dərəcədə alışmalı, bu və ya digər dəyişikliklərə anında və məqsədyönlü reaksiya verməyi öyrənməlidir. Hərbçilərin döyüş və psixoloji hazırlığının həyata keçirildiyi təlim sahəsi xarici görünüşünə, qoxusuna, səs - küyünə görə döyüş sahəsindəkindən daha dəhşətli olmalıdır. Təlimlərin gedişində müharibə zamanı çaşqınlıq, çaxnaşma və psixi pozğunluqlara səbəb ola biləcək vəziyyətlər (əlaqənin kəsilməsi, qeyri - müəyyən vəziyyətin yaranması, ağır fəaliyyət) yaratmaq lazımdır.

Xüsusi psixoloji hazırlıq hərbi hissə və bölmələrin döyüş qabiliyyətini müəyyən edən, hərbi xidmətçilərin döyüş fəaliyyətinin səmərəliliyini şərtləndirən xüsusi bilik, bacarıq və vərdişlər sisteminin inkişafı məqsədilə həyata keçirilir. Hərbi xidmətçilərdə peşəkar qavrayış, peşəkar diqqət, peşəkar təfəkkür, peşəkar hafizə kimi mühüm keyfiyyətlər, həmçinin stress faktorlarının fəaliyyətinə müqavimət göstərmək qabiliyyəti inkişaf edir.

Məqsədli psixoloji hazırlıq hərbi xidmətçilərdə konkret döyüş tapşırığının həllinə münasibətin formalaşması, yüksək əhval - ruhiyyə, fəallıq və s. bu kimi məsələlərin keyfiyyətli həlli üçün psixoloji hazırlığın inkişafına yönəldilib. Psixoloji hazırlıq prosesində hərbi xidmətçilər konkret təbii - coğrafi (dağ, səhra, şimal rayonlar, tayqa və s.), hava - iqlim, (yüksək və aşağı temperatur, su - duz rejimi və s.), texniki, texnoloji, rejim və fəaliyyətin digər şərtlərinə adaptasiya olmalıdırlar.

Döyüşdə əsgərin davranışını təyin edən, mənəvi - psixoloji və psixoloji xüsusiyyətlərin mühüm faktorları arasında ruhi və fiziki yorğunluq dərəcəsi, stressə məruz qalma, qorxu hissi və döyüş ruhunu ayırmaq olar. Döyüş əməliyyatları prosesində döyüşçülərin psixikasının həddindən artıq yüklənməsi, yorğunluq, döyüş stressi də şəxsi heyətin psixoloji - mənəvi xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Həddindən artıq yorğunluq ümumi kefsizlik, əsəbilik, yuxusuzluq, yaddaş zəifliyi, hərəkətlərin nizamsızlığı ilə xarakterizə edilir. Döyüş zamanı hərbi xidmətçilər artıq dərəcədə psixi və fiziki yükə məruz qaldıqlarına görə güclü yorğunluq hiss etməyə başlayır ki, bu da kəskinləşib halsızlıq və taqətsizliyə gətirib çıxara bilər. Döyüş şəraitində əmələ gələn yorğunluq, təhlükə zamanı insanın imkanları xaricində olan tapşırığın icrası əmri, düşmənin aktivliyi və atəşi fonunda zabitin tam gərginliyi onun psixi sağlamlığında özünü büruzə verir (6). Bu baxımdan da döyüşün ara mərhələlərində əsgərlərin dincəlmələrinə və istirahətinə diqqət yetirilməsi vacibdir. Bu qısa müddət ərzində əsgərlər yatmaq, dincəlmək, ailələri ilə əlaqə saxlamaq, paltarlarını dəyişmək, yuyunmaq, təraş etmək, əylənmək imkanı ilə təmin edilməli, mümkün olduqda qısa dəstəkləyici psixoterapiyalar tətbiq edilməlidir (7).

Döyüş zamanı əsgərin psixikasına güclü təsir edən amillərdən biri də stressdir. Stress fiziki cəhətdən həddindən atrıq yüklənmiş və həyati təhlükəsi olan insanın vəziyyətini xarakterizə edir. Bu cür vəziyyət bir çox dərəcədə fiziki və ruhi yüklənmələrin dərəcəsindən asılıdır (Klauzevich, 2007: 134). Uzunmüddətli stress və orqanizmin stress vəziyyətinə uyğunlaşa bilməməsi hərbçilərdə ürək bulanma və qusmaya, mədə - bağırsaq sisteminin fəaliyyətində pozğunluqlara səbəb ola bilər. Bu zaman döyüşçünün aktiv və şüurlu hərəkət etmək qabiliyyəti kəskin şəkildə aşağı düşür. Lazımi tədbirlər görülməzsə (məsələn; döyüşdən kənarlaşdırılma, istirahətin təmin edilməsi, tibbi yardım göstərilməsi) orqanizmin fiziki və psixi cəhətdən tükənməsi baş verər və nəticədə əsgər döyüş qabiliyyətini itirə bilər. Əksinə, qısa müddətli stress vəziyyəti isə bəzi hallarda əsgərlərə səfərbəredici təsir göstərir. Qısa müddətli stress xüsusi təlim keçmiş döyüşçülərdə qan təzyiqini yüksəldir, qavrayışı kəskinləşdirir. Belə bir vəziyyətdə əsgər döyüş tapşırıqlarını yerinə yetirməyə daha çox hazır olur. Bir müddət sonra orqanizm normallaşır və həyəcan azalır. Döyüş şəraitində əsgərlər psixi gərginliyin və yorğunluğun aradan qaldırılmasını təmin edən, təcrübədə yoxlanılmış bir neçə qaydanı yadda saxlamalıdırlar.

-Mümkün qədər vaxtında və kalorili qidalanmaq;

-Norma miqdarında maye qəbul etmək;

-Göstərişə əsasən istirahətə ayrılmış vaxtdan istifadə etmək.

İstirahət zehni gərginliyi və yorğunluğu aradan qaldırır. Həmçinin yoldaşlarla söhbət etməklə də əqli yorğunluğu aradan qaldırmaq olar. İnsanın təklikdə öz problemlərinə dalması yorğunluğu daha da gücləndirir.

Şəxsi heyətin döyüş əməliyyatlarına hazırlığının ən mühüm məsələlərindən biri qorxu və çaxnaşmanın dəf edilməsi, bölmələrdə, heyətdə, dəstələrdə əsgərlərin döyüş ruhunun və psixoloji dözümlülüyünün qorunmasına xidmət edən yoldaşlıq və dostluq münasibətlərinin möhkəmləndirilməsindən ibarətdir. Qorxu - insanın anadangəlmə xüsusiyyətlərindən olub, şüuraltı və özünümüdafiə hissləri ilə bağlıdır. Klauzeviç qeyd edirdi ki, hərbi fəaliyyətlərin ən mühüm ünsürü təhlükədir. Təhlükənin əsas təzahür vasitəsi isə ondan qaçmaq istəyidir. Təhlükədən qaçmaq cəhdi çox vaxt instinktiv olur. Qaçmaq mümkün olmadıqda isə qorxu və dəhşət şəklində özünü büruzə verir (Klauzevich, 2003: 43-44).

Təhlükənin düzgün təfsir edilməməsi və ya onun qaçılmaz mənfi nəticələrinin dərk edilməməsi qorxu yaradır. Qorxu ən güclü emosiyalardan biridir. Hətta ən cəsarətli insanlar belə bu dözülməz hisslə hesablaşmalı olurlar. Əsgərlərin də döyüşdə qorxması təbiidir və bu normal hesab edilməlidir. Qorxu hissi əsasən birinci döyüşdə daha çox özünü göstərir. İlk uğurlu döyüşdən sonra əsgərlərdə öz gücünə, döyüş yoldaşlarına, komandirlərinə inam yaranır.

Döyüşdən döyüşə əsgərin döyüş keyfiyyətləri yaxşılaşır, döyüş davranışı təcrübəsi qazanır, döyüş bacarığı formalaşır. Qorxunu tamamilə aradan qaldırmaq mümkün deyil və qorxu meyli hər kəsdə var. Amerikan hərbi psixoloqu E.Borinqin qiymətləndirməsinə görə, döyüş əməliyyatları zamanı hərbi xidmətçilərin 90 faizində qorxu hissi özünü aydın şəkildə büruzə verir.

Qorxu hissinin keçirilməsi, məzmun etibarilə, ölüm qorxusu, ağrılar, yaralanmalar, əlillik, döyüş qabiliyyətinin itirilməsi, döyüş meydanında yaralı qalmaq, əsir düşmək və s. şəklində özünü göstərir. Üstəlik, uzun müddətli təhlükəli vəziyyət qorxunu azaltmır, əksinə artırır. Hərbiçilərin əksəriyyəti, döyüşdə iştirak etsələrdə belə, qeyri - iradi hərəkət edirlər. Beləliklə, döyüş şəraitində qorxu ilə mübarizənin ən mühüm yolu hərbçiləri qarşıdakı döyüşlər barədə hərtərəfli məlumatlandırmaq, bu döyüşlərin dəqiq və ətraflı surətini formalaşdırmaqdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta - asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər alışır ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir. Dərhal başlanacaq döyüş əməliyyatlarına hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər. Belə ki, dəqiqədə 140 - 150 addımlıq gəzinti gümrah əhval - ruhiyyə yaradır. Addımın astadan sürətliyə və ya əksinə doğru növbə ilə dəyişməsi isə diqqətin toplanmasına və artmasına səbəb olur. Yuxu ilə mübarizə aparmaq üçün əl dərisinin çimdiklənməsi, başın adamın özü tərəfindən masaj edilməsi və insanın aktivliyini artıran digər hərəkətlər geniş tətbiq olunur. Yuxulama insanda yorğunluğun, psixi və fiziki taqətsizliyin səbəbi olduğuna görə döyüşə psixoloji hazırlığın daxili düşməni sayılır.

Diqqətin idarə olunması təxəyyüllə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlü nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur (10).

Yalnız inkişaf etmiş təfəkkür və təxəyyül komandir və əsgərlərə duyğu, qavrayış və hafizənin döyuşün ayrı - ayrı hadisələri barədə verdiyi faktları bütöv bir şəkildə birləşdirmək imkanı verir. Təfəkkür döyüş fəaliyyətinin faktları və hadisələri arasındakı gizli, dərin əlaqə və münasibətləri üzə çıxarmağa imkan verir. Yaddaş hərbi xidmətçilərin döyüş və psixoloji hazırlığını məqsədyönlü və mümkün edən psixi prosesdir. Duyğu və qavrayış döyüş şəraiti barədə nə qədər dəqiq məlumatlar versə də, diqqət nə qədər yaxşı tənzim edilsə də, etibarlı hafizə olmayınca, bunların heç bir mənasi qalmır. Çünki alınan məlumatlar davamlı olaraq itiriləcəkdir. Sürətlə işləyən hafizə olmadan düşmənin və öz ordusunun mühüm məlumatlarını, hərbi texnika və silahların xüsusiyyətlərini, döyüş idarəetmə siqnallarını, ekstremal döyüş vəziyyətlərində hərəkət qaydlarını yadda saxlamaq mümkün deyil. Şiddətli stress vəziyyətində məntiqi hafizə öz əhəmiyyətini itirir və praktik olaraq yalnız hərəkət hafizəsi əsgərin köməyinə gəlir. Buna görə də, döyüş əməliyyatlarından öncə, çətin əməliyyatların yerinə yetirilməsinə hazırlaşarkən düşmənin döyüş mövqelərinin bənzərini

hazırlayaraq onlara hücum təşkil etmək hərbi xidmətçilərin hərəkət hafizəsinin formalaşmasına yardım edəcəkdir. Döyüş şəraitində standart üsullardan istifadə edilməsi əmrlərin verilməsi və yerinə yetirlməsi müddətini qısaldır, döyüş nizamsızlığını və əsgərlərin psixi yüklənməsini aşağı salır və bütünlükdə fəaliyyətin səmərəliliyini yüksəldir. İnkişaf etmiş hafizə olmadan döyüş ustalığının əsaslarını mənimsəmək, döyüş təcrübəsi qazanmaq, əsl şəxsiyyət olmaq olduqca çətindir. Beləliklə, hərbi xidmətçilər psixoloji hazırlıq prosesində döyüş vəziyyətinin onların orqanizminə və psixikasına təsir edən bütün spektrlərini öyrənməli və mümkün olduqca hiss etməli, onların kəskinləşdiyi hallarda düzgün reaksiya verməli və fəal hərəkətə başlamalıdır.

## Nəticə

Deyilənlərdən də görünür ki, hərbi xidmətçilərin psixoloji hazırlığı olmadan keyfiyyətli və səmərəli fəaliyyət mümkün deyil. Sadalanan amillərin xüsusiyyətləri şəxsi heyətin hazırlıq proqramında müəyyən düzəlişlər edilməsini tələb edir. Döyüş fəaliyyətində məqsədə nail olmaq üçün məqsədli psixoloji hazırlığın nəticəsi olaraq insanın psixi və psixofizioloji imkanları maksimum dərəcədə səfərbər olmalıdır. Müharibədə iştirak edən əsgərlərin mənəvi - psixoloji vəziyyətlərinin sabit olmadığını nəzərə alsaq, deyə bilərik ki, insan müharibənin ən zəif həlqəsidir. Lakin yaxşı motivasiya edilərsə, “indiyə qədər kəşf edilmiş və kəşf ediləcək ən dəhşətli silaha çevrilə bilər. Nəticə olaraq deyə bilərik ki, əsgərlərin psixologiyasının nəzərə alınmadığı heç bir müharibədə qələbə çalmaq mümkün olmayacaq.

## Ədəbiyyat

1. Əliyev, N., Gözəlov, S. (2000). Hərbi qulluqçuların döyüş fəaliyyətinin və xidmətinin psixoloji təhlili. Bakı: BABKM, 59 s.
2. Rüstəmov, M. (2012). Əsgər psixologiyasının formalaşmasının psixoloji əsasları. Naxçıvan: “Əcəmi” Nəşriyyat – poliqrafiya Birliyi, 88 s.
3. Şəfiyeva, E. (2006). Zabit hazırlığının sosial-psixoloji məsələləri. Bakı: Elm, 232 s.
4. Kouplend, N. (1991). Psixoloqiya i soldat. M.: Voenizdat, 136 s.
5. http:static.bsu.az/w8/Xeberler%20Jurnali|Sosial%202009204/101-110.pdf
6. http:static.bsu.az/w8/Xeberler%20Jurnali|sosial%202005%202/149-158.pdf
7. dergipark.org.tr/en/download/article-file/596237
8. Klauzevich, K. (2007). O voyne: Midgard: Eksmo, 458 s.
9. Klauzevich, C. (2003). Savaş üzərinə. Ankara: Eriş yayınları, 252 s.
10. https://mod.qov.az/az/pre/38236.html

Göndərilib: 30.06.2023 Qəbul edilib: 15.08.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/26-30

**Samirə Mərdanlı**
Bakı Dövlət Universiteti
doktorant
mardanli.samira@gmail.com

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA "SİRLƏR XƏZİNƏSİ" POEMASI

**Xülasə**

XII əsr Azərbaycan poeziyasının, həmçinin dünya ədəbiyyatının məşhur nümayəndəsi, zəngin yaradıcılığı ilə bütün bəşəriyyətin diqqətini özünə cəlb etmiş Nizami Gəncəvinin ədəbi əsərlərini təkcə böyük sənətkarlıqla qələmə alınmış bədii yaradıcılıq nümunəsi kimi deyil, həmçinin zəngin elmi, tarixi bilikləri özündə ehtiva edən qiymətli mənbələr olaraq nəzərdən keçirmək lazımdır. Nizaminin ilk iri həcmli əsəri olan "Sirlər xəzinəsi" poeması, Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi kimi dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi olmuşdur. Nizami Gəncəvi yaradıcılığında elmin, incəsənətin bütün sahələrinə sözün qüdrəti ilə müraciət mövcuddur. Bu yaradıcılıq nümunələrinin əksəriyyət hissəsində hiss olunan əsas ideya məhz insan və onun əxlaqıdır. Didaktik poema olaraq qələmə aldığı "Sirlər xəzinəsi"ndə Nizami insanları ləyaqətli, ədalətli, insaflı, ağıllı, alicənab və vicdanlı görmək arzusunu biruzə verir. Şair dəyanətli və vicdanlı insanı şaha bərabər bilərək, insanın gördüyü bütün işlərdə ağılla hərəkət etməyi, ədaləti və haqqı hər şeydən tutmağının insana yalnız şərəf gətirəcəyini vurğulayır.

***Açar sözlər:*** *Nizami Gəncəvi, Sirlər xəzinəsi, leksika, didaktika, Xəmsə*

**Samira Mardanli**
Baku State University
PhD student
mardanli.samira@gmail.com

## The poem "Treasure of Secrets" by Nizami Ganjavi

**Abstract**

The literary works of Nizami Ganjavi, a famous representative of 12th-century Azerbaijani poetry and world literature, who attracted the attention of all mankind with his rich creativity, should be considered not only as an example of artistic creativity written with great skill, but also as valuable sources containing rich scientific and historical knowledge. Nizami's first large-scale work, the poem "Treasure of Secrets", as the most valuable example of the didactic poem genre in the literature of the Near and Middle East, was the first pen experience in the field of epic poetry in the work of the genius poet. In the works of Nizami Ganjavi, there is an appeal to all fields of science and art with the power of words. The main idea that can be felt in the majority of these creative examples is the man and his morality. In "Treasure of Secrets", which he wrote as a didactic poem, Nizami expresses his desire to see people as dignified, fair, fair, intelligent, noble and honest. The poet recognizes a steadfast and honest person as equal to a king, and emphasizes that a person should act wisely in all the things he does, and that justice and justice will bring him only honor.

***Keywords:*** *Nizami Ganjavi, Treasure of Secrets, lexicon, didactics, Khamsa*

## Giriş

XII əsr Azərbaycan poeziyasının, həmçinin dünya ədəbiyyatının məşhur nümayəndəsi, zəngin yaradıcılığı ilə bütün bəşəriyyətin diqqətini özünə cəlb etmiş Nizami Gəncəvinin ədəbi əsərlərini təkcə böyük sənətkarlıqla qələmə alınmış bədii yaradıcılıq nümunəsi kimi deyil, həmçinin zəngin elmi, tarixi bilikləri özündə ehtiva edən qiymətli mənbələr olaraq nəzərdən keçirmək lazımdır.

Nizaminin ilk iri həcmli əsəri olan "Sirlər xəzinəsi" poeması, Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi kimi dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi olmuşdur. Nizami Gəncəvi yaradıcılığında elmin, incəsənətin bütün sahələrinə sözün qüdrəti ilə müraciət mövcuddur. Bu yaradıcılıq nümunələrinin əksəriyyət hissəsində hiss olunan əsas ideya məhz insan və onun əxlaqıdır. Nizami Gəncəvi insanı Allahın yaratdıqları arasında ən şərəflisi hesab edir, bu şərəfin səbəbini isə tanrının yaratdığı ən kamil varlıq olmasından irəli gəldiyini hesab edir (Gəncəvi, 2004: 8)

Nizaminin ilk iri həcmli əsəri "Sirlər xəzinəsi" poemasıdır. Yaxın və Orta Şərq, o cümlədən dünya ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunələrindən biri kimi çıxış edən bu əsər dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi olub (Gəncəvi, 2004: 9).

"Sirlər xəzinəsi" adından da göründüyü kimi, Nizami Gəncəvinin yaşadığı dövrə qədər ədəbiyyatda geniş yayılmış didaktik əsərlərdəndir. Əsərin tərcüməsinin önsöz hissəsində "Sirlər xəzinəsi"nin şərhini vermiş Xəlil Yusifli qeyd edir ki, əsər mövzuca, məqsədcə müəyyən dərəcədə "Kəlilə və Dimnə", "Qutadqu bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Cəhar məqalə" və başqa bu qəbildən olan əsərlərə yaxınlığı hiss edilən "Sirlər xəzinəsi" həm də onlardan fərqlənir. Dahi şair sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona daha yüksək humanist, demokratik istiqamət vermişdir (Gəncəvi, 2004: 7).

"Sirlər xəzinəsi"ni, sözün həqiqi mənasında, Nizaminin yaradıcılıq manifesti adlandırmaq olar. "Xəzinə" adını şair əsərə təsadüfən verməmişdir; "Sirlər xəzinəsi", doğrudan da, həyatın ayrı-ayrı sahələrini əhatə edən, cəmiyyətin müxtəlif təbəqələrinin rəngarəng surətlər silsiləsini yaradan, yeni fikirlər, ideya və qənaətlər ifadə edən bir əsərdir. Böyük şair didaktik poema janrının imkanlarından bacarıqla istifadə edib, oxucu ilə lirik monoloqlar şəklində söhbət edir, onu düşündürən, narahat edən problemlərə toxunur, bütün hallarda orta əsrlərin qatı zülməti içərisindən işığa, xeyrə səsləyir. Poema müxtəlif məsələlərə həsr edilmiş müqəddimə, 20 məqalət (söhbət) və bu məqalələri epik lövhələrlə əks etdirən 20 kiçik hekayədən ibarətdir. Kitabın tamamlanması haqqında kiçik bəhslə poemaya yekun vurulur. Əsərin başlanğıcında şair tovhid, minacat, nət adlı başlıqlarla Allahdan, peyğəmbərdən söhbət açır, islam dini ehkamları çərçivəsində onları tərifləməklə davam edir. Zamanın tələbinə uyğun hərəkət edən şair bu bəhslərin özündə belə ənənəvi dini ifadələrlə olsa da, çox ciddi ictimai problemlərə toxunur. Nizaminin sənətkar mövqeyi bu hadisələrə münasibətdə də açıq-aydın diqqəti cəlb edir; şair oxucunu həyəcanlandırır, şairin əhval-ruhiyyəsi oxucuya da ötürülür. Məlum olur ki, bütün bu tariflər, müraciətlər əsil mətləbə keçmək üçün bir bəhanədir. Zəmanəsindən son dərəcə narazı olan şair Allaha və peyğəmbərə də böyük ideallar naminə müraciət edir, qədim düzlük və doğruluq, təmizlik dövrünün, islamın ilk illərinin həyatını qaytarmağa çağırır (Gəncəvi, 2004: 9).

Mahir Cavadov özünün Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərində xeyir və şər motivləri adlı məqaləsində onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Mükəmməl təhsil görmüş, bir sıra elmləri, o cümlədən islami dəyərləri dərindən mənimsəmiş, özünəqədərki dünya ədəbiyyatının ən yaxşı nümunələrindən təsirlənmiş Nizami Gəncəvi dərin biliklərinə və Tanrının ona bəxş etdiyi yüksək istedadına alın tərini qataraq epik poetik janrın ən parlaq nümayəndəsi səviyyəsinə qalxa bilmişdir. Məlumdur ki, Nizaminin "Xəmsə"sinə qədər də həm nəsrlə, həm nəzrlə, həm də nəsr və nəzm qarışıq epik əsərlər şifahi olaraq yayılmış və yaxud konkret müəlliflər tərəfindən qələmə alınmışdır. Folklorun ən parlaq janrlarını özündə ehtiva edən dastan və hekayətlər aşıqların, dərvişlərin ifasında söylənilmiş, xalqın gündəlik məişətlərində yaşayıb inkişaf etmiş, rəvayət və hədislər kamil, yüksək mənəviyyatlı insanın formalaşmasında mühüm tərbiyəvi əhəmiyyət daşımışdır (Cavadov, 284).

Şair poemanın giriş hissəsində şeir və sənət məsələlərinə də xüsusi diqqət yetirmiş, sözün meydana çıxması, insan həyatında rolu və s. haqqında söhbət açmışdır. Sözü xilqətin birinci gözəli adlandıran Nizami doğru göstərir ki, qələm hərəkətə başlayan zamandan dünyanın gözünü sözlə açıbdır. Söz insanın canı, bədən isə onun mənzilidir. Nizami Gəncəvi "Sirlər xəzinəsi"ndə sözə geniş mənada yanaşır, bədii sözün, yazının bəşəriyyətin inkişaf tarixindəki rolundan, onun müasir dövr yaradıcılığında əhəmiyyətindən danışıb, sözü insanın əsas vasitəsi hesab edir. Nizami şeir

haqqında danışarkən, şairin zəhmətinə yüksək qiymət verir, onu peyğəmbərlərə yaxın tutur. Şair və şeir qarşısında ciddi ictimai vəzifələr qoyan Nizaminin fikrincə, əslində şeir insanları tərbiyə etmək vasitəsidir (Məmmədova, 2020: 163).

"Sirlər xəzinəsi" əsərindəki hekayələrini şair onu çox narahat edən, düşündürən problemə həsr etmişdir. "İnsanın mərtəbəsi haqqında" birinci məqaləti, "Ədalət və insafı gözləmək haqqında" ikinci məqaləti, "Padşahın rəiyyətə qayğı göstərməsi haqqında" üçüncü məqaləti, hekayələrdən "Özündən naümid olub bağışlanan padşahın hekayəsi", "Nuşirəvan və bayquşların söhbəti", "Sultan Səncər və qarı", "Zalım padşahla zahidin dastanı", "Bir şahzadənin hekayəsi"ndə hamını düşündürən aktual məsələ - hökmdarın xalqla rəftarı mövzusu diqqəti cəlb edir. Dahi şair dövrünün zalım hökmdarlarını gah axirətlə qorxudur, gah zülmün bu dünyada onlara zərər, ziyan yetirəcəyini xatırladır, onları xalqın qəzəbi ilə hədələyir (Gəncəvi, 2004: 18).

"Zalım padşahla zahidin dastanı" və "Sultan Səncər və qarı" hekayələri məzmunca bir-birinə çox yaxındır. Əgər "Sultan Səncər və qarı"da şah məmurlarının cinayətləri və şahın bu cinayətlərə laqeydliyi əks olunmuşsa, "Zalım padşahla zahidin dastanı"nda feodal gerçəkliyinin başqa bir mənfi cəhəti açıq şəkildə göstərilir. Sultan Səncər xalqın şikayətlərinə əhəmiyyət vermir, cinayətkarları cəzalandırmır, onlara şərait yaradırsa, bu hekayədə təsvir edilən zalım padşah daha qəddardır. O, hər tərəfi casuslarla doldurmuşdur, haqq deyən dilləri kəsdirir, şahın zülmündən şikayət eləyənləri məhv etdirir. Onun ölkəsində şahın əleyhinə danışmaq ən qorxulu cinayət sayılır. Bu isə Nizami dövrünün mənzərəsidir. Ona görə də Y.E.Bertels bu hekayəni "Sirlər xəzinəsi"nin açarı və poemanın ən yaxşı hekayəsi adlandırır. Doğrudan da, Nizami "Sirlər xəzinəsi" ilə zəmanəsinin eybəcərliklərinə güzgü tutmuş, hər şeyi olduğu kimi göstərən bir poeziya aynası yaratmışdır (Gəncəvi, 2004: 16).

“Sirlər xəzinəsi”nin şərhini vermiş Xəlil Yusifli qeyd edir ki, Nizami poeziyasında ictimai siniflər arasındakı kəskin fərq, hakim təbəqələrlə xalq arasında mövcud fərqlər, onların qarşı-qarşıya qoyulması, eyni zamanda bu mövzuda xalqın böyük gücünə inam, hökmdar və xalq probleminin demokratik şəkildə həlli yolunun irəli sürülməsi Yaxın və Orta Şərq İntibahının ən böyük nailiyyətlərindən kimi qiymətləndirilməlidir. Nizami bununla da kifayətlənmir, yeniliyin köhnəliklə mübarizəsi, köhnəliyə qarşı amansız döyüşkən mövqe tutması fikrini irəli sürür. O, əsrlərin köhnə və geridəqalmış düşüncə tərzindən gələcəyə baxaraq, yeni ideyaların qələbəsi üçün yollar göstərir (Nəsirov, 2021: 21).

Əlbəttə Nizami yaradıcılığının ən böyük əhəmiyyəti də məhz bunda, həyatı ziddiyyətli şəkildə göstərməsindədir. Şair "Sirlər xəzinəsi"ndə dövrün geniş bədii mənzərəsini yaratmış, ən müxtəlif məsələlərdən danışmış, müxtəlif təbəqələrin həyatından söhbət açmışdır. Əfsanəvi, tarixi şəxsiyyətlərdən tutmuş müasir dövrün adi adamlarına qədər hamı burada əks olunmuşdur (Gəncəvi, 2004: 19).

Əməyə və əməksevər insana dərin məhəbbət və hörmət Nizami yaradıcılığını səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Şair başqa yaradıcılıq nümunələrində olduğu kimi "Sirlər xəzinəsi"ndə də bu mövzuya xüsusi diqqət yetirir, əməyi insanın yaraşığı sayır. Nizami belə hesab edir ki, hər bir adam işləməli, öz zəhməti ilə halal yolla həyatda qalmalıdır. İstər məqalətlərdə, istərsə də ayrı-ayrı hekayələrdə onun insanı əməyə, zəhmətə çağıran fikirlərini görürük:

Ey əxi, nəfs itdir, onu çək dara,
Ruzi üçün açma əl alçaqlara.
Dadına paxıl rizqini, ye torpağı,
Torpaq olub, olma rəzil tapdağı.
Qoy əlinə, qəlbinə batsın tikan,
İşlə, çalış durma bekar bircə an.

"Sirlər xəzinəsi" zəngin məzmunlu, yüksək sənətkarlıqla yazılmış bir əsərdir. Azərbaycan İntibahının qiymətli bir xəzinəsi kimi bu əsərin əhəmiyyəti ondadır ki, insanlığın işıqlı sabahına, sadə xalqa məhəbbətlə doludur (Yusifoğlu, 2021: 20).

Nizami Gəncəvi yaradıcılığı istər öz dövrü, istərsə də sonrakı dövrlərdə müxtəlif şair və ediblərin marağına səbəb olmuş, çoxsaylı şərhlərin meydana gəlməsinə səbəb olmuşdur. Z. Allahverdiyeva qələmə aldığı Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərinə yazılan şərhlər haqqında məqaləsində qeyd edir ki, "Məxzənül-əsrar" ("Sirlər xəzinəsi") məsnəvisinin şərhçilik tarixi orta əsrlərdən başlayır və bu şərhçilər arasında Əbdül Həmid Qazi, Məhəmməd Qivami əl-Bəlxi, Mövlana Mustafa Şəmi Çələbi kimi öz dövrlərinin görkəmli dilçi-alimi, Şərq fəlsəfəsi və poetikasını mükəmməl bilən şəxsiyyətlər vardır. "Məxzənül-əsrar"a türkcə yazılmış ilk şərh kitabı XVI əsrdə yaşamış türk müəllifi Mövlana Mustafa Şəmi Çələbi tərəfindən qələmə alınmışdır. Mövlana Mustafa Şəmi Çələbi öz dövrünün görkəmli poeziya şərhçilərindən hesab olunur. XVIII əsrin əvvəllərində Qazi İbrahim Tatainin hazırladığı şərh, daha sonra XIX əsrdə Zühur əl-Həsən Banhurinin 1881-ci ildə yazdığı "Zühur əl-əsrar" ("Sirlərin zühuru") adlı şərhini göstərmək olar. XIX əsrdə, 1844-cü ildə Londonda Oksford Universitetinin görkəmli şərqşünas alimi Nataniel Blend tərəfindən Nizami Gəncəvinin "Məxzənül-əsrar" əsərinin farsca mətninin nəşri Avropada bu sahədə görülmüş ilk ciddi iş olaraq çox qiymətlidir (Allahverdiyeva, 2019: 17).

XX əsrdə Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərinə İranda, eləcə də Azərbaycan və Rusiyada şərhlər yazılmışdır. Şairin lirika və poemalarının nəşri, tərcümə və tədqiqi zamanı izahlar və açıqlamalar vermiş müəlliflər içərisində H.Araslı, Y.E.Bertels, M.Əlizadə, V.Dəstgirdi, S.Nəfisi, Y.Pipka, Q.Darab, R.Əliyev, Q.Əliyev, Z.Quluzadə, V.Aslanov, H.Məmmədzadə, A.Rüstəmova, X.Yusifli, Ç.Sadıqoğlu, N.Araslı, T.Kərimli və onlarla başqa bu sahədə əməyi olan müəllifləri mütləq qed etmək lazımdır.

Son dövrlərdə Nizami Gəncəvinin yaradıcılığına müraciət edərək onun tədqiqinə geniş yer vermiş alimlər arasında "Sirlər xəzinəsi" əsərinə 10 cilddən ibarət şərh yazmış Azərbaycan alimi Siracəddin Hacının adını qeyd etmək lazımdır.

Nizami Gəncəvinin "Məxzənül-əsrar" məsnəvisini nəşr və tədqiq edən alimlərin hamısı əsərin ideya və üslubunda islam dininə bağlı elementləri xüsusi qeyd etmişlər, çünki əsər özü bunu tələb edir. Məsələn, Blend 1844-cü ildə Londonda "Məxzənül-əsrar"ı nəşr edərkən, kitaba məhz Nizaminin özünün beytlərini epiqraf seçmişdir (Allahverdiyeva, 2019: 20).

## Nəticə

Azərbaycanın görkəmli şairi Nizami Gəncəvi dövrünün hərtərəfli biliyə malik, dahi şəxsiyyətlərindən biri olmuşdur. Onun misilsiz əsərlərində xalqın arzuları, sosial ədalətsizlik göstərilməklə, gözəl bədii təfəkkür nümunəsi ortaya çıxmış, şairin etik fəlsəfi bilikləri geniş şəkildə təzahür etmişdir. Şairin yaradıcılığında istifadə olunmuş atalar sözləri və hikmətli sözlər başlanğıcını folklordan götürsə də Nizami kimi müdrik bir şəxsiyyətin qələmi ilə yeni və daha geniş məna və məzmun ifadə etmişdir. Eləcə də bir çox şair, alim və yaradıcı şəxsiyyətlərə məxsus fikir və ifadələr onun yaradıcılığı ilə dah geniş auditoriyaya çatdırılmışdır. Nizaminin ölümsüz əsərləri sadəcə Azərbaycan ədəbiyyatına deyil, eyni zamanda dünya ədəbiyyatına böyük töhfə vermişdir (Hüseynova, 2021: 6).

Əlbəttə yaradıcılığı ilə ümumdünya mədəniyyətinə verdiyi misilsiz töhfələrlə şair şərq və dünya ədəbiyyatının ən yüksək zirvəsini fəth etmişdir. Onun "Xəmsə"si demək olar ki, dünyanın bütün canlı dillərinə tərcümə olunmuş nadir əsərlərdəndir ki, çoxsaylı şairin də nəzirələrinin mənbəyi kimi çıxış edir. Şairin öz nuru, ziyası ilə yaratdığı geniş kütləyə təbir edən əsərlərini nəzərə alaraq onu yalnız günəşlə müqayisə oluna biləcək bir şəxsiyyət kimi qiymətləndirmək lazımdır (Məmmədova, 2020: 161).

Ə. Məmmədova öz məqaləsində Səid Nəfisinin fikirlərinə istinad edərək şair haqda belə yazır: "O əsərlərini fars dilində yazsa da, bəzən farsdilli oxucuya onun yazdıqlarının incəliklərinin anlaşılmaz və çətin gəldiyi məqamlar olur. Nizami Gəncəvi bugün bütün dünyaya məlum əsərlərinin hamısını yaşadığı dövrün tələbinə uyğun olaraq farsca qələmə almışdır. Şairin farscası nə qədər rəvan və kamil olsa da, bu bir farsın farscası məsələn Firdovsinin farscası deyil."

Nizami və onun müasirləri Azərbaycan və Aran üslubu nümayəndələri folklor və şifahi xalq ədəbiyyatından çox bəhrələnmiş, adi xalq danışığını, ifadə və deyimləri əsərlərində böyük bir

bacarıq və məharətlə istifadə etmişdir. əsrlər keçməsinə baxmayaraq, hələ də həmin ifadə və deyimlər bugün də azərbaycanlılar arasında canlı dil ifadəsi kimi istifadə edilir və illərin buna bir təsiri olmamışdır (Bamdadi, 2004: 5).

Bəhruz Bamdadi Nizami yaradıcılığını araşdırarkən belə qənaətə gəlir: Azərbaycan şairləri, o cümlədən Nizami Gəncəvinin əsərlərini oxuyub, lazımi şəkildə başa düşmək üçün Azərbaycan (türk) dilinin incəliklərini bilmək lazımdır. Qeyd etdiyimiz kimi, Nizami əsərlərindəki bəzi ifadə və tərkiblərin türk olmayan oxucuya qarışıq gəlməsinin səbəbi isə məhz onun əsərlərindəki incə məqamları bilməmələridir (Bamdadi, 2004: 6).

Öz məqaləsində B.Bamdadinin bu fikrinə istinad edən Ə.Məmmədova məhz Nizaminin bir türk olmasından irəli gəldiyini bəyan edir (Məmmədova, 2020: 163).

Hər iki müəllifin fikirlərinə istinad edərək deyə bilərik ki, həqiqətən də dahi şair Nizami Gəncəvi türk dilinin daşıyıcısı kimi bir çox hallarda türk, azərbaycan dillərinə məxsus idiom və ifadələri, tərkibləri, atalar sözlərini tərcümə edərək, çox incə şəkildə nəzmə çəkmişdir.

## Ədəbiyyat

1. Gəncəvi, N. (2004). Sirlər xəzinəsi. Bakı: Lider Nəşriyyat, 263 s.
2. Cavadov, M. Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərində xeyir və şər motivləri, s.282-290.
3. Məmmədova, Ə. (2020). Nizami əsərlərində atalar sözləri və məsəllər ("Sirlər xəzinəsi" üzrə). Bakı Universiteti xəbərləri. №3, s.160-168.
4. Nəsirov, E. (2021). "Sirlər xəzinəsi": İnsan və onun əxlaqı. Türküstan qəzeti, 21 s.
5. Yusifoğlu, R. (2021). Nizaminin sehrli sənət güzgüsü və ya "Sirlər xəzinəsi"nin xəzinədarı. 525-ci qəzet, 20 s.
6. Allahverdiyeva, Z. (2019). Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərinə yazılan şərhlər haqqında. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan ədəbiyyatşünaslığı, № 2, s.16-21.
7. Hüseynova, E. (2021). Nizami Gəncəvi yaradıcılığında təbiət leksikası. Bakı: Respublika qəzeti, 6 s.
8. Bamdadi, B. (2004). Nəqş-e folklor-e ədəbiyyat-e şefahi-ye Azərbaycan dər asar-e Nezami-ye Gəncəvi. Təbriz. Məcmue-ye məqalət-e əvvəlin neşəst, s.2-15.

Göndərilib: 03.05.2023 Qəbul edilib: 11.07.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/31-34

**Şəhanə Əsgərova**
Azərbaycan Dillər Universiteti
doktorant
shahanaasgarova@gmail.com
ORCİD İD 0000-0003-0890-0065

# FRANSIZ DİLİNDƏ HEYVAN VƏ QUŞ ADLARININ METAFORLAŞMASI

## Xülasə

Dilin lüğət tərkibində olan sözlər öz həqiqi mənasından başqa törəmə yəni məcazi məna da ifadə edirlər. Bu, sözlərin çoxmənalılığı əsasında mümkün olur. Bir söz bir neçə anlayışı ifadə edə bilir. Beləliklə dilin məcazlar sistemi yaranır. Məcazın ən məhsuldar növü olan metafora əşya və ya hadisələr arasındakı müxtəlif oxşarlıq əsasında yaranır. Fransız dilində heyvan adlarının metaforlaşması prosesinə tez-tez rast gəlinir. Bu cür metaforalar zoometaforizmlər – heyvan metaforaları adlanır. Heyvan, quş, həşərata aid hər hansı xüsusiyyətdən insanı xarakterizə etmək üçün istifadə olunur. Bu cür ifadələr həm mənfi, həm müsbət anlayışı ifadə edə bilər. Belə ifadələrin yaranması hər bir xalqın yaşayış tərzi, inancları, mədəniyyəti, təfəkkürü və s. İlə əlaqədardır.

***Açar sözlər:*** *söz, məcazi məna, metafora, zoometaforizm, köçürmə*

**Shahana Asgarova**
Azerbaijan University of Languages
PhD student
shahanaasgarova@gmail.com
ORCİD İD 0000-0003-0890-0065

## Metaphorizing of animal and bird names in French

## Abstract

Words in the vocabulary of the language can express a figurative meaning in addition to the real meaning. This is possible on the basis of polysemy of words. One word can express several concepts. Thus, the system of metaphors of the language is created. Metaphor, the most productive type of trope, is based on various similarities between thing or events. In French the process of metaphor of animal names is often encountered. Such metaphors are called animals metaphors. Any characteristic of an animal, bird or insect is used to describe a person. Such expressions can express both negative and positive meaning. The creation of such expressions is related to the way of life, beliefs, culture, thinking, etc. Of each nation.

***Keywords:*** *word, figurative meaning, metaphor, zoometaphorism, transfer*

## Giriş

Dilin lüğət tərkibini təşkil edən sözlər yalnız bir yox, bir neçə məna ifadə edən vahidlərdir. Sözlərin ilkin, həqiqi mənası onların birbaşa ifadə etdikləri mənadır. Sözün həqiqi mənası əşya və hadisələri, canlı və cansız varlıqları birbaşa adlandırmağa xidmət edir. Həyatda, təbiətdə əşya və hadisələr arasında mövcud olan oxşarlıq, bənzəyiş əsasında bir söz bir neçə məhfumu adlandırmalı olur. Söz öz həqiqi mənasından qismən uzaqlaşaraq məcazi məna kəsb edir. Sözlərin çoxmənalılığı əsasında yaranan məcaz, canlı və cansız varlıqlar arasında mövcud olan müəyyən oxşarlıq, bənzəyiş, əlaqələndirmə ilə meydana gəlir. Beləliklə də, dilin məcazlar sisemi yaranır. Məcaz fikri obrazlı ifadə etməyə xidmət edir. Bununla belə dildə daha çox işlənən, obrazlılığını itirmiş məcazlar da mövcuddur. Məcazlar içərisində ən məhsuldarı metaforadır. Metafora yunan sözü olub “köçürmə” mənasındadır. Metafora hər hansı əşya və hadisələrə, canlı və cansız varlıqlara aid

əlamət və xüsusiyyətərin digər əşya və hadisə, canlı və cansız varlıqlar üzərinə köçürülməsi yolu ilə yaranır. Obrazlı təfəkkürün məhsulu olan metafora əşya və hadisələr arasındakı əlaqələrin, oxşarlıqların dərk olunması ilə meydana gəlir. Sözlərin metaforikləşməsi nəticəsində bir söz bir neçə anlayışı ifadə edə bilir. Metafora müqayisədən doğur (Djabbarov, 2015: 100).

Müxtəlif leksik qruplar məcazlaşaraq metaforalar əmələ gətirirlər. Heyvan, quş və həşərat adaları metafora yaradılmasında mühüm mənbələrdən biri hesab olur. Heyan adları ilə insan xarakterizə olunur, bunlar bəzən təhqiramiz ifadələr olur: un cochon – donuz, un âne – uzunqulaq, une pie – sağsağan, une vache – inək (Lopadnikova, 2001:31). Heyvan, quş və həşərat adlarının metaforikləşməsi nəticəsində yaranan ifadələr zoometaforizmlər adlanır. İnsanı səciyyələndirmək üçün işlədilən heyvan, quş, həşərat adlarının məcazlaşmış forması ümumi dilçilikdə (Azərbaycan dilçiliyində) "zoosemiya" (zoosemizm) və ya zoometaforiya (zoometaforizm) terminləri ilə ümumiləşdirilir (Hacıyeva, 2006 : 13). Fransız dilində isə bu cür metaforalar *la métaphore animale* adlanır. Heyavan, quş və həşəratlara aid hər hansı xüsusiyyətdən insanı xarakterizə etmək üçün həmin heyvan, quş və həşəratın adı ilə bağlı çoxlu ifadələr işlədilir. Zoometaforizmlər insanı obrazlı ifadə etməyə xidmət edir. Heyvan, quş və həşəratlara aid xüsusiyyətlərlə insanın hərəkəti, görünüşü, mənəvi və əqli keyfiyyətləri xarakterizə olunur. Bu cür ifadələrin yaranması hər bir xalqın həyat tərzi, məişət şəraiti, inancları, davranışları, milli-mədəni xüsusiyyətləri ilə sıx bağlıdır. Zoometaforizmlərə həm canlı danışıq dilində, həm də bədii əsərlərdə tez-tez rast gəlmək mümükündür.

Fransız dilində ev heyvanları, vəhşi heyvanlar, quşlar, həşərat adlarının məcaziləşməsi nəticəsində yaranan ifadələr çoxluq təşkil edir. İnsanlara hər hansı heyvanın, quşun, həşəratın adı verilirsə, deməli həmin heyvanın, quşun və həşəratın hər hansı xüsusiyyəti insanda da müşahidə olunur. Qeyd edək ki, heç də bütün heyvan və quş adları zoometaforizm kimi işlənmir. Zoometaforizmlər ümumişlək metaforalara aid edilir, danışıq dilində onlardan çox istifadə olunur. Heyvan adlarının metaforlaşması dilin lüğət tərkibini zənginləşdirən mənbələrdən biridir. Heyvan adları ilə həm fransız, həm azərbaycan dilində mənfi və ya müsbət expressiyalı ifadələr yaradılır. Məslən, âne – uzunqulaq, eşşək sözü ilə yaranan ifadələr daha qədimdir. Tədqiqatlar göstərir ki, avam, cahil insan üçün işlədilən , âne qədim fransız dili, latin dilində də geniş istifadə olunmuşdur.

*C'est un âne* (Dictionnaire Le Robert, 1993 : 45) – hərfi mənası, bu uzunqulaqdır. Avam, kütbeyin, cahil insan üçün işlədilir.

*Mouton* – qoyun, kor – koranə başqalarının ardınca gedən

*Lion* – aslan, şir – güclü, cəsur, enerjili

*Coeur de lion* – şir ürəkli, cəsur

*Bouffer du lion* – aqressiv olmaq, qeyri – adi enerjisi olmaq

*Mémoire de l'éléphant* – fil yaddaşı, güclü hafizəsi, yaddaşı olan insan üçün işlədilir.

*La vache* – inək, həm mənfi, həm müsbət məna ifadə edə bilir.

*La vache !* – təəccüb və narazılıq bildirir

*Peau de vache* (inək gönü) – gönü qalın adam, bivec adam

*Une vache* – kök adam

Fransız yazıçısı J.Renard George Sand haqqında belə bir cümlə işlətmişdir.

*«George Sand, la vache bretonne de la littérature»* (Renar, 1887-1992 : 73).

*Loup – canavar, qurd* sözünün məcaziləşməsi ilə çoxsaylı ifadələr yaranmışdır. Bunlar müxtəlif sivilizasiyalarda, inanclar, əfsanələr və miflərlə bağlı olmuşdur. *Qurd* sözü ilə fransız dilində həm müsbət, həm mənfi ekspressiyalı ifadələr mövcuddur.

*Avoir une faim de loup* (Dictionnaire Larousse, 1977: 184) – qurd kimi ac olmaq, çox ac olmaq.

*Jeune loup* – gənc ambisialı adam

*Marcher à pas de loup* – səssiz addımlamaq

*Un vieux loup de mer* – (qoca dəniz qurdu) – təcrübəli adam

*Prendre la mouche* – (milçək götürmək) - əsəbləşmək, tez özündən çıxmaq.

*Une vipère – gürzə, un serpent – ilan, un crocodile – timsah* sözlərinin metaforlaşması nəticəsində mənfi expressiyalı ifadələr yaranmışdır.

*Avoir une langue de vipère* – gürzə dili olmaq, danışığı ilə başqalarını icidən, acıdil, dilindən zəhər tökülən insan üçün işlədilir.

*C'est une vipère* – bu bir gürzədir. Acıdil, qəddər, qeybət edən mənasında işlənir. Aydındır ki, gürzə zəhərli, sancması ilə hətta ölümə səbəb olan bir sürünəndir.

Heyvan adlarının metaforlaşması tarixi bir prosesdir. Bir çox ifadələr vardır ki, müəyyən hadisələrdən, rəvayətlərdən sonra yaranmışdır. Müxtəlif dillərdə işlədilən *des larmes de crocodile* – timsah gözyaşlar, yalan gözyaşları, kimsə nəisə əldə etmək üçün ağladıqda bu ifadə işlədilir. Bu ifadə qədim bir əfsanədən irəli gəlir, XVI əsrdən bəri işlədilir. Timsahlar öz ovlarını inilti, yalançı gözyaşları ilə özlərinə cəlb edirlər. Məhz buna görə də ikiüzlülükə, riyakarlıqla ağlayan insanlar üçün bu ifadə işlədilir.

Fransız dilində heyvan, quş, həşarat adlarından *kimi (comme)* qoşması ilə müqayisə əsasında yaranan ifadələr çoxluq təşkil edir.

*Être doux comme un agneau* – quzu kim mülayim olmaq = səxavətli olmaq

*Être bavard comme un pie* – sağsağan kimi boşboğaz olmaq = çox danışmaq

*Rusé comme un renard* – tülkü kimi hiyləgər

*Lent comme un escargot* – ilbiz kimi asta

*Fier comme un pou* – (bit kimi fəxr etmək) qürurlu olmaq

Azərbaycan dilində olduğu kimi fransız dilində də un cochon – donuz adətən mənfi məna ifadə edir. *Manger comme un cochon* – donuz kimi yemək, acgözlüklə, üz – güzönü çirkləndirərək yemək.

*Caractère de cochon* – pis xarakteri olmaq

Fransız dilində un cochon sözü ilə müsbət məna çaları olan ifadə də vardır.

*Copain comme cochon* – hərfi mənada donuz kimi dost olmaq – çox yaxşı dost olmaq. Bir – birinə çox yaxın olan iki dost haqqında işlədilir.

Bəzi heyvan balalarının adları ilə müqayisə əsasında *comme – kimi* qoşmasının vasitəsilə yaranan ifadələr.

*Pleurer comme un veau* – (buzov kimi ağlamaq) çox ağlamaq, məsumcasına, hıcqıraraq ağlamaq.

*Être doux comme un agneau* – (quzu kimi mülayim olamaq) pislik etməyi bacarmayan, saf, təmiz insan haqqında deyilir.

Zoometaforizmlərə idiomlarda da rast gəlinir. İdiomlar öz həqiqi mənalarından uzaqlaşmış, məcaziləşmiş bir məhfumu bildirən söz və ya söz birləşmələridir. İdiomlarda məna qeyri – real xarakter daşıyır. Bu cür ifadələr mübaliğə, ironiya kimi semantikaya malik olurlar.

*Avoir un chat dans la gorge* – (boğazında pişik olmaq) = danışmaqda çətinlik çəkmək, danışa bilməmək

*Un froid de canard* – (ördək soyuğu) dəhşətli suyuq

*Être comme un poisson dans l'eau* – (suda balıq olmaq) çox rahat olmaq

Zoometaforizmlərə atalar sözlərində də rast gəlinir. Qeyd edək ki, bu cür ifadələrdə işlənən heyvan, quş, həşarat adları heç də həmişə dilimizə olduğu kimi tərcümə olunmur. Yəni azərbaycan dilində onlara uyğun müxtəlif ekvivalentlər işlədilir.

*A bon chat, bon rat – daş qayaya rast gəlib.*

*A grand cheval grande gue – böyük sandığın böyük də halqası olar* (Sadikhova, 2021: 4-6).

*Ce que lion ne peut, le renard le fait – qüvvə hər şeyi sındırar, ağıl qüvvəni* (Sadıkhova, 2021: 29).

*Le chien aboie, le vent emporte – it hürər, karvan keçər. İt hürər, külək yayar* (Sadikhova, 2021: 40).

*Une hirondelle ne fait pas le printemps* – bir gül açmaqla yaz olmaz (Sadikhova, 2021: 60).

*Les loups peuvent perdre leurs dents, mais non leur naturel – qurd tükünü dəyişər, xasiyyətini yox* (Sadikhova, 2021: 80).

Heyvan, quş və həşərat adları ilə yaranan ifadələr dilin lüğət tərkibini zənginləşdirməklə yanaşı, həm də xalqın sevincini, kədərini, müdrikliyini, müsbət və ya mənfi keyfiyyətlərini özündə əks etdirir. Fransız dili də belə ifadələrlə zəngindir.

Bədii əsərlərdə yazıçı əsərin təsir gücünü artırmaq, personajı daha obrazlı təsvir etmək, onun xarakterini qiymətləndirmək üçün heyvan adlarından da istifadə edir. Hər hansı heyvana xas olan bir və ya bir neçə xüsusiyyətlə insan xarakterizə olunur. Bəzən heyvan aid xüsusiyyətin adı ümumiyyətlə çəkilmir, sadəcə heyanın adı çəkilir. Belə nümunələrə istər klassik, istərsə də müasir dövrdə yazılmış bədii əsərlərdə rast gəlinir. *Tais – toi, serpent* (Shmitt, 2021: 296)! – Sən sus, ilan!

Heyvan adlarının metaforlaşması prosesi çox qədim tarixə malikdir. İnsanlar uzun müddət heyvanları müşahidə etmiş, onların xüsusiyyətlərindən insanların xarakterini, hərəkətini qiymətləndirmək üçün istifadə etmişlər. Lakin sadəcə real heyvan adları deyil, əsatirlərdə, mif və əfsanələrdə olan heyvan adları da metaforlaşmaya məruz qalmışlar.

*C'est un vrai Cheval Mallet* – çox cəsur, ürəkli insan üçün işlədilən bir ifadə.

*Qui veut devenir dragon doit manger d'abord beaucoup de petits serpents* – Kim əjdaha olmaq istəyirsə əvvəlcə çoxlu kiçik ilanlar yeməlidir.

## Nəticə

Fransız dilində heyvan,quş və həşərat adlarının məcaziləşməsi nəticəsində yaranan metaforalar üstünlük təşkil edir. Həm danışıq dilində, həm də bədii əsərlərdə insanı səciyyələndirmək üçün heyvan adlarından istifadə olunur. Belə ki, hər hansı heyvana aid xüsusiyyət insan üzərinə köçürülərək onu xarakterizə edir. Heyvan, quş və həşərat adları ilə düzələn ifadələrə atalar sözləri və idiomlarda da rast gəlinir. Məsələn, hiyləgər adama – renard tülkü, səliqəsiz, çirkli adama – cochon donuz, axmaq adamı – oie qaz və.s. adlandırılır. Bu metaforaların əksəriyyəti mənfi mənada işlənsə də, müsbət ekspressiyalı ifadələr də vardır.

## Ədəbiyyat

1. Djabbarov, R. (2015). "French stylistics". Baku.
2. Lopatnikova, N.N., Movchovitch N.A. (2001) "Lexicologie du français moderne". Moskva.
3. Hacıyeva, A. (2006). "Zoometaforizmlər". Bakı.
4. Dictionnaire Le Robert. (1993) Micro. Paris.
5. Renard, J. (1887-1892). "Journal".
6. Dictionnaire Larousse Synonymes. (1977). Paris.
7. Sadikhova, G. (2021). Dictionary of French equivalent proverbs. Azerbaijani, Russian Baku.
8. Schmitt, E.E. (2021). "Paradis Perdus" albin Michel.

Göndərilib: 10.06.2023 Qəbul edilib: 07.08.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/35-40

**Zəhra Seyidqızı**
Naxçıvan Dövlət Universiteti
zehra.seyidqizi@turanbazar.com

# İNSANDA İNSANLIQ TƏRBİYƏSİ

**Xülasə**

Ölməz Mirzə Cəlilin "Ölülər" əsərində "dirilər" üçün çox ibrətamiz olan bir fikir var. Kefli İsgəndər üzünü insanlara tutub təəssüflənir və deyir: "Hamı deyir ki, get, oxu, alim ol. Amma bir deyən yoxdur ki, get, oxu, adam ol". Bəli, bir şəxsiyyətə məxsus ən nəcib keyfiyyətlər "adam" olmaq, insan kimi yaşamaq, insanda insanlıq tərbiyə etməkdir. Məgər bu bizim hər birimizin ən təmiz duyğulu, ən nəcib hissli vətəndaşlıq vəzifəmiz deyilmi? Bəs bu vəzifəyə münasibət necə, hamıda eynidirmi?

***Açar sözlər:*** *tərbiyə, əxlaq, valideyn, uşaq, insanlıq, hörmət, yaxşılıq, dəyər, mentalitet, əqidə, həqiqət, əməl, düşüncə, ədalət, fikir, ağıl, xəta, günah, səbr*

**Zahra Seyidgizi**
Nakhchivan State University
zehra.seyidqizi@turanbazar.com

## Nurturing humanity in the human

**Abstract**

In the "Ölülər" (the dead) work of immortal Mirza Jalil, there is a very exemplary idea for the "alive". Kefli Isgender faces humans, regrets and tells: "Everybody says that, go, study, be a scientist (scholar). But there is nobody saying that, go, study, be a human". Yes, the most noble qualities belonging to a personality are being "human", living like a human, nurturing human in the human. But isn't it our- all of our civic duty with the purest soul, with the most noble feeling? Then how about the attitude towards this duty, is it the same for everybody?

***Keywords:*** *nurture, ethics, parent, child, humanity, respect, favour, worthwhile, mentality, belief, truth, act, thought, justice, idea, wisdom, fault, guiltiness, patience*

## Giriş

*Heç bir ata-ana uşağına gözəl tərbiyədən daha yaxşı bir miras qoya bilməz.*
**Həzrəti Məhəmməd**

İnsanın qəlbində, əqidəsində, əməlində yaşayan, heç bir zaman ölməyən bir həqiqət meyarı var – vicdan! Ömür boyu bütün əməllərimiz bu meyarla ölçülür. İnsan zamandan, məkandan asılı olmayaraq, həmişə ədalətli hərəkət edirsə - özünə başqalarından gözlədiyi hörmət, ehtiram dəyərində başqalarına da eyni münasibəti bəsləyirsə, həqiqətin tərəfində durursa, ürəyindəki və dilindəki birdirsə, fikri ilə əməli həmahəngdirsə, vətəninə, xalqına, ailəsinə, ətrafına sədaqətlidirsə, o zaman o insan vicdanlıdır. Böyük filosof Sokrat bir gün günün günorta vaxtı əlində çıraq küçədə ətrafına baxa-baxa addımlayırdı. İnsanlar: "Sokrat yenə ağlını itirib", - düşüncəsilə gülərək: "Sən günün günorta vaxtı çıraqla nə axtarırsan?", - deyə filosofdan soruşurlar. Sokratsa belə cavab verir: "İnsan axtarıram". Ətrafında bu qədər çox insan olduğu halda Sokrat məgər onları görmürdü? Əlbəttə görürdü. Sadəcə, böyük filosof mənəvi zənginlikdən uzaq olan bu insanlar arasında əsl insan axtarmaqla onlara bir həyat dərsi verirdi. Yəni, mükəmməl ağıla, fitri zəkaya, dərin düşüncəyə, kamil hərəkətlərə malik olan bir insan axtarırdı. Doğrudanmı, belə bir insanı tapmaq bu qədər çətindir? Bu bir aksiomadır: kimliyindən asılı olmayaraq hər birimiz yanımızda mükəmməl

insanları görmək istəyirik. Hamı belə deyilsə, bəs belə bir insanın formalaşmasına necə nail ola bilərik?

Bir gün bir müəllim şagirdinə deyir: "Mənim çiyinlərimdə iki canavar oturub. Sol çiynimdəki canavar məni daim pis işlər görməyə vadar edir. Sağ çiynimdəki canavarsa məni yaxşı işlərə ruhlandırır". Şagird soruşur: "Hansı daha güclüdür?". Müəllim deyir: "Daha çox bəslədiyim". Bəli, insanın həyatda kim olmağından asılı olmayaraq istədiyi bir şey var: adı çəkilən zaman insanların yaddaşında həmişə yaxşı əməlləri ilə xatırlansın. İnsan olaraq həmişə çalışırıq ki, "bəslədiyimiz" nəinki bizə, başqalarına da xeyirxahlıq bəxş etsin. "Bəslədiyimizsə" bizim tərbiyəmizdən, əxlaqımızdan və mənəviyyatımızdan asılı olaraq dəyişir.

"Şəxsiyyətin inkişafında mühitin də xeyli rolu vardır. Mühit dedikdə, başlıca olaraq, ictimai, qismən isə təbii-coğrafi mühit nəzərdə tutulur. Təbii mühit anlayışına dağ, dərə, hava, su, təbiət mənzərələri, meşələr, günəş və s. daxildir. Məsələn, fiziki inkişafda, insanın sağlamlığında hava və suyun mühüm rolu olduğunu heç kim inkar etmir. Bununla belə, əsas yeri ictimai mühit, birinci növbədə ictimai münasibətlər tutur. İctimai mühit iki yerə bölünür: a) makromühit, b) mikromühit (ailə mühiti, insanın düşdüyü kollektiv və qruplar, şagirdin kiminlə oturub-durması və s.)" (Əhmədov, Rzayev, 1983: 65).



**Şəkil 1. Balacadan böyüyə insanlar (2, 3, 4)**

Mənəvi keyfiyyətlərə malik mədəni, qabiliyyətli, inanclı, xalqın qəlbinə yol tapan, xeyirxah əməllərə malik, yaxşılığı özünə məslək seçərək davranışlarında qüsursuz olmağa çalışan biri kimi həmişə yaxşıların yaxşısı olmaq istəmişik. Vətənin, millətin, gəncliyin nurlu gələcəyi üçün insanlıq keyfiyyətlərimizi daima artırmağa çalışmışıq.

Yuxarıda sadaladığımız keyfiyyətlərin ilkin rüşeymlərinin yaranması isə birbaşa ailədə - valideyn məsuliyyətində cəmlənir. Maksim Qorki yazırdı ki, insan lap uşaq yaşlarından vicdanının qayğısına qalmalıdır. Bəzən kiçik bir yalana olan doğru münasibət nəinki uşağı, hətta onun valideynini də hövsələdən çıxarır. "Burda nə var ki vicdansızlıq olsun? Uşaq nə bilir ki, vicdansızlıq nədir. Böyüyəndə özü hər şeyi başa düşəcək, hələ uşaqdır," – deyərək öz dünyagörüşünə uyğun olaraq öz düşüncə tərzində uşağını sanki "ətrafdan qorumağa" çalışır. Lakin unudur ki, onun bu gün övladını yanlış yola səslədiyi yalanlar burulğanında övladı öz doğru yolunu itirəcək, ən çətin həyat imtahanlarının ən adi maneələrində belə ayaqları üstündə dura bilməyib büdrəyəcəkdir. B.A. Suxomlinskinin bu baxımdan maraqlı, ibrətamiz bir fikri var. O, uşaqlara deyirdi: "Oğlum, sən insanlar içərisində yaşayırsan". Doğrudan da, əgər sən yalnız öz mənafeyini güdərək ətrafına etinasızsansa, özünü hamıdan uca tutub, hamını özünə borclu bilirsənsə, o zaman hansı əxlaqi keyfiyyətdən, hansı mənəviyyatdan danışmaq olar? Belə xarakter, əslində, çirkli paltarı xatırladır. Sən fikir vermədikcə o daha da çirklənir. Ən pisi odur ki, bu paltarı əynimizdən çıxarıb atmaq bizə o qədər də çətinlik yaratmayacaq. Lakin xarakterdə özünə cil atıb kök salan bu naqis xüsusiyyətlər insan əxlaqında təmizlənməsi çətin olan qara ləkəyə çevriləcəkdir. Bu ləkə isə onu ən adi insani duyğulardan uzaqlaşdıracaq, dərinləşdikcə dərinləşəcək, getdikcə kobudlaşacaqdır. Nəticədə, böyüyə, hətta öz valideynlərinə belə hörmət və ehtiram hissini itirəcəkdir. Bu isə arzuolunmaz ən pis nəticədir. Bəs bu ağır nəticənin acı təəssüratlarını yaşamamaq üçün valideyn nə etməlidir?

Valideyn nə zaman ki evində ilk uşaq qığıltısından, təbəssümündən, əlinin içinə aldığı balaca toppuş uşaq əllərindən öz sevinc payını alıb dünyanın ən xoşbəxt atasına, yaxud anasına çevrildi, o zaman bu sevinci ayların, illərin dönəmində zərrə-zərrə itirib kədərə bələnməmək üçün son nəticəyə doğru hərəkətlərini elə ilk gündən götür-qoy etməlidir.

Bu əxlaqi dəyərlər orta məktəblərdə də inkişaf etdirilir. "Ailə həyatının etika və psixologiyası" fənninin öyrənilməsi zəruri məsələyə çevrilir. Böyük rus yazıçısı L.N.Tolstoy yazmışdır: "Mən möhkəm inanıram ki, insanlar... indi qiymətləndirilməyən əsl və lazımlı bir elmi – necə yaşamaq elmini işləməyə başlayacaqlar" (Əlizadə, Abbasov, 1986: 5-6).

Ata və ana bütün mənəvi-əxlaqi dəyərləri özündə cəmləyən bir yeniyetmənin valideyni olmaq kimi şərəfli vəzifəni yerinə yetirməyə məsul olduğunu isti ürəklə deyil, soyuq başla düşünməli, bu məsələyə absurd yanaşmamalıdır. Övladına aid olan hər hansı bir nöqsanın açılması, çözələnərək əsl səbəbinin ortaya çıxarılması valideyn üçün çox vacib şərtdir. Axı elm kimi əxlaq da səbəb və nəticənin aşkara çıxarıldığı yerdən başlayır. Və səbəbsiz heç bir hadisə olmur. Hadisələr hansısa müəyyən səbəblərin nəticəsidir.

Əslində, valideynlər problemlərin həllində ona görə əziyyət çəkirlər ki, onlar bu nəticəni əmələ gətirən səbəblərdən xəbərsizdir. Bəs gəlin görək bu səbəblər hansılardır? Birinci səbəb uşaqların bütün yaş dövrlərində diqqətə olan hədsiz ehtiyaclarıdır. İkinci səbəb uşaqların həmişə, hər yerdə şəraitdən asılı olmayaraq, özlərini ifadə etmək ehtiyaclarıdır. Sonuncu, üçüncü səbəb kimi isə psixoloqlar uşaqlarda olan intiqam ehtiyaclarını göstərmişlər ki, bu da uşaqların nə vaxtsa narazı qaldıqları hadisəni gizli saxlayaraq öz şüurlarında dərinləşdirib valideynlərinin zəif nöqtələrini tapan zaman bu nifrət hissindən yerində bəhrələnmək üçün istifadə etdikləri səbəbdir.



**Şəkil 2. Səbrsiz valideyn və acı nəticə (6)**

"Məlumdur ki, erkən uşaqlıq dövründə sinir prosesləri olduqca ətalətli, başqa sözlə az mütəhərrik olur. Ona görə də erkən yaşlarda yaranmış xarakter xassələri sonrakı yaşlarda yaranmış xassələrə nisbətən çox davamlı olur və olduqca çətin dəyişir. Bu fakta istinad edərək, bəzi Amerika alimləri şəxsiyyətin xassələrinin, uşağın həvəsinin ödənilib-ödənilməməsindən asılı olaraq, erkən yaşlarda yaranmış münasibətlərlə qabaqcadan ömrün sonuna qədər müəyyən edildiyini iddia edirlər" (Petrovski, 1982: 452).

Ailə daxilində uşağın tərbiyəsi yekdil bir sistem əsasında qurulmalıdır. Əgər ata, ana hər biri özlərinin ən doğru bildiyi üsuldan ayrı-ayrılıqda istifadə edirsə, belə halda uşağın tərbiyəsini zərbə altında qoymuş olurlar. Məsələn, tutaq ki, təzə danışmağa başlayan bir uşağın kiməsə kobud söz deməsi babaya, nənəyə xoş gəldiyi halda, ana əsəbiləşsə də çox vaxt mentalitetə uyğun olaraq böyüklərə hörmətsizlik olmasın deyə bu məqamda öz etirazını bildirə bilmir. Gəlin nəticəyə baxaq. Bircə dəfə kiməsə dediyi kobud sözə görə dəfələrlə alqışlanıb mükafatlanan bu balaca uşaq bu gün nə qədər sevinirsə, sabah onu alqışlayanların elə özlərinə də o kobud sözləri qaytarmış olur. Düzdür, ilk vaxtlar belə hadisələr, bəlkə də, kortəbii görünür. Lakin bu alışqanlıqla böyüyən uşaq artıq 11-12 yaşlarında düşünərəkdən belə kobud – vulqar sözlərdən daha çox istifadə etməyə

başlayır. Və bunda heç bir qəbahət görmür. Çünki o bununla sanki özünü ifadə etmiş olur. Əgər belə vulqar sözlər ailədə bu yaş dövrünəcən tərbiyə olunmayıbsa, vay uşağın halına, artıq çox gecdir. Nə etməli?



**Şəkil 3. Döyülən uşaq (8)**

Əsəbləri tarıma çəkilən valideynin ilk ən böyük səhvi belə məqamda uşağa qarşı kobud, əsəbi, qaba rəftarıdır. Bu rəftar uşağın qəlbini qıracaq, nəinki geri dönüşünə şərait yaradacaq, əksinə nəzakətli bir insan kimi yetişməsinə bir az da mane olacaq. Uşaq inadlaşacaq, valideyndən intiqam almaq üçün məqam axtaracaq. Bu məqamda ya avtobus, mağaza, qonşuların yanı, ya da evdə qonaq olan vaxt seçiləcək. Sizdən qisas alan uşaq istəyəcək ki, siz hörmətdən düşəsiniz, cəmiyyət içində ehtiramınızı itirəsiniz, ləyaqətiniz sarsılsın. Deməк, bu yanlış addımda uşağa qarşı kobudluqdan ayaq saxlamalısınız. Sonra nə düşünəcəksiniz? Ağlınıza gələn son çarə kimi döyəcəksinizmi?... Əsla! Nəticə daha acınacaqlı olar. Belə situasiya zamanı valideyndən həmişəkindən daha çox səbr tələb olunur. Çünki çox kövrək məqamdır. Məsələni çox şişirtmədən, emosional çılğınlıqdan kənar, sakit tərzdə, uşağın öz xətasını anlayacağı günə qədər ona bu mövzuda əhvalatlar danışmaq, məsəllər çəkmək, hətta vulqar sözlərdən istifadə edən başqa uşaqların hərəkətlərini kənardan müşahidə etdirmək və bu hərəkətin niyə pis olduğunu uşağın özü ilə müzakirə etmək ən doğru qərarınız olmalıdır. Problemin müsbət nəticəsi isə sizin səbrinizə və iradənizə söykənir.

"Tərbiyə ana qucağında başlayır, hər deyilən kəlmə isə uşağın şəxsiyyətini formalaşdıran bir kərpicdir". Namiq Kamal (Cəfərov, Ramizoğlu, 2009: 449). Hər kəsdə bir "valideyn çoxbilmişliyi" olmalıdır. Uşağın oyunlarına "alət" olmamaq üçün valideyn şəraiti həmişə düzgün qiymətləndirməyi bacarmalıdır. Yoxsa uşağın hansısa bir xoşagəlməz hərəkətini görən zaman qəfil, düşünülməmiş qərar verərsə, onda bir nöqsanı həll edib, fərqinə varmadan başqa bir nöqsanı körükləmiş olar. Çünki münaqişə zamanı uşaq valideynin üzünə ağ olar, cavab qaytarar. Bu isə ailədə valideynlə övlad arasında yeni və daha mürəkkəb problemin yaranmasına yol açar. Uşaqlarda belə aqressiv hərəkətlər, adətən, yetkinlik yaş dövründə baş verir. Uşaq sanki çoxdan qəlbində yığılıb qalan barıt çəlləyinə dönmüş etirazını bildirir. O öz fikirləri olan azad, müstəqil bir şəxs kimi hərəkət edir. Ən aydın həqiqətləri belə şübhə altına alır. Bütün bunlarsa uşağı ilk əvvəl etinasızlıqdan başlayaraq hörmətsizliyə, kobudluğa, cahilliyə, nadanlığa sürükləyir. Bunların qarşısını almaq valideynin uşaq üçün təkrar tərbiyəsidir. Əks təqdirdə, valideyn bu məqamda cüzi bir səhlənkarlıq edərsə çox şey itirər. Bəzən bütün bu nöqsanlara göz yuman etinasız valideyni görəndə onu məzəmmət edərək düşünürük: "Görəsən bu valideyn dərk edirmi ki, bu gün uşaqdakı bu ədəbsizliyin, bu hörmətsizliyin qarşısını almamaq onu geri dönüşü olmayan uçuruma yuvarlayaraq gələcəkdə bu valideynlərin özlərinə nə qədər ağır iztirablar çəkdirəcək?".

"Ata-analar bəzən elə beləcə də deyirlər: Sözə qulaq assan, sənə at alaram, sözə qulaq assan, sirkə gedərik. Aydındır ki, ailədə də uşaqları bir növ mükafatlandırma formasında bir qədər şirnikləndirmək olar; lakin sözə qulaq asmaq, ata-anası ilə yaxşı rəftar etmək üçün uşaqları mükafatlandırmağa qətiyyən yol verməк olmaz. Uşaq yaxşı oxuyarkən, həqiqətən çətin bir iş görərkən onu mükafatlandırmaq olar. Lakin burada da mükafatı qabaqcadan elan etmək və uşaqları

gözəl vədlərlə məktəb işinə və ya başqa işə həvəsləndirmək qətiyyən doğru deyildir" (Bilik Fondu, 2019: 110-111).



**Şəkil 4. Danlanan uşaq (11)**

Zaman dəyişir, illər ötür, uşaqlar böyüyür... Valideyn nəsihəti ilə uşaqlar arasında məsafə də artır, addım-addım uzaqlaşır. Bəzən valideyn özü də çaşıb qalır, hətta fikirləri də özünə uzaq görünür, bəzən fikirlərinə yol da tapa bilmir. Axı o həmişə belə düşünürdü: istədiyi vaxt məsləhət verər, yol göstərər, nəsihətləri ilə övladını doğru yola yönəldə bilər. Görəsən nə baş verdi, övladına nə olub, niyə heç kəsin sözünü eşitmir, niyə bu qədər dəyişib, niyə onun məsləhətləri daşa dəyir?!... Nə qədər acı olsa da, valideyn bu məqamda illərlə buraxdığı səhvlərinin, günahlarının dərəcəsinə görə cavab verməli, əsl həqiqəti vicdanı qarşısında etiraf etməlidir (Camalov, 2010). "Çox sevdim övladımı, qıymadım, düşünüb daşınmadan çox şeyə göz yumdum, körpə ikən "uşaqdır" deyib başına sığal çəkdim, cəzalandıra bilmədim, təqsirlərini asanlıqla bağışladım, düşünmədən ərköyünlüyə şirnikləndirdim, xətalarına göz yumdum, günahlarına görə cəza vermədim... Ciyər paramın indiki bu vəziyyətə düşməsinin bircə günahkarı var. O da mən!". Bəli, bir vaxtlar gedəcəyi yeri bilmədən yürüyən valideyn çatacağı yerdə çətin də olsa öz acı etiraflarını etdi, gecikmiş etirafını. Günahkardır.

Bu valideynin gec də olsa qəbul etdiyi xətasıdır. Eyni zamanda gələcək uğursuzluğun qarşısını ala biləcək düşünülmüş yeni addımların atılması üçün bir sınaq, bir yaşıl işıqdır. Tərbiyədə yeni uğurlu qaydalara keçid məqamıdır (Camalov, 2010).

Maksim Qorki yazırdı ki, övladı sevmək asandır, toyuq da öz balasını sevir. Lakin övlad tərbiyə etməyi bacarmaq insandan istedad və zəngin həyat təcrübəsi tələb edən əhəmiyyətli bir işdir. Burada heç vaxt ifrata varmaq olmaz. Valideyn heç bir vəchlə övladını heç kəsə xeyir verməyən şumlanmamış xam torpağa çevrilməsinə yol verməməlidir. Buna heç bir valideynin haqqı yoxdur.



**Şəkil 5. Gülərüz uşaq (14)**

## Nəticə

Nizami Gəncəvi yazırdı ki, cansız güzgünü parıldadan insan öz vicdanının mənəvi dəyərlərini pas atmağa qoymamalıdır. Düşünün ki, güzgü cansızdır, ləkə də götürə bilər, atıla da bilər. Lakin böyük türk millətinin daş yaddaşından süzülüb gələn milli, mənəvi və əxlaqi dəyərlərimiz bizim həyat tərzimizi özündə ehtiva edən, bizdən əvvəl var olan və bizdən sonra da əbədi yaşayan elə bir mənəviyyat güzgüsüdür ki, bu güzgü heç bir zaman ləkələnməməlidir. Əksinə, öz mənəvi təmizliyi ilə bütün millətlərə örnək olmalıdır. Bunun üçünsə, gəlin ləkəsiz dəyərlərimizi qoruyaq! İnsanda əsl insanlıq tərbiyə edək (15).

## Ədəbiyyat

1. Əhmədov, B., Rzayev, A. (1983). Pedoqogikadan mühazirə konspektləri. Maarif nəşriyyatı, 350 s.
2. https://pbs.twimg.com/media/ECq3N-7XkAEkhwg.jpg
3. https://estateall.al/uploads/s/7/p/x/7pxkzsfdkwbn/img/full_NM8flFxb.png
4. https://kartinkof.club/uploads/posts/2022-06/1655836761_42-kartinkof-club-p-kartinki-s-nadpisyu-teper-ti-babushka-43.jpg
5. Əlizadə. Ə.Ə., Abbasov A.H. (1986). Ailə. Bakı, 270 s.
6. https://simbatoysindia.files.wordpress.com/2018/05/shutterstock-14713321.jpg
7. Petrovski, A.V. (1982). Ümumi psixologiya. Bakı, 488 s.
8. https://www.thesun.co.uk/wp-content/uploads/2017/10/nintchdbpict000361298583.jpg
9. Cəfərov, M., Ramizoğlu, S. (2009). Ağla və qəlbə işıq saçan sözlər. Bakı, 567 s.
10. Bilik Fondu. (2019). Pedoqoji fikir tarixindən. Naxçıvan: Əcəmi nəşriyyatı, 287 s.
11. https://www.modernmom.com/wp-content/uploads/2011/01/Not-Get-Angry-With-Children.jpg
12. https://tsitaty.org/wp-content/uploads/2010/10/chudo.jpg
13. Camalov, K. (2010). Valideyn-övlad münasibətləri məsələləri Şərq mütəfəkkirlərinin gözü ilə. Bakı: Elm və Təhsil nəşriyyatı.
14. Camalov, K. (2014). Ailədə tərbiyə üsullarının tətbiqi zamanı entopedoqoji materiallardan istifadə imkanları. Bakı: Elm və Təhsil nəşriyyatı.
15. https://agendaeurope.files.wordpress.com/2014/04/happy-family-e1416860136550.jpg

Göndərilib: 26.05.2023 Qəbul edilib: 19.07.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/41-45

**Xavər Hüseynova**
Azərbaycan Kooperasiya Universiteti
nesrin.91@mail.ru

# QLOBAL İQTİSADİYYATDA MÜASİR İDARƏETMƏ NƏZƏRİYYƏLƏRİ

**Xülasə**

Strategiya qarşıya qoyulan məqsədə nail olmaq üçün həyata keçiriləcək uzunmüddətli hərəkətlərin ümumiləşdirilmiş modelidir. Strategiya qərar qəbul edilməsi zamanı təşkilat rəhbərlərinin öz əllərində cəmləşdirdiyi qaydalar məcmusunu əks etdirir. Strategiyaya təşkilatın missiyasına və qarşıya qoyduğu məqsədlərə nail olunmasını təmin edən, təşkilatın zəif və güclü tərəflərini araşdıran, imkanları və gözlənilən təhlükələri müəyyənləşdirən ümumi kompleks plan kimi də baxılır.

Strategiya xarici mühitdə dəyişkənliyə reaksiya verməsinin vasitəsidir. Strategiya uzun müddətli məqsədlərə mərhələlər üzrə nail olmağın yollarını özündə birləşdirir. Strategiya təşkilatın məqsədini və ona nail olmağın yollarını müəyyən edərək vahid hərəkət istiqamətinin seçilməsində mühüm rol oynayır.

İstehsal fuksional zonasının zəif və güclü tərəflərinin təhlili zamanı təşkilatın öz məhsul və xidmətlərini rəqiblərlə müqayisədə daha az xərclərlə reallaşdırmaq imkanları, təşkilatın yeni materiallar əldə etmək imkanları, təşkilatın avadanlığının vəziyyəti və avadanlığa xidmət səviyyəsi, təşkilatın onun rəqiblərinin xidmət göstərə bilmədiyi bazarlara xidmət göstərə bilmə imkanları, təşkilatda məhsul keyfiyyətinə nəzarət edə biləcək effektiv nəzarət sisteminin mövcudluğu, istehsal prosesinin təşkil olunma və planlaşdırılma səviyyəsi kimi məsələlər təhlil olunur.

***Açar sözlər:*** *strategiya, strateji planlaşdırma, müasir iqtisadiyyat, bazar amilləri, siyasi amillər*

**Khavar Huseynova**
Azerbaijan Cooperation University
nesrin.91@mail.ru

## Modern management theories in global economy

**Abstract**

A strategy is a generalized model of long-term actions to be taken to achieve a set goal. The strategy reflects the set of rules that the leaders of the organization concentrate in their hands during decision-making.

Strategy is also viewed as a general comprehensive plan that ensures the achievement of the organization's mission and goals, examines the organization's weaknesses and strengths, and identifies opportunities and expected threats. Strategy is a means of responding to changes in the external environment. A strategy includes ways to achieve long-term goals in stages. Strategy plays an important role in choosing a single course of action by determining the organization's goal and ways to achieve it.

During the analysis of the weaknesses and strengths of the production functional area, issues such as the organization's ability to realize its products and services at lower costs compared to competitors, the organization's ability to acquire new materials, the condition of the organization's equipment and the level of service to the equipment, the organization's ability to serve markets that its competitors cannot serve, the existence of an effective control system that can control product quality in the organization, and the level of organization and planning of the production process are analyzed.

***Keywords:*** *strategy, strategic planning, modern economy, market factors, political factors*

## Giriş

Tədqiqat mövzusunun aktuallığı. Bazar münasibətləri şəraitində makroiqtisadi və mikroiqtisadi sferada qarşıda duran ən mühüm vəzifələrdən biri də müasir idarəetmənin nəzəri və metodoloji problemlərini araşdırmaq və həll etməkdir. Çünki, elə bir sahə yoxdur ki, orada idarəetməyə ehtiyac olmasın. İdarəetmə insanların fəaliyyətini istiqamətləndirməklə və onların davranışlarının əsaslarını yaratmaqla məqsədə nail olmaq bacarığı olub, insan fəaliyyətinin bütün sahələrinə aid edilə bilər. Bazar münasibətlərində baş verən dəyişikliklər iqtisadi sistemin mahiyyətini dəyişdirərək bütövlükdə idarəçilik münasibətlərində də dəyişikliklər etməyə sövq edir (Abbasov, 2011: 59). İdarəetmə münasibətlərində dəyişiklik isə yeni bazar münasibətləri şəraitində idarəetmənin təkmilləşdirilməsini və inkişafını nəzərdə tutur. Bu mövzunun aktuallığı onunla xarakterizə olunur ki, idarəetmənin təkmilləşdirilməsinin və inkişafının əsasında müasir idarəetmə nəzəriyyələrinin və konsepsiyalarının formalaşdırılması və inkişafı durur. Ona görə də müasir idarəetmə nəzəriyyələrinin və konsepsiyalarının öyrənilməsi çox aktual bir məsələdir, eyni zamanda mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Müasir iqtisadiyyatda baş verən mütərəqqi dəyişikliklər təsərrüfat subyektlərinin rəqabət qabiliyyətini yüksəltməyə imkan verən təsərrüfatçılıq siyasəti və strategiyasının işlənib hazırlanmasını tələb edir. Xarici mühitdə baş verən dəyişikliklər və güclü rəqabət şəraitində təşkilatın inkişafının idarə edilməsinin müasir aləti strateji idarəetmədir (Axundov, 2001: 78). Təcrübə göstərir ki, kompleks planlaşdırma və idarəetməni həyata keçirən təşkilatlar daha uğurlu fəaliyyət göstərir və daha çox mənfəət əldə edir.

“Strategiya” sözü yunan sözü olan “strateqos”-dan götürülmüşdür və mənası “generalın məharəti” deməkdir. Bu termin ilk əvvəl hərbi mənşəli söz olmuşdur. Lakin, XX əsrin son rübündən başlayaraq bu anlayış idarəetmənin nəzəriyyə və praktikasında geniş istifadə olunmağa başlanılmışdır.

Strategiya qarşıya qoyulan məqsədə nail olmaq üçün həyata keçiriləcək uzunmüddətli hərəkətlərin ümumiləşdirilmiş modelidir. Strategiya qərar qəbul edilməsi zamanı təşkilat rəhbərlərinin öz əllərində cəmləşdirdiyi qaydalar məcmusunu əks etdirir (Axundov, 2000: 98). Strategiyaya təşkilatın missiyasına və qarşıya qoyduğu məqsədlərə nail olunmasını təmin edən, təşkilatın zəif və güclü tərəflərini araşdıran, imkanları və gözlənilən təhlükələri müəyyənləşdirən ümumi kompleks plan kimi də baxılır. Strategiya xarici mühitdə dəyişkənliyə reaksiya verməsinin vasitəsidir. Strategiya uzun müddətli məqsədlərə mərhələlər üzrə nail olmağın yollarını özündə birləşdirir. Strategiya təşkilatın məqsədini və ona nail olmağın yollarını müəyyən edərək vahid hərəkət istiqamətinin seçilməsində mühüm rol oynayır.

Təşkilatın strategiyası özündə strateji vəziyyətin prioritetlərini, resursları və strateji məqsədlərə nail olunması üzrə atılacaq addımların ardıcıllığını müəyyən edən baş hərəkət planını əks etdirir. Strategiyanın başlıca vəzifəsi təşkilatın hazırki vəziyyətindən rəhbərliyin təşkilatı gələcəkdə görmək istədiyi vəziyyətə çatdırmasından ibarətdir.

Nəzərdə tutulan və ya planlaşdırılan strategiya hələ faktiki strategiya deyil, onun yalnız bir hissəsidir, ikinci hissə isə dəyişən şərtlərlə bağlı rəhbərlik tərəfindən operativ qəbul edilmiş strategiyadır. Sonuncular aşağıdakı səbəblərdən meydana gələ bilər: iri texniki və texnoloji dəyişikliklərin meydana gəlməsi; rəqiblərin bazara uğurlu yeni məhsullar çıxarması; yeni qanunların və ya dövlət qərarlarının meydana çıxması; dövlət siyasətindəki dəyişikliklər; istehlakçıların zövqlərinin dəyişməsi və ya başqa məhsullara meylli olmaları (Menkyu, 2009: 45).

Strateji idarəetmə strategiyaların işlənib hazırlanması və reallaşdırılması üzrə təşkilatların fəaliyyətləri ardıcıllığını müəyyən edən prosesi əks etdirir. Strateji idarəetmə məqsədlərin qoyuluşunu, strategiyaların işlənib hazırlanmasını, lazımı resursların müəyyən olunması və təşkilata qarşı qoyulmuş vəzifələrə nail olmağa imkan verən xarici mühitlə qarşılıqlı əlaqələrin saxlanılmasını da özündə birləşdirir (Qeybullayev, 2000: 65).

Seçilmiş obyektdən asılı olaraq strateji idarəetmənin aşağıdakı istiqamətlərini fərqləndirirlər:

- Korporativ strategiya – bütövlükdə təşkilatın strategiyası;
- Biznes strategiyası – təşkilatın ayrı-ayrı strateji bölmələrinin strategiyası;

– Funksional strategiya – funksional təsərrüfatçılıq zonalarının strategiyası.

Strateji idarəetmənin obyektlərinin üç qrupunu fərləndirirlər:

1. Təşkilat - strateji idarəetmənin obyekti kimi özündə struktur bölmələrini (strateji təsərrüfatçılıq bölmələrini) birləşdirən açıq kompleks sosial –iqtisadi sistem kimi baxılır.

2. Strateji təsərrüfatçılıq bölmələri (STB) – təşkilatın fəaliyyətinin istiqaməti və ya bir sıra yaxın istiqamətlərin məcmusu kimi başa düşülür. STB-lər bazar prinsipləri əsasında işləyən müstəqil təsərrüfat bölmələri olub bazarda öz seqmentində tam rəqabət qabiliyyəti göstərməyə qadir olan tədarükçü, istehlakçı və rəqiblər dairəsinə malikdirlər.

3. Təşkilatın funksional zonaları – müəyyən funksiyaların yerinə yetirilməsi üzrə ixtisaslaşan və həm ayrı-ayrı STB-nin, həm də təşkilatın effektli fəaliyyətini təmin etmək üçün təşkilat cəhətdən funksional struktur bölmələrinə həvalə edilən fəaliyyət sferası başa düşülür.

Strateji idarəetmənin iki əsas son məhsulunu bir-birindən fərqləndirirlər. Birincisi, yaxın perspektivdə məqsədə çatmağa imkan verən təşkilatın potensialı. Təşkilatın potensialı dedikdə təşkilatın malik olduğu xammal, maliyyə və insan resursları, istehsal olunmuş məhsullar və xidmətlər, izlənməsi təşkilata öz məqsədlərinə çatmağa kömək edən sosial davranış qaydaları toplusundan ibarətdir. Strateji idarəetmənin digər son məhsulu isə xarici mühitdə təşkilatın dəyişikliklərə olan həssaslığını təmin edən daxili struktur və təşkilati dəyişikliklərdir (Hüseynov, 2009: 375).

Strateji idarəetmənin əsasını strateji planlaşdırma təşkil edir. Strateji planlaşdırma özündə təşkilatın məqsədinin seçilməsi və həlli prosesini, buna nail olma yollarını birləşdirir. O, bütün idarəetmə qərarlarının əsasını təşkil edir. Strateji planlaşdırma təşkilatın niyyət və məqsədlərinin formalaşdırılması, lazımı resursların müəyyən edilməsi və əldə olunması üçün xüsusi strategiyaların seçilməsi və təşkilatın gələcəkdə effektiv işini təmin etmək məqsədilə onların bölüşdürülməsi prosesidir. Strateji planlaşdırma prosesi idarəetmə qərarlarının qəbul edilməsinə kömək edən alətdir. Onun əsas vəzifəsi ətraf mühitdə baş verən dəyişikliyə adekvat reaksiya verə bilən yeniliklərin və təşkilati dəyişikliklərin təminatından ibarətdir. O. təşkilatın artımını təmin edən və onun mövqelərinin möhkəmləndirilməsinə xidmət edən ümumi istiqamətlərin təyin olunması ilə yekunlaşır (Məmmədov, 2009: 75).

Strateji planlaşdırma prosesi aşağıdakı mərhələləri əhatə edir:

1. Niyyət və məqsədlərin müəyyənləşdirilməsi;
2. Xarici mühitin təhlili;
3. Zəif və güclü tərəflərin təhlili;
4. Strateji alternativlərin təhlili və strategiyanın seçilməsi;
5. Strategiyanın reallaşdırılmasının nəticəsi;
6. Strategiyanın qiymətləndirilməsi.

Strateji planlaşdırma prosesinin qeyd olunmuş mərhələlərini daha geniş izah edək.

Missiya və məqsədlərin müəyyənləşdirilməsi. Missiya ali məqsəddir. Ali məqsəd təşkilatın ictimai statusunu formalaşdırır. Strateji planlaşdırma zamanı təşkilatın missiya və məqsədlərinin seçilməsi birinci və ən məsuliyyətli qərardır. Missiya və məqsədlər planlaşdırmanın bütün sonrakı mərhələləri üçün oriyentir rolunu oynayır və alternativ inkişafı təhlil edərkən təşkilatın fəaliyyət istiqamətinə müəyyən məhdudiyyətlər qoyur. Missiyanın əsasında onun hüdudları çərçivəsində işlənib hazırlanan əsas məqsədlər durur (Yahudov, 2002: 93).

Təşkilatın məqsədlərinin formalaşdırılması üzrə bir neçə addımdan ibarət alqoritm tövsiyyə olunur:

- Məqsədlərin təşkilatın uğurlu inkişafının zəruri şərti kimi təqdim olunması və formalaşdırılmasının vacibliyinin dərk edilməsi.
- Məqsədlərin ifadə edilməsi (formalaşdırılması).
- Məqsədlərin məntiqi qurulması
- Əməkdaşların məqsədlərin formalaşdırılmasına cəlb edilməsi. Niyyət və məqsədlər.

Xarici mühitin təhlili Zəif və güclü tərəflərin təhlili Strateji alternativlərin təhlili və strategiyanın seçilməsi Strategiyanın reallaşdırılmasının nəticəsi Strategiyanın qiymətləndirilməsi

40 Xarici mühitin təhlili. Xarici mühitin təhlili təşkilatın ətraf mühit amillərinin və subyektlərinin inkişaf perspektivlərinin və vəziyyətinin qiymətləndirilməsi ilə xarakterizə olunur. Xarici mühitin təhlilinin köməyi ilə təşkilatın qarşılaşacağı potensial təhlükələri və açılan yeni imkanları qabaqcadan görmək mümkün olur. Xarici mühitin analizi potensial təhlükə və yeni imkanların meydana çıxmasını vaxtında proqnozlaşdırmağa, gözlənilməz vəziyyətlərin meydana gəlməsi zamanı situasiyalı planları işləyib hazırlamağa və potensial təhlükələri sərfəli imkanlara çevirməyə şərait yaradır.

Təşkilatın xarici mühitinin 7 sferasında potensial təhlükə və imkanlar meydana gələ bilər. Bu amil qrupları aşağıdakılardır:

- İqtisadi amillərin təhlili zamanı inflyasiya (deflyasiya) templəri, vergi dərəcəsi, əhalinin məşğulluq səviyyəsi, müəssisələrin ödəmə qabiliyyəti nəzərdən keçirilir.
- Siyasi amillərin təhlili zamanı ticarət üzrə razılaşmalar, ölkələr arasında tariflər, yerli hakimiyyət orqanlarının və mərkəzi hökümətin normativ aktları, iqtisadiyyatın hüquqi tənzimlənməsinin inkişaf səviyyəsi nəzərdən keçirilir.
- Bazar amilləri təşkilatın fəaliyyət effektivliyinə dolayı təsir göstərən çoxlu sayda xüsusiyyətləri özündə birləşdirir. Bu amillərin təhlili təşkilatın strategiyasını dəqiqləşdirməyə və bazardakı mövqeyinin möhkəmləndirilməsinə imkan verir.
- Texnoloji amillərin təhlili zamanı təşkilat rəhbərliyi tərəfindən xarici mühitdə baş verən texnoloji dəyişikliklərin izlənilməsi nəzərdə tutulur. Təşkilat özünün mövcudluğu üçün təhlükə olan texnoloji dəyişikliklərin meydana gəlməsi anını ötürməməlidir. Xarici mühitdə baş verən texnoloji dəyişiklik təşkilatı rəqabət şəraitində çarəsiz qoya bilər. Təşkilat texnoloji dəyişiklikləri izləməklə buna vaxtında reaksiya verə bilər.
- Rəqabət amillərinin təhlili rəqiblərin fəaliyyətinə daimi nəzarəti nəzərdə tutur. Rəqiblərin təhlili zamanı 4 tədqiqat zonası fərqləndirilir: rəqiblərin gələcək məqsədlərinin təhlili; rəqiblərin cari strategiyalarının qiymətləndirilməsi; rəqiblərə münasibətdə ilkin şərtlərin qiymətləndirilməsi; rəqiblərin güclü və zəif tərəflərinin, sahənin inkişaf perspektivinin öyrənilməsi.
- Sosial amillərin dedikdə dəyişən ictimai dəyərlər, məqsədlər, münasibətlər, adətlər nəzərdə tutulur. Xarici mühitindəki sosial amillərlə əlaqədar problemlərin öhdəsindən gəlmək üçün təşkilat sosial sistem kimi özü dəyişməli və xarici mühitə adaptasiya olmalıdır.
- Beynəlxalq amillərin təhlili zamanı digər ölkələrin hökumətlərinin milli bazarın ümumilikdə və ya ayrı-ayrı sahələrinin müdafiəsi və ya genişləndirilməsi üzrə səylərini nəzərdə tutan siyasətinin izlənilməsi lazımdır.

Zəif və güclü tərəflərin təhlili. Təşkilat rəhbərliyi xarici mühiti təhlil edərək potensial təhlükə və yeni imkanlar haqqında məlumat əldə etdikdən sonra təşkilatın güclü və zəif tərəflərini qiymətləndirməlidir. Təşkilatın güclü və zəif tərəflərinin təhlili xarici potensial təhlükələrlə bağlı yaranacaq problemləri mürəkkəbləşdirə bilən daxili zəifliklərin tədqiqinə və yeni imkanlardan istifadə etmək üçün firmanın daxili qüvvələrinin mövcudluğunun öyrənilməsinə xidmət edir.

Daxili problemlərin diaqnostikası üçün tətbiq edilən metod idarəetmə müayinəsi adlandırılır. Strateji planlaşdırma məqsədləri üçün 5 funksional zonanın – marketinq, maliyyə (mühasibat uçotu), istehsal, insan resursları, təşkilatın mədəniyyət və imicinin müayinəsi məqsədəuyğundur.

Marketinq funksional zonasının təhlili zamanı 7 vacib elementə diqqət yetirilməlidir:

1. Bazar payı və rəqabətliliyi;
2. Çeşidin müxtəlifliyi və keyfiyyəti;
3. Bazar demoqrafiyası;
4. Bazar tədqiqatları;
5. Alıcılara satışdan qabaq və satışdan sonrakı xidmət;
6. Satış, reklam və malların yeridilməsi;
7. Mənfəət.

Maliyyə (mühasibat uçotu) fuksional zonasının təhlili təşkilatın rəhbərliyini gələcəkdə hansı strategiyanı seçəcəyini müəyyənləşdirir.

## Nəticə

Maliyyə vəziyyətinin detallı təhlili artıq mövcud olan və potensial zəiflikləri aşkarlamağa kömək edir. Maliyyə vəziyyətinin təhlili maliyyə təftişi metodları ilə aparılır. İstehsal fuksional zonasının təhlili təşkilatın daxili strukturunun xarici mühitdəki dəyişikliklərə vaxtında adaptasiyası və rəqabət mühitində onun sağ qalması üçün vacib əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Abbasov, A. (2011). Biznesin təşkili və idarə edilməsi. Dərslik. Bakı, 464 s.
2. Axundov, M. (2001). “Strateji idarəetmə”. Bakı, 207 s.
3. Axundov, M. (2000). “İşlətməçiliyə giriş”. Bakı, 59 s.
4. Menkyu, Q. (2009). “Ekonomiksin prinsipləri”. Bakı, 794 s.
5. Qeybullayev, Q. (2000). İdarəçiliyin-menecmentin əsasları. Bakı, 184 s.
6. Hüseynov, T. (2009). Firmanın iqtisadiyyatı. Dərslik. Bakı, 588 s.
7. Məmmədov, S. (2009). İdarəetmənin əsasları. Bakı, 230 s.
8. Yahudov, X. (2002). “Müəssisənin iqtisadiyyatı”. Bakı, 245 s.

Göndərilib: 01.06.2023 Qəbul edilib: 17.07.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/46-50

**Vasif Həziyev**
Azərbaycan Kooperasiya Universiteti
1_hvb_1@mail.ru

# QLOBAL İQTİSADİYYATDA BÖHRAN VƏ ANTİBÖHRANLI İDARƏETMƏ NƏZƏRİYYƏLƏRİ

**Xülasə**

Müəssisədə baş verən bütün prosesləri idarəedilən və idarəedilə bilməyən hissələrə bölmək olar. Düşünülmüş şəkildə müəyyən istiqamətdə onlara təsir etdikdə dəyişdirilməsi mümkün olan proseslərə idarə edilə bilən proseslər deyilir. Müəyyən səbəblərdən bu proseslər özlərinə məxsus qanunla baş verir və bu proseslərin nəticəsində nə baş verməlidirsə o da baş verir.

Antiböhranlı inkişaf - müəssisə məqsədlərinə cavab verən və onun inkişafında obyektiv dəyişmə meyllərinə uyğun olan, böhranın qarşısını almağa və ya onu aradan qaldırmağa kömək edən, idarə edilən prosesdir. Bu proses əsasən dörd mərhələdən ibarətdir. İnkişafın birinci mərhələsi - adi idarəetmə olub, səmərəliliyi təmin etmək üçün əlavə böyük xərclər tələb etmir, funksional məzmununa görə çoxşaxəli olmayıb elementar təşkilati formaları nəzərdə tutur. İnkişafın ikinci mərhələsi - istehsalda baş verən mürəkkəbliklər şəraitində idarəetmə olub, öz inkişafı dövründə istehsaldakı inkişafı qabaqlamalıdır. Üçünçü mərhələ - istehsaldakı mürəkkəbliklərə uyğunlaşma idarəetməsidir.

***Açar sözlər:*** *antiböhran, böhran, idarəetmə, risk, iqsadi sistem*

**Vasif Haziyev**
Azerbaijan Cooperation University
1_hvb_1@mail.ru

## Theories of crisis and anti-crisis management in the global economy

**Abstract**

All processes occurring in the enterprise can be divided into controlled and uncontrollable parts. Processes that can be changed by deliberately influencing them in a certain direction are called controllable processes. For certain reasons, these processes happen according to their own law, and as a result of these processes, what should happen happens.

Anti-crisis development is a controlled process that meets the goals of the enterprise and corresponds to the objective trends of change in its development, helps to prevent or eliminate the crisis. This process mainly consists of four stages. The first stage of development is ordinary management, it does not require additional large costs to ensure efficiency, it is not multifaceted in terms of its functional content and involves elementary organizational forms. The second stage of development is management in the conditions of complexities in production, which must precede the development in production during its development. The third stage is the management of adaptation to the complexities in production.

***Keywords:*** *anti-crisis, crisis, management, risk, economic system*

## Giriş

Müasir ədəbiyyatlarda hələ də sosial-iqtisadi sistemin inkişafında böhranla bağlı ümumi qəbul edilmiş yekdil fikir yoxdur. Belə bir nöqteyi nəzər vardır ki, böhran kapitalist istehsalına məxsus olan xüsusiyyətdir və sosialist sistemində onun olması mümkün deyil. Böhran anlayışı, risk anlayışı ilə sıx bağlı olub, bu və ya digər səviyyədə istənilən idarəetmə qərarının işlənməsi metodologiyasına təsir edir. İdarəetmədə böhran halının mümkünlüyünün nəzərə alınmaması, nəinki böhranın baş verməsini gözlənilməz edəcək, həm də çoxlu digər səhvlərə səbəb olacaqdır.

Böhran - ətraf mühitdə sosial iqtisadi sistemin (müəssisənin) fəaliyyətinə təhlükə yaradan əksliklərin kəskinləşməsidir. Böhran obyektiv səbəblərdən - tsiklik (dövrü) modernləşmə və struktur dəyişmələri ilə bağlı baş verə bilər. Böhran subyektiv səbəblərdən - iqlimin xüsusiyyətlərindən irəli gələn təbiət hadisələri, idarəetmədəki nəzarətsizlik, özbaşınalıq və digər səhvlərdən, zəlzələlərdən və s. baş verə bilər (Abbasov, 2011: 59). Böhran daxili və xarici səbəblərdən baş verə bilər. Xarici səbəblər makroiqtisadi inkişaf strategiyası və ya dünyanın iqtisadi inkişaf meyllərindən, rəqabət, ölkədəki siyasi vəziyyətlə əlaqədar da ola bilər. Daxili səbəblər isə marketinq strategiyasının riskliliyindən, daxili münaqişələrindən, istehsalın təşkilindəki çatışmazlıqlardan, idarəetmədəki qeyritəkmillikdən, innovasiya və investisiya siyasətindən irəli gəlir. Əgər böhranı bu cür qəbul etsək, onda demək olar ki, böhran təhlükəsi hər zaman mövcuddur. Məhz buna görədə onu əvvəlcədən görmək və proqnozlaşdırmaq lazımdır.

Ümumi və lokal xarakterli böhranlar mövcuddur. Ümumi xarakterli böhranlar sosial - iqtisadi sistemi tam əhatə etdiyi halda, lokal xarakterli böhranlar yalnız onun bir hissəsinə toxunur. Yaratdığı problemlərdən aslı olaraq böhranları makro və mikro kimi iki hissəyə bölmək olar. Makro böhran probleminin həcmi və ölçüləri kifayət qədər böyük miqyaslı olduğu halda, mikro böhran bir problemi və ya müəyyən problemlər qrupunu əhatə edir (Həsənov, 2012: 87). Sosial-iqtisadi sistemdə problemlərin differensasiyası və strukturlarından asılı olaraq, böhralarının inkişafında iqtisadi, sosial, təşkilati, psixoloji və texnoloji böhranları fərqləndirmək olar. Bilavasitə yaranma səbəblərindən aslı olaraq böhranlar ictimai, ekoloji və təbiətlə əlaqəli olaraq 3 hissəyə bölünür. Böhranlar həm də gözlənilməz və gözlənilən ola bilər. Bundan başqa aydın və latent (gizli diqqəti cəlb etmədən meydana çıxan və ona görədə çox təhlükəli) böhranlar da mövcuddur. Böhranlar kəskin və yumşaq da ola bilər. Bütün mümkün böhranlar uzunmüddətli (davamlı) və qısa müddətli (ötəri) olmaqla da fərqləndirilir.

Böhran təhlükəsi hər zaman mövcuddur. Əgər böhranın xarakterini anlamaq və başa düşmək mümkündürsə, onun kəskinliyini azaltmaq, vaxtını qısaltmaq və ağrısız ötüşməsini təmin etmək mümkündür. Odur ki, böhran vəziyyətinin başlanması əlamətləri və onların həlli imkanlarının qiymətləndirilməsi çox vacibdir. Böhranın əlamətləri hər şeydən əvvəl onun tipoloji məsuliyyəti, yəni ölçüləri, problemliliyi, kəskinliliyi, inkişaf sahəsi, səbəbləri, mümkün nəticələri və özünü göstərmə fazaları (dövrləri) ilə bağlıdır. Böhranın aradan qaldırılması idarə edilə bilən prosesdir. Bu sahədə insan inkişafı tarixində istehsal və iqtisadiyyatda baş vermiş bir çox böhranlar haqqında olan məlumatlar əsasında danışmaq olar. İdarəetmənin müvəffəqiyyəti böhranın əlamətlərinin başlanmasının vaxtında hiss edilməsindən asılıdır (Hüseynov, 2009: 59).

Təşkilatda böhranların yaranması səbəbləri müxtəlif ola bilər. Ən vacib məsələ böhranın inkişaf simtomlarını (əlamətlərini) vaxtında hiss etmək və antiböhran idarəetmə proqramından vaxtında istifadə etməkdir. Böhranın amilləri, simptomları və səbəblərini fərqləndirmək lazımdır. Böhranın simptomu (əlamətləri) – təşkilatın fəaliyyət və inkişafını əks etdirən göstəricilərin vəziyyəti və onların dəyişmə tendesiyasıdır. Bu zaman göstəricilər həm qəbul edilmiş, normativ ölçülərə (dəyişmə hədləri), həm də bir-birinə münasibətə görə qiymətləndirilə bilər.

Böhranın simptomları – mənfi tendesiyaların ilk görüntüləri, bu tendesiyaların davamlı olması, işgüzar münaqişələr, maliyyə problemlərinin artması və s. ola bilər. Simptom – böhranın ilk, xarici görüntüləri olub, heç də həmişə əsil səbəbləri xarekterizə etmir, lakin bu simptomlar əsasında əsil səbəbləri aydınlaşdırmaq mümkündür. Böhranları yalnız simptomlara görə deyil, həm də səbəblər və real amillərə görə qiymətləndirmək lazımdır.

Böhran amili – bu böhranın başlanmasından xəbər verən hadisə və ya qeydə alınmış vəziyyət yaxud tendesiyadır. Böhranın səbəbləri – bu elə hadisə və ya hadisələrdir ki, onun nəticəsində böhranın amilləri aşkar olunur. Məsələn, inflyasiya böhran amilidir və inflyasiyanın səbəbləri pul kütləsinin artması (dövlət borcu və onun vaxtında qaytarılmaması səbəbindən) ola bilər. Böhranın simptomları isə əmək haqqının kəskin artımı, qiymətlərin yüksəlməsi və s. ola bilər. Təşkilatda böhran amili məhsul keyfiyyətinin aşağı düşməsi, texnoloji intizamın pozulması, texniki vasitələrin köhnəlməsi, kreditlər üzrə böyük borc və s. ola bilər. Böhrana səbəb isə maliyyə-iqtisadi səhvləri,

iqtisadiyyatda ümumi vəziyyət, heyətin aşağı ixtisaslı olması, motivləşdirmə sistemindəki nöqsanlar ola bilər.

Müəssisədə baş verən bütün prosesləri idarəedilən və idarəedilə bilməyən hissələrə bölmək olar. Düşünülmüş şəkildə müəyyən istiqamətdə onlara təsir etdikdə dəyişdirilməsi mümkün olan proseslərə idarə edilə bilən proseslər deyilir. İdarə edilə bilməyən proseslərin istiqamət və xarakterini dəyişmək mümkün deyil. Müəyyən səbəblərdən bu proseslər özlərinə məxsus qanunla baş verir və bu proseslərin nəticəsində nə baş verməlidirsə o da baş verir.

Antiböhranlı inkişaf - müəssisə məqsədlərinə cavab verən və onun inkişafında obyektiv dəyişmə meyllərinə uyğun olan, böhranın qarşısını almağa və ya onu aradan qaldırmağa kömək edən, idarə edilən prosesdir (Şahbazov, Məmmədov, Həsənov, 1997: 78). Bu proses əsasən dörd mərhələdən ibarətdir. İnkişafın birinci mərhələsi - adi idarəetmə olub, səmərəliliyi təmin etmək üçün əlavə böyük xərclər tələb etmir, funksional məzmununa görə çoxşaxəli olmayıb elementar təşkilati formaları nəzərdə tutur. İnkişafın ikinci mərhələsi - istehsalda baş verən mürəkkəbliklər şəraitində idarəetmə olub, öz inkişafı dövründə istehsaldakı inkişafı qabaqlamalıdır. Yalnız bu halda o səmərəli ola bilər. Üçüncü mərhələ - istehsaldakı mürəkkəbliklərə uyğunlaşma idarəetməsidir. Bu idarəetmə istehsalda inkişafı sürətləndirə və mürəkkəbliklərin artmasına səbəb ola bilər. Dördüncü mərhələ - istehsalın kifayət qədər yüksək inkişaf tempi zamanı idarəetmənin inkişafının yavaşıldılmasıdır. Bu zaman istehsalın mürəkkəbliyi və idarəetmə arasında yeni uyğunsuzluqlar yarana bilər ki, bu da idarə edən və idarə edilən sistem arasındakı nisbəti və mütənasibliyi poza bilər.

Bu gün alimlərin böyük əksəriyyəti qəbul edir ki, yalnız yeni tip idarəetmə iqtisadiyyatı böhrandan çıxarmağa qadirdir. Məhz bu tip idarəetmənin də adı antiböhranlı idarəetmədir. Antiböhranlı idarəetmə - müəyyən mənada böhran təhlükəsini əvvəlcədən görə bilən, onun siptomlarını təhlil etməyi bacaran, böhranın mənfi nəticələrini azaltmağı və onun amillərindən gələcək inkişaf prosesində istifadə tədbirlərini nəzərdə tutan idarəetmədir.

Antiböhranlı idarəetmənin problemləri geniş və çoxşaxəlidir. Bu promlemləri dörd əsas qrupa bölmək olar. Birinci qrup - böhran qabağı vəziyyətin hiss edilməsi problemidir. Böhranın ilk görüntülərini aşkara çıxarmaq, onun xarakterini başa düşmək və böhranın başlanmasını vaxtında görə bilmək asan iş olmayıb, böyük bacarıq və təcrübə tələb edir. İkinci qrup problemlər antiböhranlı idarəetmədə müəssisə fəaliyətinin əsas sferaları ilə əlaqədardır. Bu ilk növbədə müəssisə fəaliyyətinin metodoloji problemləridir. Onların həlli prosesində idarəetmənin əsas məqsədləri formalaşdırılır, böhran şəraitində idarəetmənin yolları, vasitə və metodları təyin edilir. Bu qrup maliyyə-iqtisadi xarakterli problemləri özündə birləşdirilir. Üçüncü qrup problemlərə, antiböhranlı idarəetmə zamanı idarəetmə texnologiyalarının dəyişdirilməsi (diversifikasiyası) problemlərini aid etmək olar. O, böhran halında sosial-iqtisadi sisteminin davranış tərzi variantlarını, vacib informasiyanın axtarılması və idarəetmə qərarlarının işlənməsini, ümumi halda böhranın proqnozlaşdırılması problemlərini əks etdirir. Dördüncü qrup problemlər idarəetmə heyətinin seçilməsi (seleksiya) və münaqişələrlə bağlıdır. Bu problemlər hər zaman böhranla müşayət olunan antiböhran tədbirlərinin investisiyalaşdırılması, müflisləşmə və müəssisənin sağlamlaşdırılması kimi problemləri əhatə edir (Qeybullayev, 2000: 47).

Antiböhranlı idarəetmə funksiyaları. Bu fəaliyyət növü idarəetmə predmetini əks etdirirərək, onun nəticələrini müəyyən edir. Onlar adi bir suala cavab verirlərmüəssisəni müvəffəqiyətlə idarə edə bilmək üçün böhranqabağı şəraitdə, böhran prosesində və böhranın nəticələrini aradan qaldırması zamanı nə etmək lazımdır? Bu mənada idarəetmənin altı funksiyasını ayırmaq olar: böhranqabağı idarəetmə, böhran şəraitində idarəetmə, böhrandan çıxma proseslərinin idarə edilməsi, qeyri dayanıqlı vəziyyətin sabitləşdirilməsi, itkilərin və əldən çıxmış imkanların minimuma endirilməsi, qərarların qəbulu və icra vaxtının tənzimlənməsi (Quliyev, 2013: 98).

Antiböhranlı idarəetmədə səmərəlilik məqsədə çatma dərəcəsi ilə xarakterizə olunur. Antiböhranlı idarəetmənin səmərəliliyini təyin edən əsas amillərdən aşağıdakıları göstərmək olar.

– Xüsusi hazırlıq və antiböhranlı idarəetmə zamanı peşəkarlıq.
– Anadangəlmə və xüsusi hazırlıq prosesində əldə edilmiş idarəetmə bacarığı.
– Riskli qərarların işlənməsi metodologiyası.

– Dəyişikliklərin proqnozlaşdırılması və vəziyyətin elmi təhlili.
– Korporativlik.
– Liderlik.
– Operativlik və çeviklik.
– Antiböhranlı proqramların strategiyası və keyfiyyəti.
– İnsan amili.
– Böhranlı vəziyyətlərin monitorinqi sistemi.

Antiböhranlı idarəetmə özü riskli hesab edilir. Böhran şəraitində çoxlu sayda risklər yaranır: məzmunun müxtəlifliyinə görə, yaranma mənbəyinə görə, müəyyən biznes fəaliyyəti üçün neqativ nəticələr və mümkün itkilərin yaranması ilə bağlı ehtimalların ölçülərinin təyin edilməsi, bəzən isə bütöv iqtisadiyyatla bağlı. Bütün bunlar isə riskli vəziyyətlərdə idarəetmə üzrə mütəxəssisləri (yüksək səviyyəli "risk menecerləri"ni) cəlb etməklə riskin idarəedilməsi sitemini yaratmağı zəruri edir (Məmmədov, 2009: 132).

Antiböhranlı idarəetmədə riskin idarəedilməsi zamanı əsas təsir vasitələri aşağıdakılardır:

1) İdarəetmə strategiyası. Konkret sosial-iqtisadi sistemlər və strategiyalara uyğun olaraq işlənən, riskli qərarların verilməsində konkret risk növünün mümkünlüyünə və doğruluğuna təminat verən siyasətdir.

2) Qərarların seçilməsi həddləri. Risk sərhədlərinin (hüdudlarının) işlənməsi, satış həcmindən asılı olaraq itkilərin dəyişməsi dinamikasını (artma, azalma), xərcməsrəf miqdarını, qiymətlərin dəyişməsini, inflyasiya və s. nəzərdə tutur.

3) İtkilərin azaldılması vasitələri və yollarının işlənməsi, riskli qərarlarının neqativ nəticələrinin kompensasiyası və neytrallaşdırılması, sığortalama və risklərin idarəedilməsi prosesində bu və ya digər dərəcədə onlardan istifadə edilir.

4) Risklərin idarəedilməsində çəkilən xərclərə görə əldən çıxmış imkanlar və itkilərə münasibətdə əldə edilmiş səviyyənin səmərəliliyinin qiymətlındirilməsinin bir hissəsidir. Alınan nəticə, riskin idarəedilməsi prosesində ayrı-ayrı elementlərdə düzəlişlər etməyə əsas verir.

5) Müəssisələrin idarəetmə sistemində "risklərin proqnozlaşdırılması və ekspertizası","riskli fəaliyyətlər sferasında məsləhət xidməti" kimi çevik təşkilatiidarəetmə bölmələrinin formalaşdırılması. Burada ən sadə qərarlardan biri müəssisənin idarə aparatında "risk üzrə menecer" vəzifəsinin yaradılması ola bilər. Bu menecer müəssisə və onun bölmələrində əsas risk növlərinin idarəedilməsi prosesində dəyişikliklər apara və bütün işləri istiqamətləndirə bilər.

Müəssisənin riskdən müdafiəsi, antiböhranlı idarəetmə şəraitində risklərin idarəedilməsi işində vacib funksiyadır. Antiböhranlı idarəetmədə istifadə olunan anlayışlardan biri də sağlamlaşdırmadır. Sağlamlaşdırma - müəssisənin ödəmə qabiliyyətinin bərpası, onun fəaliyyətinin davamlı və müflis olmağa qarşı xəbərdarlıqla bağlı yenidən təşkili (reorqanizasiya) üzrə tədbirlər kompleksidir.

Sağlamlaşdırmanın həyata keçirilməsi bu prinsiplərə əsaslanır:

1) Buraxılmış (əldən çıxmış) imkanlar prinsipi;
2) İqtisadi proseslərin dinamikliyi prinsipi;
3) Antiböhran tədbirlərin az xərclilik (məxariclik) prinsipi;
4) Bütün sağlamlaşdırma tədbirlərinin şəffaflığı prinsipi;
5) Maraqlar arasında barışığa (kompromisə) riayət prinsipi;
6) İşçi heyəti ilə əməkdaşlıq prinsipi; Sağlamlaşdırma proseduru müəssisənin sağlamlaşdırılmasına səmərəli şərait yaradan, ardıcıl və paralel surətdə həyata keçirilən, zəif formalaşdırılmış idarəetmə hərəkətlərinin məcmusudur.

Sağlamlaşdırma prosedurunun əsas vəzifəsi antiböhranlı tədbirlər proqramının mütəşəkkil surətdə işlənməsi və həyata keçirilməsini təmin etməkdir (Qasımov, 2010: 41).

Antiböhranlı tədbirlərin işlənməsi zamanı bunlar vacibdir:

1) Böhranlı vəziyyətin simptonlarını deyil, müəssisədə onun səbəblərini dərindən təhlil edərək, onun baş verməsini aşkarlamaq;

2) Hər bir konkret problemin həllində neqativ amillərin təsirini azaldılmasının bütün mümkün yollarını öyrənmək, hər bir səbəbi tədqiq etmək və bu zaman layihə həllərinin alternativ xarakterli olmasını nəzərə almaq;

3) Məsul şəxsləri, vaxtı, resursların həcmini və nəzarət nöqtələrini göstərməklə, ardıcıl surətdə antiböhranlı tədbirlər proqramını hazırlamaq.

Bu zaman planlaşdırılan tapşırıqların həyata keçirilmə mərhələləri qısa, nəzarət nöqtələri isə çox olmalıdır. Beləliklə, sağlamlaşdırma proqramının işlənməsi zamanı aşağıdakı prinsiplərə əməl edilməsi zəruridir:

1) Proqramın işlənməsinə müəssisənin bütün heyyətinin cəlb edilməsi;
2) Müəssisədə böhran vəziyyətinin simptomları və səbəbləri ayırmaqla onları konkretləşdirmək;
3) Proqramın işlənməsinin bütün mərhələlərində səffaflıq və aşkarlığa nail olmaq;
4) Fərdi şəkildə, hər bir tədbirin hazırlanması məsuliyyəti və yerinə yetirilməsi və nəzarətin rəsmi sənədləşməklə təsdiqi;
5) Sağlamlaşdırmanın həyata keçirilməsində rəhbərin (antiböhranlı idarəetmə üzrə menecerin) israrlı və qərarlı olması. Təsərrüfatçılığın bazar formasında sərt rəqabət şəraiti bəzi təsərrüfat subyektlərini müflisləşməyə və ya müvəqqəti ödəniş qabiliyyətsizliyinə gətirib çıxarır. Nə üçün uzun müddət normal fəaliyyət göstərən müəssisə ödəniş qabiliyyətini itirir? Nəzəriyyənin göstərdiyi və təcrübədə təsdiq edildiyi kimi, müasir şəraitdə müəssisənin ödəniş qabiliyyətini itirməyinin əsas tələbi, bazar situasiyasının inkişaf tendensiyalarına strategiyanın uyğun olmamasıdır. Müəssisənin dəyişikliklərə hazırlaşa bilmədiyi istənilən vəziyyəti böhranlı adlandırmaq olar. Bu halların baş verməməsi üçün, müəssisə iqtisadiyyatında baş verə biləcək böhranları vaxtında hiss etmək, maliyyə çatışmazlıqları və çətinliklərin yaranmasına qədər lazimi tədbirlər görmək lazımdır.

## Ədəbiyyat


1. Abbasov, A. (2011). Biznesin təşkili və idarə edilməsi. Dərslik. Bakı. 464 s.
2. Həsənov, H. (2012). Korporativ idarəetmənin təməl daşları. Bakı, 256 s.
3. Hüseynov, T. (2009). Firmanın iqtisadiyyatı. Dərslik. Bakı, 588 s.
4. Şahbazov, K., Məmmədov, M., Həsənov, H. (1997). Antiböhranlı idarəetmə: müflisləşmə, iflas və sanasiya. Bakı, 357 s.
5. Qeybullayev, Q. (2000). İdarəçiliyin-menecmentin əsasları. Bakı, 184 s.
6. Quliyev, T. (2013). İnsan resurslarının idarə edilməsi. Bakı, 828 s.
7. Məmmədov, S.(2009). İdarəetmənin əsasları. Bakı, 230 s.
8. Qasımov, M. (2010). Əmək məhsuldarlığının səviyyəsinə təsir edən əsas amillərin təhlili. Kurs Layihəsi. Bakı, 41 s.


Göndərilib: 21.06.2023 Qəbul edilib: 12.08.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/51-54

**Zibeydə Quliyeva**
Bakı, Azərbaycan
zibeyde-quliyeva-90@mail.ru

# AZƏRBAYCAN DİLİNDƏ İŞLƏDİLƏN BƏZİ ALINMA SÖZLƏRİN DİLİMİZİN QRAMMATİK QURULUŞUNA TƏSİRİ

**Xülasə**

Məqalədə qloballaşma şəraitində Azərbaycan dilinin saflığının qorunmasının vacibliyindən bəhs olunub. Elm və texnikanın yüksək inkişafı ilə əlaqədar bütün dillərə yeni sözlər, terminlər daxil olmaqdadır. Bundan başqa insanlar bir-birləri ilə ünsiyyət qurarkən vahid bir dildən eyni dərəcədə istifadə edə bilmək qabiliyyətləri olmadığı üçün fikirlərini ifadə edərkən istifadə etdikləri dillərə müəyyən sözlər, ifadələr gətirirlər. Bu da öz növbəsində hədəf dili həm leksik baxımdan, həm də qrammatik baxımdan öz təsiri altına alır. Dillərdə gedən daimi proseslər nəticəsində qloballaşmanın mənfi təsirləri özünü göstərməyə başlayır. Son dövrlərdə bu kimi təsirlər dilimizdə daha çox özünü göstərməkdədir. Bütün bu təsirlərdən dilimizi qoruya bilmək üçün dövlət səviyyəsində addımlar atılmaqdadır.

***Açar sözlər:*** *qloballaşma, Azərbaycan dili, alınma sözlər, qrammatik quruluş, leksik tərkib*

**Zibeyda Guliyeva**
Baku, Azerbaijan
zibeyde-quliyeva-90@mail.ru

## The influence of some borrowed words used in the Azerbaijani language on the grammatical structure of our language

**Abstract**

The article talks about the importance of preserving the purity of the Azerbaijani language in the time of globalization. Due to the high development of science and technology, new words and terms are entering all languages. In addition people do not have the ability to use a single language to the same extend when communicating with each other, they bring words and expressions to the languages they use when they talking. This affects the languages both lexically and grammatically. As a result of the constant processes taking place in languages, the negative effects of globalization start to manifest themselves. In recent times such influences are more evident in our language. Steps are being taken at the state level to protect our language from all these effects.

***Keywords:*** *globalization, Azerbaijani language, borrowed words, grammatical structure, lexical composition*

## Giriş

İnsan cəmiyyətinin mövcudiyyətini təmin edən ən mühüm amil dil faktorudur. Belə ki, dil insanlar arasında ünsiyyət vasitəsi olmaqla bərabər, millətlərin, dövlətlərin, xalqların bir-birindən fərqlənməsinin və eyni zamanda bir-biri ilə qaynaşmasının əsas təminatçısıdır. Bu baxımdan dil amili bütün dövrlərdə mühüm əhəmiyyət kəsb etmişdir. Tarixi inkişaf prosesində xalqların, dövlətlərin yaranıb, məhv olması ilə bərabər müxtəlif dillər yaranmış və məhv olmuşdur. Dil insan həyatının mühüm hissəsini təşkil etdiyi üçün daim zamanın tələbinə uyğunlaşmış, dəyişikliyə uğramış, insanların yaşayış tərzi, inancları, düşüncə tərzlərinə əsasən formalaşmışdır. Ona görə də hər xalqın özünəməxsus dili vardır.

Azərbaycan dili də xalqın yarandığı zamanlardan bu yana bütün tarixi dövrlər ərzində öz varlığını qoruyub saxlamağı bacarmış milli sərvətimizdir. Zaman-zaman müəyyən dəyişikliyə uğrasa da, xalqımızın bu dildə olduqca böyük mədəni, tarixi, ədəbi irsi vardır. Daha çox leksik

səviyyədə dəyişkənlik göstərən dilimizin qrammatik quruluşu öz sabitliyini qoruyub saxlamışdır ki, bu da müasir zaman üçün olduqca vacib amildir. Çünki, hazırda qloballaşmanın təsirləri dünya dillərindən də yan keçmir. Elm və texnikanın yüksək inkişafı insanları bir-birlərinə yaxınlaşdırır, siyasi-iqtisadi əlaqələr ortaq dilin qurulmasını tələb edir və bəzi dillər bu səbəbdən öz işləkliyini itirir.

Son zamanlarda alimlərin araşdırmalarına görə bir çox dillər öz varlığını itirmişdir. Hazırda yer kürəsində ən çox danışılan dil ingilis dili hesab edilir. Lakin bu dilin bir çox xalqlar tərəfindən işlədilməsi dilin orijinallığının pozulmasına gətirib çıxarmışdır. Belə ki, bəzi mənbələrdə qeyd edilir ki, dünya tərəfindən işlədilən ingilis dili orijinal dildən tam fərqli formaya salınmışdır.(9) Bu da qloballaşmanın dünya dillərinə mənfi təsirinin bir göstəricisidir. Məlumdur ki, dil dil daşıyıcıları üçün sadəcə ünsiyyət vasitəsi deyil, eyni zamanda milli-mənəvi sərvət rolunu oynayır, tarixi, mədəni irsin daşıyıcısı və göstəricisi hesab edilir. Ona görə də dilin leksik və qrammatik strukturunu, fonetik tərkibini, ümumilikdə mövcud dil qaydaları və qanunlarını qoruyub saxlamaq hər bir dil daşıyıcısının vətəndaşlıq borcudur (Ağayev, 2018: 5).

Bütün bu sadalananlar Azərbaycan dili üçün də mühüm məsələlərdir. Dilimiz tarixi baxımdan olduqca qədimdir. Türk dil ailəsinin oğuz qrupuna daxil olan dilimizin özünəməxsus ədəbi dil normaları, fonetik, leksik və qrammatik qanunları vardır. Doğrudur, ictimai-siyasi şəraitlərdən asılı olaraq dilimiz müxtəlif tarixi dövrlərdə fərqli dillərin təsirinə məruz qalmış, leksik tərkibcə müəyyən dəyişikliklər əmələ gəlmişdir. Buna baxmayaraq dilimizin qrammatik quruluşu öz sabitliyini qoruyub saxlamışdır.

Hər bir dilin leksik tərkibində alınma sözlər yer alır. Bu müxtəlif dövlətlərlə baş verən ictimai-siyasi əlaqələrin nəticəsində baş verir. Azərbaycan dilinin coğrafi mövqeyinə nəzər yetirdikdə dilimiz rus, fars və ərəb dillərinin təsirinə daha çox məruz qalmışdır. Ərəblərin yürüşləri və islam dininin yaranması şəraitində ölkəmizə ərəblərin axını baş vermiş və bu da öz təsirini dildə açıq şəkildə göstərmişdir. Sözalma prosesində ərəb dilindən dilimizə daha çox dini terminlər, elm və təhsil ilə bağlı olan leksik ifadələr keçmişdir (Cəfərov, 2007: 56). Sözalma prosesi bütün dillər üçün təbii baş verən prosesdir. Lakin bəzi alınmalar dilə ehtiyac olmadan daxil olur və artıqlıq yaradır. Bu da yerli dilin orijinallığına təsir edir. Eyni zamanda onu da nəzərə almalıyıq ki, hər bir dilin öz qrammatik quruluşu, fonetik xüsusiyyətləri vardır. Bu da sözalma prsesində müəyyən problemlərə gətirib çıxarır. Məsələn, ərəb dilindən alınmış bir çox sözlərdə fonetik uyuşmazlıqla yanaşı alınmış sözlərin dilimizin qrammatik quruluşuna da xələl gətirdiyinin şahidi oluruq. Məlum faktdır ki, Azərbaycan ədəbi dilinin qrammatik quruluşunda cins kateqoriyası anlayışı yoxdur. Ona görə dilimizdə üçüncü şəxs əvəzliyi kimi sadəcə “o” əvəzliyi mövcuddur. Buna baxmayaraq dil daşıyıcıları “müəllimə”, “müdirə”, “rəqqasə”, “katibə” və sair dilimizin qrammatikasına zidd olan sözləri işlədirlər. Bu sonluqlar alındığı dildə cins göstəricisi hesab edilir və həmin dil üçün məqbul haldır. Lakin Azərbaycan dilində cins kateqoriyası olmadığı üçün bu tipli sözlərin işlədilməsi də məqsədəuyğun hal deyildir. Təəssüf doğuran hallardan biri də budur ki, bu tipli sözlərin dilimizdən yığışdırılması üçün tədbirlər görülməsinin əksinə olaraq həmin sözlər lüğətlərə salınır. Bu da alınma sözlərin dilimizin qrammatik quruluşuna zərər yetirdiyinin bariz nümunəsidir. Fikrimcə, bu addım yolverilməzdir.

Rus və avropa dillərdindən alınmış sözlərin də dilimizin lüğət tərkibinə, qrammatik quruluşuna, fonetik xüsusiyyətlərinə müəyyən mənfi təsirləri vardır. Rus dilindən keçmiş bəzi sözlər zərurətdən işlədilsə də, bir çoxu gərəksiz yerə dilimizin lüğət tərkibini doldurur. Bu tipli sözlər daha çox dilimizin orfoepik və orfoqrafik sisteminə təsir göstərir. Məlumdur ki, Azərbaycan dilinin orfoepik qaydalarına əsasən dil vahidlərinin tələffüzü lüğəvi, qrafik və qrammatik şəraitdən asılı olaraq müəyyənləşir. Alınma sözlər isə dilimizə uyğunlaşa bilmədikdə dilimizin həmin qaydaları pozulmuş olur (Dəmirçizadə, 2007: 156). Rus dilindən alınmış bir çox sözün öz dilimizdə qarşılığı mövcuddur və həmin sözlərin dilimizdə işlədilməsinin qarşısının alınması üçün müəyyən tədbirlər görülməlidir. İlk olaraq hər bir vətəndaş öz ana dilində danışmağı özünə borc bilməlidir. Fikrimcə, “xolodelnik”, “zaryatka”, “obed”, “zavtrak”, “kravat”, “fortuçka”, “vsyo”, “zato”, “mama”, “papa”, “brat” “yupka” və sair sözləri dilimizdən təmizləmək olduqca vacibdir. Son dövrlərdə dilimizin

saflığının qorunması ilə əlaqədar alınmış qərarlar və verilmiş sərəncamların müsbət nəticəsi odur ki, bu tipli rus sözlərinin işlədilməsi azalmış və vətəndaşlarımız həmin sözlərin əvəzinə milli mənşəli sözlərimizdən istifadə etməyə diqqət göstərirlər. Bu cür təbliğatlar daha çox sosial mediada və mətbuatda aparılarsa müsbət nəticəsini verəcəkdir.

Hər bir dilin əsasını onun sabit qrammatikası təşkil edir. Azərbaycan dilinin qrammatik quruluşu da uzun bir tarixi dövr ərzində öz sabitliyini qoruyub saxlamışdır. Son zamanlarda qloballaşan dünyada gedən proseslər dillərin də taleyinə təsirsiz ötüşmür. Belə ki, dövlətlərin bir-biri ilə əlaqələri dillərin yaxınlaşmasına, söz alıb-verməyə gətirib-çıxarır. Başqa dillərdən alınan sözlər təkcə dillərin leksin sisteminə deyil eyni zamanda qrammatik quruluşna da müəyyən təsirlərin yaranmasına gətirir. Bu da qloballaşmanın mənfi təsirlərinin təzahürüdür. Məsələn, hər hansı bir əcnəbi dildə yazılmış əsərlər başqa bir dilə tərcümə edilərkən müəyyən yanlışlıqlar meydana gəlir və bu da qrammatik quruluş baxımından uyğunsuzluqlara şərait yaradır. Qrammatik baxımdan ən çox problem yaradan məqam xüsusi isimlərin tərcüməsidir. Xüsusi isimlərin tərcüməsi ilə bağlı müəyyən qanunlar vardır. Belə ki, hər bir dilin özünəməxsus qrafik sistemi vardır. Əsər tərcümə edilərkən mənbə dildəki yazılışı və tələffüzü ilə hədəf dildəki yazılış və tələffüzü ilə tam fərqli formada təzahür edə bilir. Bu zaman həmin söz tərcümə olunan dilin orforafik sisteminə uyğunlaşdırılır. Bununla belə yenə də müəyyən uyuşmazlıqlar meydana çıxa bilir (Azərbaycan dilinin qrammatikası, 1959).

Göründüyü kimi, həm leksik, həm fonetik, həm də qrammatik səviyyədə sözalma prosesi bütün dillərdə gedir. Eləcə də Azərbaycan dilində bu proses tarixən getmiş, müasir dövrümüzdə də davam etməkdədir. Hazırda əsas məqsəd dilimizin saflığını qoruyub saxlamağı bacarmaqdır. Çünki sözalma preosesində öz dilimizin qrammatikasını, leksik sistemini, fonetik qanunlarını bilmədən hərəkət etsək dilimizin əcnəbi dillərin, xüsusilə son zamanlar olduqca geniş yayılmış ingilis dilinin təsiri altına düşəcək. Bu da dilimizin gələcəyi üçün təhlükə təşkil edir. Çünki bir dövləti, xalqı məhv etməyin birinci addımı onun dilini əlindən almaqdır.bütün bunları nəzərə alaraq vətəndaş olaraq dilimizə sahib çıxmalı, gərəksiz alınmalar işlətməməli, cümlə quruluşlarına diqqətlə yanaşmalıyıq (5).

Qloballaşan dünyada elm və texnikanın sürətli inkişafı yeni texnoloji alətlərin, yeni formasiyaların, təhsildə yeni anlayışların, məişətdəki yeniliklərin adlandırılması üçün neologizmlərin yaranmasını şərtləndirir. Təbii olaraq bu proses də dilimizə xüsusilə avropa mənşəli terminlərin girməsinə gətirib çıxarır. Bu da bir həqiqətdir ki, ingilis dili dünyada daha geniş yayılmış dillər arasındadır. Hətta bir çox ölkələrdə ingilis dili ikinci dil kimi istifadə edilir. Xüsusilə elm və texnika ilə əlaqədar işlədilən sözlərin böyük əksəriyyəti ingilis dilindən alınmışdır. Elə bir dövr yaşamaqdayıq ki, gənc nəslin istifadə etdiyi bəzi terminləri yaşlı nəsil anlamaqda çətinlik çəkir. Bu tipli terminlərin böyük əksəriyyəti texnologiya ilə bağlı ingilis mənşəli sözlərdir. Bununla əlaqədar olaraq ya alınan sözlər dilimizə uyğunlaşdırılmalı, ya da müəyyən tənzimləmələr aparılmalıdır.

Tarixən olan sözalma prosesində alınan sözlərin dilimizə uyğunlaşdırılması işi aparılırdı. Məsələn *anti, ex, xana, extra, meqa, mini, tele, avto, namə, dər, bəd* və sair ərəb-fars və avropa mənşəli dillərdən alınmış şəkilçilər əslində mənbə dildə söz xarakteri daşıyaraq müəyyən məna ifadə edirlər. Dilimizə isə sadəcə şəkilçi formasında keçərək sözönü və söz sonu mövqelərində özünü göstərir (Yaqubova, 2008: 93). Lakin müasir dövrdə dilimizdə işlədilən leksemlər şəkilçi kimi yox müstəqil məna ifadə edən söz kimi işlədilir. Məsələn, son dövrlərdə dilimizdə işlədilən ingilis mənşəli sözlərə misal olaraq *okey, layk, klik, resepşn və sair göstərmək olar.* Bu sözlər leksik vahid kimi problem yaratmasa da fonetik səviyyədə orfoqrafik qaydaların pozulmasına gətirib çıxarır. Sözlərin orijinalındakı yazılışından fərqli tələffüzü və yazılışının olması bu sözləri işlədərkən dilimizə də təsir edir. Fikrimcə, dilimizdə bu sözlərin istifadəsi əvəzinə milli mənşəli sözlərimizin işlədilməsi daha doğrudur (7).

Məlumdur ki, mətbuat dili aparıcı dil hesab edilir və xalqın dilinə daha çox təsir edə bilmə imkanına malikdir. Ona görə də dilin təmizliyi, dəqiqliyi və düzgünlüyü ilk olaraq mətbuatda, KİV-də yoxlanılmalı, diqqətə alınmalıdır. Çünki mətbuat dili kütləvi xarakter daşıyır və mətbuat bütün

səviyyələrdə dilimizi yad ünsürlərdən qorumalıdır. Sevindirici haldır ki, respublikamızın lideri, cənab İlham Əliyev Azərbaycan dilinin qorunmasına, saflığının təmin olunmasına xüsusi diqqət və qayğı göstərir. Bu məsələlərlə bağlı bir çox sərəncamlar imzalamış, göstərişlər vermişdir. Bu addımlardan biri də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli sərəncamıdır. Burada dilimizdən düzgün istifadənin qayğısına qalınması ilə yanaşı müasir zamanın tələblərinə uyğunlaşdırılması da əsas götürülür. Eyni zamanda 2012-ci il 26 noyabr tarixli qərar ilə "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə" təsdiq edilmişdir ki, bu da dilçilik sahəsində tədbiqi araşdırmaların keyfiyyətinin yüksəldilməsinə şərait yaratmışdır (8).

Məlumdur ki, texnologiyanın geniş inkişafı, sosial media istifadəçilərinin getdikcə çoxalması, insanların əcnəbi insanlarla əlaqə yaratması dildə gedən proseslərə təsirsiz ötüşmür. Əvvəllər dilimizdə daha çox ərəb-fars və rus mənşəli sözlər işlədilirdisə, son zamanlar ingilis dilinin dünyada geniş yayılması ilə əlaqədar Azərbaycan dilinə də ingilis mənşəli sözlərin daxil olduğunu görə bilirik. Hələlik bu təsirlər sadəcə leksik səviyyədədir. Yəni sadəcə müəyyən leksemlər və ifadələr işlədilməkdədir. Lakin bunun qarşısı alınmazsa digər sözlər kimi bu sözlər də fonetik və qrammatik səviyyədə təsirlərə gətirib çıxara bilər. Fikrimcə, dilimizin saflığı uğrunda aparılan tədbirlər ingilis dilinin dilimizə təsirlərinin də qarşısını alacaqdır (9).

## Nəticə

Azərbaycan dilinin saflığının qorunması üçün aparılan tədbirlər öz nəticəsini getdikcə daha aydın göstərməkdədir. Belə ki, son dövrlərdə vətəndaşlarımız dildən istifadə edərkən öz sözlərimizə üstünlük verirlər. Bu da alınma sözlərin işlənmə tezliyini azaltmağa gətirib çıxarır. Xüsusilə mətbuatda və kütləvi informasiya vasitələrində dilin təmizliyini, düzgünlüyünü qorumaq daha çox vacibdir. Çünki xalqın danışığına daha çox təsiretmə xüsusiyyətinə malikdir. Aparılan təbliğat işləri və dövlət başçısının dilimizin qorunmasına göstərdiyi xüsusi qayğı öz təsirini göstərməkdədir.

## Ədəbiyyat

1. Ağayev, D. (2018). Qloballaşmanın Azərbaycan dilinə leksik səviyyədə təsiri. SDU Elmi xəbərlər. №1, 5 s.
2. Cəfərov, S. (2007). Müasir Azərbaycan dili. Leksika. Bakı: Şərq-Qərb, 192 s.
3. Dəmirçizadə, Ə. (2007). Müasir Azərbaycan dili Fonetika, orfoqrafiya, orfoepiya. Bakı: Şərq-Qərb, 256 s.
4. Azərbaycan dilinin qrammatikası. (1959). II hissə (sintaksis). Bakı: EA nəşri.
5. https://sesqazeti.az/news/analytics/305404.html
6. Yaqubova, T. (2008). Azərbaycan mətbuat dilində alınmalar (1990-2000). AMEA Tədqiqlər. №1-2, 185 s.
7. https://www.azerbaijan-news.az/view-23982/qloballasma
8. https://president.az/az/articles/view/7744
9. https://www.muallim.edu.az/news.php?id=1859

Göndərilib: 23.06.2023 Qəbul edilib: 06.08.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/55-60

**Hikmet Aliyev**
Baku State University
master student
hikmat_aliyev@hotmail.com

# EMPLOYMENT IMPACT OF ADOPTION OF NEW TECHNOLOGIES IN THE BANKING SECTOR

## Abstract

The adoption of new technologies in the banking sector has brought about significant advancements and transformations, revolutionizing the way financial services are delivered. However, alongside these benefits, the adoption of new technologies can also create challenges and problems, particularly in relation to unemployment. As banks embrace digital transformation, automation, and artificial intelligence, certain job roles may become obsolete or require a shift in skill requirements. This introduction will explore the problems that the adoption of new technologies in the banking sector can create for unemployment.

- Müxtəlif idarəetmə məktəbləri və onların inkişaf xüsusiyyətləri nəticəsində müəyyən edilmişdir ki, elmi idarəetmə məktəbi, klassik və ya inzibati idarəetmə məktəbi, insani münasibətlər məktəbi, davranış qaydaları haqqında elmi məktəb və müasir idarəetmə məktəbi kimi müxtəlif idarəetmə məktəbləri mövcud olmuşdur və hər bir məktəb idarəetmə elminin inkişafında özünəməxsus idarəçilik elementlərini bərqərar etmişdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, idarəetmə elminin təkmilləşdirilməsi və inkişafında F.U.Teylor, H.Hant, F.Cilbert, L.Cilbert, A.Fayol, H.Emerson, R.Robbi, Q.Xopf, O.Şeldon, M.Veber, E.Meyo, M.P.Follet, D.Mak - Qreqor kimi görkəmli nümayəndələrin xidmətləri olmuşdur.

-İdarəetmə prosesi və onun həyata keçirilməsi texnologiyası üzrə aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, idarəetmə prosesi müəssisə və təşkilatların son məqsədə çatmaq üçün onun fəaliyyətinin həyata keçirilməsinə xidmət edən bir prosesdir və onun spesifik xüsusiyyətləri mövcuddur. İdarəetmə texnologiyasının məhsuldar formada aparılması müəyyən idarəetmə resurslarının olmasını tələb edir.

## Ədəbiyyat

1. Hüseynov, T. (2009). Firmanın iqtisadiyyatı. Dərslik. Bakı, 588 s.
2. Abbasov, A. (2011). Biznesin təşkili və idarə edilməsi. Dərslik. Bakı, 464 s.
3. Qasımov, M. (2010). Əmək məhsuldarlığının səviyyəsinə təsir edən əsas amillərin təhlili. Kurs Layihəsi. Bakı, 41 s.
4. Məmmədov, S. (2009). İdarəetmənin əsasları. Bakı, 230 s.
5. Qeybullayev, Q. (2000). İdarəçiliyin-menecmentin əsasları. Bakı, 184 s.
6. Həsənov, H. (2012). Korporativ idarəetmənin təməl daşları. Bakı, 256 s.
7. Melanie, F. (2014). Agile Change Management. London: Kogan, 280 p.
8. Quliyev, T. (2013). İnsan resurslarının idarə edilməsi. Bakı, 828 s.

Göndərilib: 30.05.2023 Qəbul edilib: 08.07.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/68-72

**Asya Mehbalıyeva**
Azərbaycan Kooperasiya Universiteti
nesrin.91@mail.ru

# MÜASİR KORPORATİV İDARƏETMƏ MODELLƏRİ NƏZƏRİYYƏSİ

**Xülasə**

Müasir iqtisadiyyatda korporasiyaların və korporativ münasibətlərin inkişafı korporativ idarəetmənin də inkişafını və təkmilləşdirilməsini tələb edir. Korporativ idarəetmənin inkişafı müasir korporativ idarəetmə modellərinin meydana gəlməsinə səbəb olmuşdur. Müasir korporativ idarəetmə modellərini izah etməzdən əvvəl korporativ idarəetmə anlayışının qısa izahını verməyi məqsədəuyğun hesab edirik. Müasir şəraitdə şirkətin muzdlu menecerlərlə səhmdarlar və digər maraqlı tərəflər arasında qarşılıqlı münasibətlər sistemi məhz korporativ idarəetmə sistemi kimi çıxış edir. Korporativ idarəetmə modelləri arasında əsas model kimi ingilis-amerikan və alman modelləri fərqləndirilir. Dünyada gedən qloballaşma prosesləri korporativ münasibətlərin Amerika sxeminin təzahürüdür. Korporativ idarəetmənin və korporativ münasibətlərin inkişafı korporativ idarəetmə modellərinin də inkişafı və təkmilləşdirilməsini şərtləndirir.

***Açar sözlər:*** *anqlo, iqtisadiyyat, korporativ, menecer, idarəetmə sistemi*

**Asya Mehbaliyeva**
Azerbaijan Cooperation University
nesrin.91@mail.ru

## Theory of modern corporate management models

**Abstract**

The development of corporations and corporate relations in the modern economy requires the development and improvement of corporate governance. The development of corporate management has led to the emergence of modern corporate management models. Before explaining modern corporate governance models, we consider it appropriate to give a brief explanation of the concept of corporate governance. In modern conditions, the system of mutual relations between the company's hired managers and shareholders and other interested parties acts as a corporate governance system. Among corporate management models, Anglo-American and German models are distinguished as the main model. Globalization processes in the world are a manifestation of the American scheme of corporate relations. The development of corporate management and corporate relations requires the development and improvement of corporate management models.

***Keywords:*** *anglo, economy, corporate, manager, management system*

## Giriş

Müasir iqtisadiyyatda korporasiyaların və korporativ münasibətlərin inkişafı korporativ idarəetmənin də inkişafını və təkmilləşdirilməsini tələb edir. Korporativ idarəetmənin inkişafı müasir korporativ idarəetmə modellərinin meydana gəlməsinə səbəb olmuşdur. Müasir korporativ idarəetmə modellərini izah etməzdən əvvəl korporativ idarəetmə anlayışının qısa izahını verməyi məqsədəuyğun hesab edirik. Müasir şəraitdə şirkətin muzdlu menecerlərlə səhmdarlar və digər maraqlı tərəflər arasında qarşılıqlı münasibətlər sistemi məhz korporativ idarəetmə sistemi kimi çıxış edir. Korporativ idarəetmə biznesin təşkilati-hüquqi formasının idarə olunması, təşkilati srukturların optimallaşdırılması, qəbul olunmuş məqsədlərə müvafiq olaraq kompaniyanın firmalararası və firmadaxili münasibətlərinin qurulmasıdır (yaradılmasıdır). Dar mənada korporativ idarəetmə dedikdə şirkətin menecmentini səhmdarın maraqlarına əsasən fəaliyyət göstərməyə istiqamətləndirən qayda və stimullar sistemi nəzərdə tutulur. Geniş mənada korporativ idarəetmə

dedikdə şirkətin fəaliyyəti ilə bağlı olan iqtisadi subyektlər arasında sosial-iqtisadi, təşkilati-hüquqi və idarəedici münasibətlər sistemi nəzərdə tutulur (Axundov, 2001: 57). Korporativ idarəetmənin başlıca funksiyası - mülkiyyətçilərin, başqa sözlə, korporasiya təşkil edən maliyyə resurslarının maraqları çərçivəsində korporasiyanın işinin təmin olunmasıdır. Beynəlxalq səviyyədə müasir korporativ idarəetmənin ingilis-amerikan, alman və yapon modelləri fərqləndirilir. Bu modellərin hər biri özünəməxsus formada müəssisələrin idarə edilməsini və səhmdarlarla (mülkiyyətçilərlə) idarəedicilər arasındakı münasibətlərin tənzimlənməsini həyata keçirir (Menkyu, 2009: 327). Anqlo - Amerikan modeli. Bu model ABŞ, Kanada, Böyük Britaniya, Avstraliya və Yeni Zenlandiya korporasiyalarında geniş yayılmışdır.

Anqlo-Amerikan modelinin hakim iştirakçıları kimi direktorlar, səhmdarlar (başlıca olaraq institutsional investorlar), hakimiyyət strukturları, birjalar, özünütənzimləmə təşkilatları, korporativ idarəetmə və vəkalət üzrə səsvermə məsələləri üzrə korporasiya və səhmdarlara məsləhət xidmətləri (konsultasiya) təqdim edən konsaltinq firmaları çıxış edirlər. Bu modelin üç əsas iştirakçıları mövcuddur: menecerlər (idarəedənlər), direktorlar (direktorlar soveti və ya şurası) və səhmdarlar. Müharibədən sonrakı mərhələdə Böyük Britaniya və ABŞ-da indivudual (şəxsi) investorlarla müqayisədə institutsional investorların sayının artımı müşahidə olunmağa başlanmışdır (Məmmədov, 2009: 87). Bu artım onların nüfuzunun güclənməsinə gətirib çıxardı. Öz növbəsində hüquqi dəyişikliklərə səbəb oldu, bu isə onları korporativ münasibətlərin iştirakçılarına çevirdi. Böyük Britaniya və ABŞ korporasiyalarının Direktorlar Şurasının tərkibinə “daxili” (“insayderlər”) və “xarici” (“autsayderlər”) üzvlər daxildir. İnsayder ya korporasiyada işləyən (fəaliyyət göstərən) şəxsdir (menecer, icraçı və ya işçi), ya da ki, korporasiyanın idarəolunması ilə sıx əlaqədar olan şəxsdir. Autsayder isə birbaşa olaraq korporasiya və onun idarəolunması ilə əlaqəli olmayan şəxsdir. “İnsayder” sözünün sinonimi isə “icraçı olmayan direktor” və ya “müstəqil direktor” ola bilər. Adətən, Direktorlar Şurasının sədri və Baş icraçı direktor kimi eyni şəxs çıxış edir. Bu isə tez - tez müxtəlif sui - istifadə hallarına, hakimiyyətin bir şəxsin əlində (məsələn, Direktorlar Şurası eyni zamanda sədr və baş icraçı direktor vəzifəsini yerinə yetirən bir şəxs tərəfindən nəzarət olunur) və ya bir qrup şəxslərin əlində cəmləşməsinə (məsələn, Direktorlar Şurası yalnız “insayder”-lərdən ibarətdir) gətirib çıxarır. Direktorlar Şurası və idarəedici digər səhmdarların maraqlarını nəzərə almadan uzun müddət ərzində hakimiyyəti əldə saxlamağa çalışırlar (Hüseynov, 2009: 97). Hal - hazırda həm amerikan, həm də inglis korporasiyaları Direktorlar Şurasına daha çox sayda müstəqil direktorlarını daxil etməyə çalışırlar.

Anqlo - amerikan modelini reallaşdıran bütün ölkələrdən daha çox ABŞ - da informasiyanın açıqlanmasının ən sərt normaları tətbiq edilir. Ən müxtəlif informasiyaları nəşr etməli olan ABŞ korporasiyaları ilə müqayisədə anqlo - amerikan idarəetmə modelindən istifadə edən digər ölkələrdə informasiyanın nəşr olunmasına tələblər bir qədər mülayimdir. Səhmdarların illik ümumi iclasının gündəliyinə və ya illik hesabatına aşağıdakı məlumatlar daxil edilməlidir: - hər rüb üzrə maliyyə məlumatları; - kapitalın strukturu haqqında göstəricilər; - təyin olunmuş direktorların keçmiş fəaliyyəti haqda arayış (adları, tutduğu vəzifələri, korporasiya ilə münasibətlər, korporasiya səhmlərinə sahib olmaları daxil olmaqla); - icraçı direktorlara ödənilən əmək haqqının (mükafatların) həcmi, eləcə də daha yüksək ödənişli rəhbərlərin (adları mütləq qeyd olunmalıdır) beşindən hər birinə ödənilən mükafatlar haqda məlumat; - 5% - dən çox səhm kapitalına sahib olan bütün səhmdarlar haqda məlumat; - mümkün birləşmə (qovuşma) və ya yenidən təşkil haqda məlumat; - audit yoxlamaları üçün dəvət olunmuş kompaniya və ya şəxslərin adları. Anqlo - amerikan modelindən istifadə edən Böyük Britaniyada və digər ölkələrdə informasiyanın nəşr olunmasına tələblər analojidir. Lakin, hesabat hər yarımil üzrə təqdim olunur və bir qayda olaraq maliyyə informasiyası və təyin olunmuş direktorlar haqqında məlumat daxil olmaqla hər kateqoriya üzrə təqdim olunan məlumatlar (göstəricilər) azalır (İmranov, 2007: 67-69). Alman modeli. Bu model alman və avstriya korporasiyalarında istifadə olunur. Bu modelin bəzi elementləri Hollandiya və Skandinaviyada da mövcuddur. Bundan başqa, Fransa və Belçikanın bəzi korporasiyaları da alman modelinin elementlərini tətbiq etməyə başlamışlar. Alman modelinin reallaşmasında banklar mühüm rol oynayır, belə ki, onlar korporasiyanın uzunmüddətli səhmdarları hesab olunurlar. Bank

nümayəndələri Direktorlar Şurasına seçilirlər. Bankın Direktorlar Şurasındakı nümayəndəliyi daimidir. Bank səhmdarların ümumi illik iclasında səhmdar və kreditor, qiymətli kağızların və borc öhdəliklərinin emitenti, səsverən agenti və depozitarı kimi çıxış edir. Nəzərə alsaq ki, alman modelində Direktorlar Şurası 2 palatalı orqan kimi çıxış edir. Əsas iştirakçıların tərkibinə ayrılıqda hər iki palata daxildir: İdarəedici və Müşahidə Şurası. İdarəedici (icraedici) Şura korporasiyanın menecerlərindən, Müşahidə Şurası isə işçilərin nümayəndələrindən, korporasiya işçilərindən və səhmdarlardan ibarətdir. Hər iki palata ayrılıqda fəaliyyət göstərir. Bir şəxsin eyni zamanda İcraedici və Müşahidə Şurasının tərkibində iştirakına icazə verilmir. Müşahidə Şurası idarəetməni təyin edir və ləğv edir, rəhbərliyin qərarlarını təsdiq edir və idarəediciyə məsləhətlər verir. Müşahidə Şurasının sayı qanunla müəyyən edilir. Kiçik olmayan korporasiyalarda (500 nəfərdən az) səhmdarlar bütöv Müşahidə Şurasını seçirlər. Orta korporasiyalarda (korporasiyanın həcmi fondların və vəsaitlərin ölçüsündən və işçilərin sayından asılı olur) 9 nəfərdən ibarət Müşahidə Şurasının üçdə birini işçilər təyin edirlər. Böyük korporasiyalarda işçilər 20 nəfərdən ibarət Müşahidə Şurasının yarısını təyin edirlər (seçirlər).

Almaniyada başlıca səhmdarlar korporasiyalar və banklardır. Almaniyada korporasiyaçılar həmçinin səhmdarlar hesab olunurlar və digər korporasiyalarda uzunmüddətli qoyuluşlara malik ola bilərlər. Digər korporasiyalar qismində öz aralarında qarşılıqlı asılı olmayan müəyyən korporasiyalar qrupu çıxış edir (kommersiya və ya istehsal). Alman modelində bank bir neçə rol oynayır: - Səhmdar və kreditor kimi; - Qiymətli kağızların və borc öhdəliklərinin emitenti kimi; - Səhmdarların illik ümumi iclaslarında depozit sahibi və səsvermədə iştirak edən agent kimi; Xarici investorlar son vaxtlaradək alman modelinə əhəmiyyətli təsir göstərmirdilər, lakin hazırki dövrdə isə onların rolu yüksəlir. Almaniyada informasiyanın nəşr olunmasının olduqca sərt qaydaları işlənib hazırlanmışdır (Kataeva, 2009: 135). Korporasiyalar illik iclasda və ya illik hesabatda aşağıdakı informasiyanı nəşr etdirməlidirlər: - hər yarımil üzrə maliyyə hesabatı; - kapitalın strukturu haqqında məlumat; - Müşahidə Şurasına namizədlərin hər biri haqqında məhdud informasiya (adı və soyadı, ünvanı, iş yerlərinin adı və tutduğu vəzifələr); - İdarəedici və Müşahidə Şurası üzvlərinə ödənilmiş mükafatlar haqda məcmu informasiya; - korporasiyanın səhmlərinin 5% - dən çoxuna sahib olan səhmdarlar haqda məlumat; - mümkün birləşmə və ya yenidən təşkil haqqında informasiya; - nizamnaməyə təklif olunan düzəlişlər; - audit yoxlaması üçün dəvət olunan kompaniya və ya şəxslərin adları. Yapon modeli. Yapon modeli yapon ənənələrinə müvafiq olaraq yapon praktikası əsasında işlənib hazırlanmışdır, buna görə də yalnız Yaponiyada yayılmışdır.

Korporativ idarəetmənin yapon sistemi çoxşaxəlidir və hakim bank və maliyyə - istehsal şəbəkəsi ətrafında formalaşır. Əsas bank və keyreçu - yapon modelinin bir - birini tamamlayan 2 müxtəlif elementləridir. Praktik olaraq bütün yapon korporasiyaları öz əsas bankları ilə sıx münasibətlərə malikdir. Bank öz korporativ müştərilərinə kreditlər təqdim edir və səhmlərin, istiqrazların, hesabatların aparılması və konsaltinq xidmətlərinin buraxılışı üzrə xidmətlər göstərir. Əksər yapon korporasiyaları onlarla əlaqədar olan korporasiya şəbəkələri ilə sıx maliyyə əlaqələrinə malikdirlər. Belə şəbəkələr ümumi borc və səhmdar kapitalı, ticarət malları, xidmətlər və qeyri - rəsmi işgüzar müqavilələri ilə xarakterizə olunurlar. Bunlar yuxarıda qeyd olunduğu kimi "keyreçu" adlandırılır. Dövlət iqtisadi siyasəti həmçinin, Yapon səhmdar cəmiyyətlərinin idarəolunmasında hakim rol oynayır. XX əsrin 50 - ci illərindən etibarən yapon hökuməti yapon korporasiyalarına (südanlar) kömək göstərilməsinə yönəldilən aktiv iqtisadi siyasət həyata keçirir. Bu siyasət korporasiyanın çətin maliyyə vəziyyətinə düşmüş halında hökumətin korporasiya şurasında rəsmi və qeyri - rəsmi nümayəndəliyini nəzərdə tutur. Yapon modelinin əsas (hakim) iştirakçıları: əsas bank, korporasiya (affilləşmiş) ilə əlaqəli korporasiya və ya keyreçu, idarəetmə və hökumət. Yaponiyada səhm bazarı maliyyə təşkilatları və korporasiyaların əlində cəmləşmişdir. Müharibədən sonrakı mərhələdə Yaponiyada institutsional səhmdarların sayı nəzərə çarpacaq dərəcədə artmışdır. 1990 - cı ildə maliyyə təşkilatları (sığorta kompaniyaları və banklar) yapon fond bazarının təxminən 43% - nə, korporasiyalar (maliyyə təşkilatları istisna olmaqla) 25%- nə, xarici investorlar isə 3% - nə sahib olmuşlar. Yapon korporasiyalarının Direktorlar Şurası təcrübi olaraq daxili iştirakçılardan -

icraçı direktorlardan, korporasiyanın iri şöbə rəhbərlərindən və digər baş idarəedicilərdən ibarətdir (Qeybullayev, 2000: 96).

Yapon korporasiyalarının Direktorlar Şurasının tərkibinin sayı bir qayda olaraq ingilis-amerikan və alman modelləri ilə müqayisədə daha çoxdur. Orta yapon korporasiyalarının şurası 50 nəfərdən ibarət olur. Korporasiya gəlirlərin həcmi cari dövr ərzində azalarsa, əsas bank və keyreçu üzvləri direktorları azad edə və öz namizədlərini təyin edə bilərlər. Yapon modelinə xas digər bir xüsusiyyət - korporasiyanın Direktorlar Şurasının müxtəlif nazirliklərin istefaya çıxmış məmurlarının və təsisatlarının təyin olunmasıdır. Məsələn, Maliyyə Nazirliyi öz istefaya çıxmış məmurunu Bankın Direktorlar Şurasına təyin edə bilər.

Yaponiyada informasiyanın nəşr olunmasına tələblər olduqca səthidir. Korporasiyalar özləri haqqında əsasən aşağıdakı məlumatları verirlər: - maliyyə informasiyası (hər yarımil üzrə); - kapitalın strukturu haqqında məlumat; - Direktorlar Şurasına namizədlərin hər biri haqqında (adı, soyadı, tutduğu vəzifələr, korporasiya ilə münasibətlər, korporasiyanın səhmlərinə sahib olma); - mükafatlar haqqında məlumatlar, (başlıca olaraq Direktorlar Şurasının üzvlərinə və icraçı işçilərinə ödənilən iri məbləğlər); - ümumi qovuşma və yenidən təşkil haqda məlumatlar; - nizamnaməyə təklif olunan dəyişikliklər; - auditor yoxlamaları üçün dəvət olunmuş şirkət və şəxslərin adları. Modellərin müqayisəli təhlili. Anqlo - amerikan modelində səhmdarların mütləq razılığını tələb edən 2 əsas fəaliyyət fərqlənir - direktorların təyin olunması və auditorların seçimi. Yapon korporasiyalarında səhmdarların razılığını tələb edən adi məsələlər sırasına aşağıdakılar daxildir: dividentlərin ödənilməsi və vəsaitlərin bölüşdürülməsi; Direktorlar Şurasının seçilməsi və auditorların təyin edilməsi.Bundan başqa, səhmdarların razılığı olmadan korporasiya kapitalına aid məsələləri həll etmək, nizamnaməyə düzəlişlər və əlavələr etmək, direktor və auditorların işdən çıxarılma haqlarını ödəmək, direktor və auditorlara ödənilən mükafatların maksimal həddini artırmağa icazə verilmir. Böyük Britaniya və ABŞ arasında çox vacib bir fərq mövcuddur: ABŞ - da səhmdarlar Direktorlar Şurasına təqdim olunan dividentlərin həcminə görə səs vermək hüququna malik deyillər, Böyük Britaniyada isə əksinə, bu məsələ səsverməyə qoyulur.

Anqlo - amerikan modelində səhmdarlar illik iclasların gündəliyinə təkliflər etmək hüququna malikdirlər. Səhmdarların təklifləri adlandırılan bu təkliflər bir qayda olaraq korporasiyanın fəaliyyətinə aid olmalıdır (toxunmalıdır). Korporasiyanın kapitalına 10% - dən çoxuna sahib olan səhmdarlar səhmdarların növbədən kənar (fövqəladə) iclasını çağırmaq hüququna malikdirlər. Anqlo - amerikan modelində korporasiyanın və korporativ idarəetmənin fəaliyyətinə institutsional investorlar və müxtəlif maliyyə mütəxəssisləri nəzarət edirlər. Yapon və Alman modelində bu funksiyaların əksəriyyətini bir qayda olaraq bir bank həyata keçirir. Başqa sözlə bu modellərdə korporasiya və onun əsas bankı arasında möhkəm (sıx) qarşılıqlı əlaqə mövcuddur. Alman modelində banklar korporasiyanın uzunmüddətli səhmdarları hesab olunurlar. Yapon modelində müvafiq olaraq bank nümayəndələri Direktorlar Şurasını seçirlər. Ancaq, bank nümayəndələrinin yalnız böhran hallarında şuraya cəlb olunduğu yapon modelindən fərqli olaraq, alman modelində korporasiyalarda bankların şuradakı nümayəndəliyi daimidir. Alman modelinin 3 başlıca xüsusiyyəti onu digər modellərdən fərqləndirir. Bunlardan ikisi - Direktorlar Şurasının tərkibi və səhmdarların hüquqlarıdır. Birincisi, alman modeli İdarəedici (İcraedici Şura - korporasiya məmurları, yəni daxili üzvlər) və Müşahidəedici Şuradan (korporasiya işçiləri və səhmdarların, işçilərin nümayəndələri) ibarət 2 palatalı şuranı nəzərdə tutur. İkincisi, Müşahidə Şurasının say tərkibi qanunvericiliklə təyin olunur və səhmdarlar tərəfindən dəyişdirilə bilməz. Üçüncüsü, alman modelindən istifadə edən Almaniyada və digər ölkələrdə səsvermə sahəsində səhmdarların hüquqlarında məhdudiyyətlər qanuniləşdirilmişdir, başqa sözlə səhmdarın sahib olduğu və bir qayda olaraq səhmlərin sayından fərqli olan səs sayı məhdudlaşdırılır (Yahudov, 2002: 115). Almaniyada informasiyanın nəşr olunması qaydaları ABŞ-da qəbul olunan qaydalardan fərqlənir. Məsələn, maliyyə informasiyası ABŞ-da olduğu kimi hər rüb üzrə yox, hər yarımildə nəşr olunur. ABŞ-dakı individual məlumatlardan (şəxsi göstəricilərdən) fərqli olaraq Müşahidə Şurasının üzvləri və korporasiyadakı səhm payları haqqında məlumat verilmir, direktorlar və menecerlərə təqdim olunan mükafatlar haqqında məcmu məlumat təqdim olunur. Yaponiyada informasiyanın nəşr

olunması prosesi dünyada ən sərt hesab olunan amerikan modelindən əhəmiyyətli dərəcədə fərqlənir. Yaponiyada maliyyə informasiyası hər yarımil üzrə, ABŞ - da isə hər rüb üzrə təqdim olunur; Yaponiyada idarəedici və direktorlara ödənilən mükafatların məcmu məbləği təqdim olunur, ABŞ - da isə hər şəxs üzrə ayrılıqda birləşdirilir. Bu həm də iri sahibkarların siyahısına aid edilir: səhm paketinə malik olan səhmdarların - 5%- dən çoxunu təşkil etdiyi ABŞ-dan fərqli olaraq, Yaponiyada bu - 10 iri səhmdardan ibarətdir. Bundan başqa amerikan və yapon mühasibat standartları arasında nəzərə çarpan fərqlər mövcuddur. Həmçinin alman və amerikan maliyyə hesabatları standartları arasında da fərqlər mövcuddur. Alman modelinin maliyyə hesabatının başlıca fərqi ondadır ki, alman korporasiyalarına əhəmiyyətli dərəcədə böyük bölüşdürülməmiş mənfəət əldə etməyə icazə verilmir, bu isə korporasiyaya öz dəyərini ucuzlaşdırmağa imkan verir. Yapon modeli səhmdarların tərkibində müxtəlif korporasiyaların və bankların yüksək faizi ilə xarakterizə olunur. Bank sistemi korporasiyalarla sıx əlaqələrin mövcudluğu ilə fərqlənir. Xarici investorların yapon korporasiyalarındakı payı minimaldır, baxmayaraq ki, digər ölkələrdən olan səhmdarların kiçik sayı yapon sistemi və xarici səhmdarlar üçün daha rahat bir vəziyyətə gətirib çıxarardı. Yapon modelinin iştirakçıları arasındakı qarşılıqlı təsir Anqlo - amerikan modelindəki kimi güc balansının yaradılmasına deyil, işguzar əlaqələrin qurulmasına yönəldilmişdir.

## Nəticə

Yuxarıda qeyd olunan korporativ idarəetmə modelləri arasında əsas model kimi ingilis-amerikan və alman modelləri fərqləndirilir. Dünyada gedən qloballaşma prosesləri korporativ münasibətlərin Amerika sxeminin təzahürüdür. Korporativ idarəetmənin və korporativ münasibətlərin inkişafı korporativ idarəetmə modellərinin də inkişafı və təkmilləşdirilməsini şərtləndirir.

## Ədəbiyyat

1. Axundov, M. (2001). “Strateji idarəetmə”. Bakı, 207 s.
2. Menkyu, Q. (2009). “Ekonomiksin prinsipləri”. Bakı, 794 s.
3. Məmmədov, S. (2009). İdarəetmənin əsasları. Bakı, 230 s.
4. Hüseynov, T. (2009). Firmanın iqtisadiyyatı. Dərslik. Bakı, 588 s.
5. İmranov, A. (2007). “Menecment” dərslik. Bakı, 268 s.
6. Kataeva, B. (2009). “Kreativ menecer: Uğur strategiyası”. Tərcümə. Bakı, 225 s.
7. Qeybullayev, Q. (2000). İdarəçiliyin-menecmentin əsasları. Bakı, 184 s.
8. Yahudov, X. (2002). “Müəssisənin iqtisadiyyatı”. Bakı, 245 s.

Göndərilib: 10.06.2023 Qəbul edilib: 16.08.2023

DOI: https://doi.org/10.36719/2706-6185/26/73-77

**Aysel Şükürova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
aysel_edu@yahoo.com

# KOQNİTİV DİLÇİLİKDƏ "KONSEPT" TERMİNİ

**Xülasə**

Məqalədə koqnitiv dilçilik və linqvokulturologiyanın mühüm anlayışlarından biri olan "konsept" termini təsvir olunur. Son illər ünsiyyət və informasiyanın koqnitiv emalının çoxmədəniyyətli yanaşma vasitəsilə öyrənilməsində bu termindən geniş istifadə edilir. Belə yanaşmada biz konseptin bütövlüyünü anlayış və obrazın qarşılıqlı münasibətinin nəticəsi kimi nəzərdən keçiririk. Burada anlayış konseptin strukturundakı əlamətləri şərh edir. Obraz isə dil şüurunda konsepti dəstəkləyən təməllər sayılan koqnitiv metaforlarda fiksə oluna bilər.

Deməli, mahiyyət etibarilə konsept vasitəsilə obyektiv aləm dil şüurunda tam şəkildə inikas edir, lakin anlayışlar vasitəsilə bunu etmək mümkün olmur. Məzmun və strukturuna görə sadə formaya malik olan anlayışlar konseptin çoxlaylı məna səviyyələrinin ayrı-ayrı elementləri kimi çıxış edir.

***Açar sözlər: koqnitiv dilçilik,*** *konsept, anlayış, söz, lüğət, təsəvvürlər, etimologiya, termin, məna, informasiya, kommunikasiya*

**Aysel Shukurova**
Police Academy of MIA of the Republic of Azerbaijan
**Doctor of Philosophy in Philology**
aysel_edu@yahoo.com

## The notion of "concept" in cognitive linguistics

**Abstract**

The article describes the term "concept", which is one of the important notions of cognitive linguistics and *cultural linguistics*. In recent years, this term has been widely used in the study of cognitive processing of information and communication through a multicultural approach. In such an approach, we consider the integrity of the concept as the result of the interaction of the notion and the image. Here, the notion interprets the signs in the structure of the concept. The image can be fixed in cognitive metaphors, which are the foundations that support the concept in language consciousness.

Therefore, essentially, through concepts, the objective world is fully perceived in linguistic consciousness, but it is not possible to do this through notions. Notions that have a simple form in terms of content and structure act as separate elements of the multi-layered meaning levels of the concept.

***Keywords:*** *cognitive linguistics, concept, notion, word, vocabulary, imaginations, etymology, term, meaning, information, communication*

## Giriş

"*Konsepti araşdıran tədqiqatçıların müxtəlif fikirlər bildirməsi hələ də bu termin haqqında vahid izahın verilməməsi problemini aktuallaşdırır*" (Şükürova, 2013: 248). Demək, tətbiq olunan metodların çoxluğu, müxtəlifliyi səbəbindən "konsept" anlayışının dəqiq və konkret tərifi yoxdur.

Konsepti öyrənərkən meydana çıxan məsələlərdən biri "konsept" və "anlayış" terminlərinin fərqləndirilməsidir. Y.S.Stepanova görə, "*Konsept və anlayış eyni qəbildən olan sözlərdir. Öz daxili formasına görə, konsept və anlayış sözləri rus dilində eynidir; konsept latın dilindəki conceptus "anlayış" sözünün kalkasıdır*" (Stepanov, 1997: 40).

Lakin biz konseptin ilkin mənasının "anlayış" olduğunu hesab etmirik. Çünki "konsept" sözünün mənşəyinin, etimologiyasının daha dərin tədqiqatı bu terminin ilkin mənasının anlayış olmadığını göstərir. Məsələn, latın-rus lüğətinə müraciət edək:

1)*toplanmaq (çay sularının)*

2)*su hövzəsi ...*

3)*alışma ...*

4)*döllənmə, mayalanma ...*

5)*cücərmə, bitmə ...*

6)*döl (embrion)...* (3)

Lüğətdən göründüyü kimi, latın dilindəki "conseptus" sözünün ilkin mənası "yığan", "özündə cəmləşdirən" deməkdir. Belə ki, konsept müəyyən ideyaları, fikirləri və onların əsas semantik xüsusiyyətlərini, dildəki ifadə formalarını tərkibinə cəlb edən bir məfhumdur. "Döllənmə", "mayalanma", "cücərmə" kimi mənalar isə geniş tərkibə malik konseptin yeni anlayışlar, mənalar yaratdığına işarə edir.

Konseptin mənşəyini tədqiq edən V.Z.Demyankov qeyd edir: "*Anlayış, konsept"in müasir mənası klassik latın dilinə yaddır. Orta əsr latın dilində, ilkin mənanın hələ yaşadığı bir dövrdə "rüşeym→anlayış" metaforik köçürməsi, görünür, çox aydın hiss olunurdu, buna görə də, ondan çox istifadə edilmədiyindən hətta orta əsrlərə aid fəlsəfi mətnlərdə, məsələn, Tetullian (160-220), Müqəddəs Avqustin (354-430), Boetsinin (480-524) dilində conceptus "anlayış" mənası ifadə edən isim kimi deyil, daha çox "döllənmiş" feili sifəti kimi işlənmişdir*" (Demyankov, 2001: 35-36).

Müəllifin qənaətinə görə, *"1970-ci illərdə konsept termini filosofların və dilçilərin texniki terminologiyasına daha çox məhz "təmiz anlayış" mənasında daxil olur...*" (Demyankov, 2001: 44).

V.Z.Demyankov "Terminoloji mədəniyyətin elementi olan "konsept" termini" adlı məqaləsində həmçinin yazır: "*...müasir elmi və qeyri-elmi uzuslarda bu terminlər istifadəsinə görə fərqlənirlər*" (Demyankov, 2007: 606).

Biz də V.Z.Demyankovun yuxarıdakı fikirləri ilə razılaşırıq. Belə ki, nəzərdən keçirdiyimiz elmi mənbələrin hamısında konseptin dilçiliyin tədqiqat obyekti kimi öyrənilməsi məhz 20-ci əsrin 70-ci illərindən başlayır. Eyni zamanda, hesab edirik ki, konseptin ilkin, etimoloji mənası kimi "döllənmiş", "cücərmə", "bitmə" sözlərini qəbul etməliyik. Belə ki, konseptlərin "anlayış" ilə eyniləşdirilməsi müxtəlif elmlərdə, həm də dilçilikdə hər iki termin arasında məna qarışıqlığı yarada bilər.

Hər hansı bir dilin və mədəniyyətin materialı əsasında tədqiq olunan konsept milli şüurun özünəməxsusluğunu, müəyyən dil daşıyıcısı olan xalqın təfəkkürünü əks etdirdiyinə görə ona kulturologiyanın, mədəniyyət və mədəniyyətlərarası kommunikasiyanın əsas vahidi kimi yanaşılır. Y.S.Stepanov bu barədə yazır: "*Konsept insan şüurunda bir mədəniyyətin "laxtasıdır", insanın mental dünyasına daxil olan bir mədəniyyət formasıdır. Digər tərəfdən isə adi, sıravi bir insan, heç bir "mədəni dəyərlər"in yaradıcısı olmayan şəxs üçün konsept mədəniyyətə özünü aid etmək və bəzi hallarda ona* (yəni mədəniyyətə - Aysel Şükürova) *təsir etmək üçün bir vasitədir*" (Stepanov, 1997: 40).

1928-ci ildə rus dilçiliyində konsept haqqında "Konsept və söz" adlı ilk elmi əsər yazan S.A.Askoldov qeyd edir: "*Konsept əşyaları və konkret təsəvvürləri əvəz edir. Çiçəyin forması haqqında hər hansı analitik və ya sintetik mühakiməni söyləyərkən, mən, elə bil ki, fikrən bütün çiçək növləri üzərində əməliyyat aparıram, onların elementlərini əlaqələndirirəm və ya bir-birindən ayırıram*" (Askoldov, 1997: 270).

Deməli, S.A.Askoldovun məntiqi yanaşmasında konseptlər metaforik olaraq çiçəklərə bənzədilərək təhlil edilir. O, əvvəlcə ayrı-ayrı konseptləri unifikasiya prosesində təsvir etdikdən sonra onları müəyyən kateqorial ümumi əlamətlərə görə birləşdirir. Belə ki, insan hər hansı bir əşyanı görür, onun əlamətlərini duyur və psixoloji proseslər fonunda onu əhatəli qavramaq üçün digər əşyalarla müqayisə edir. Şüurdakı əlaqəli biliklərin təsiri nəticəsində isə həmin obyektin, yəni mürəkkəb struktura malik çoxlaylı fikri törəmə olan konseptin müxtəlif mənaları yaranır.

S.A.Askoldovun fikrincə, "*Konseptlər ən mürəkkəb hamaşçiçəklərinə bənzəyən fikri konkretliyin tumurcuqlarıdır*" (Askoldov, 1997: 272). Göründüyü kimi, S.A.Askoldovun konsept barəsində olan şərhində bitkilər aləminə aid vegetativ metaforlar işlənir. Zənnimizcə, müəllif məqaləsindəki "tumur-

cuq" sözü ilə konseptin latın dilindəki etimoloji mənası olan "cücərmə, bitmə" feilinə istinad edir.

V.Z.Demyankov isə S.A.Askoldovun fikirlərini belə şərh edir: "*Askoldovun təklif etdiyi fikri davam etdirərək demək olar: əgər konseptləri qayğı ilə sulasaq, onlardan çoxlu anlayış bitəcək. Digər mədəniyyətlərdə isə, bəzi konseptlər saralıb-solaraq öz yerlərini daha davamlı, daha çox qayğı ilə sulanmış konseptlərə verir*" (Demyankov, 2007: 621-622). Sitatdan göründüyü kimi, V.Z.Demyankov da S.A.Askoldovun ardınca vegetativ məcazlar vasitəsilə konseptin anlayışlardan təşkil olunduğunu izah edir. Biz bu fikirlə razılaşmaya bilmərik. Belə ki, hər hansı bir obyektin ayrı-ayrı əlamətlərini ifadə edən anlayışlardan fərqli olaraq konseptin məzmunu verilən obyekt haqqında ümumi biliklərin cəmindən ibarətdir.

E.V. Dzyubanın konsept və anlayış haqqında qənaəti aşağıdakı kimidir: "*Onlar 1) müxtəlif elm sahələrində işlənməsinə, 2) müxtəlif təbiətli olmalarına və müxtəlif təşkil sferalarına malik olmalarına 3) vahid şəklə salına bilməsinə/bilməməsinə, yəni müxtəlif insanların şüurunda eyni cür formalaşa bilməsinə/bilməməsinə görə fərqlənir*" (Dzyuba, 2011: 25). Məsələn, bizim fikrimizcə konsept anlayışdan fərqli olaraq müxtəlif insanların şüurlarında həm eyni, həm də fərqli şəkildə dekodlaşa bilər. Belə ki, eyni kateqoriyaya aid konseptlər haqqında intuitiv şəkildə mühakimələr, emosional-ekspressiv hisslər yarandıqca onlar özünəməxsus cəhətlərə malik olur.

Deməli, konseptin məzmununun genişlənməsi əşya, təfəkkür, məna, anlayış, emosiyalar, situasiya kimi faktorların qarşılıqlı əlaqəsi nəticəsində baş verir. İnsan anlayışlar, obrazlar, davranış stereotipləri, dəyərlər, ideyalar dünyasında yaşayanda, fikirləşəndə eyni zamanda, o, konseptlər dünyasında ünsiyyətə girərək fəaliyyət göstərir.

Beləliklə, məntiqi nöqteyi-nəzərdən anlayışlar ayrı-ayrı əşyaları anlamaq məqsədini daşıyır. Konsept isə anlayışdan fərqli olaraq geniş anlamda dərk edilmiş bütün əşyalar, məfhumlar haqqında bilikləri, məişət və mədəni təcrübəni birləşdirərək özündə cəmləşdirir. O, obyektin bütün əlamətlərini, xeyli sayda mənaları, anlayışları özündə yığır. Sadəcə, diskursiv situasiyadan asılı olaraq bizi konsepti təşkil edən bu və ya digər konkret əlamət və ya anlayış maraqlandıra bilər.

Y.S.Stepanova görə, "*Konseptə yalnız məntiqi əlamətlər deyil, həm də elmi, psixoloji, bədii-avanqard, emosional və məişət hadisələri və situasiyalarının komponentləri də daxildir*" (Stepanov, 2007: 31). Bununla da konseptin yuxarıda adı çəkilən əlamətləri bizə onun psixoloji, etik, estetik məzmununu müəyyənləşdirmək imkanını verə bilər. O, mürəkkəb quruluşlu, tərkibində bir-birindən ayrılmayan, müxtəlif mənşəli izahedici komponentlərə malik törəmə olduğuna görə çoxlu fraqmentlərə bölünür. Bu zaman onun quruluşunda digər konseptlərə aid olan elementləri, hadisələri aşkar etmək olar.

Belə ki, konseptlərin bir-birinə qarışa bilməsi onlarda daim diqqət mərkəzində olan fraqmentar bütövlük yaradır.

Deməli, hər bir konsept özünəməxsus uyğunlaşma, mərkəzləşmə obyektidir. O, tərkib elementlərini özündə cəmləşdirdiyinə görə yüksək informasiya sıxlığına malik kəmiyyət kimi nəzərdən keçirilir və əlaqəli semantik sahədə digər konseptlərlə birləşərkən daha da zənginləşib geniş bilik bazası yaradır.

Qeyd etmək lazımdır ki, konseptin şərhi zamanı ilk növbədə söz yada düşür. Belə ki, konsept mətndə leksemlərlə verballaşır. Buna baxmayaraq, sözlə konsept arasında olan uyğunluğu nisbi qəbul etməliyik, çünki söz konseptə işarə edən yeganə vahid deyil. Məsələn, "Amerika" konseptinə işarə edən "Amerika" leksemi, və ya "Azərbaycan" konseptinə işarə edən "Azərbaycan" leksemi vardır.

Eyni zamanda, "Azərbaycan" konseptinin insan şüurunda yaratdığı emosional təsəvvürlərin siyahısı böyükdür. Buna görə də onu dildə ifadə edən xeyli sayda vahidlər ilə yanaşı mədəniyyət faktoruna aid ekstralinqvistik vasitələr də mövcuddur.

Əlavə edək ki, konseptlərin sayı sözlərin və ya digər dil vahidlərinin sayından azdır, çünki obyektiv aləmdə bizi əhatə edən məfhumların hamısı konsept ola bilməz.Məsələn, azərbaycanlıların mədəniyyətində "Azərbaycan", "Qarabağ", "Xocalı", "Vətən", "Qələbə", "torpaq", "Ana", "iradə", "həqiqət", "igidlik", "ümid", "mərhəmət", "namus" sözləri konsept ola bilər. Lakin "stol", "stul", "kağız" kimi sözlərin milli konseptologiyanın tədqiqat obyektinə çevrilməsi çətindir.

Zənnimizcə, sözün mənası və anlayış ifadə olunan konseptin məlum sərhədlərinin, ayrı-ayrı xüsusiyyətlərinin müəyyən olunmasına xidmət edərək dünya haqqında biliklərin yalnız bir hissəsini təqdim edir və bununla da onun məzmununun ümumi, natamam təsvirini verir.

Biliklərimizin əsas payı isə müxtəlif fikri strukturlarda, məzmununa tədricən yeni xüsusiyyətlər daxil olan və dünya ilə birbaşa əlaqəli olan konsept şəklində şüurumuzda saxlanılır. Deməli, konseptlər real həyat və söz arasında vasitəçidir. Hər bir xalqın mənəvi dünyasına yaxın, əhəmiyyətli olan konseptlər vardır ki, onlar müxtəlif dil vahidləri vasitəsilə xalqın yaddaşına şifahi və ya yazılı formada həkk olunur. Bu konseptlərlə biz nəinki siyasi və ya media diskurs mətnlərində, həm də folklor nümunələrində, bədii ədəbiyyatda tanış ola bilərik. Həmçinin, konseptləri milli və universal növlərə də bölə bilərik.

Bizim fikrimizcə, universal konseptlərdən fərqli olaraq milli konseptlər xalqın siması və ya simvoludur. Eyni zamanda, milli, linqvomədəni konseptlər müasir dünyanın informasiya məkanına sürətli inteqrasiya etdiyinə görə onları həmçinin universal konseptlər də hesab edə bilərik.

"Koqnitiv terminlərin yığcam lüğətində" konsept aşağıdakı kimi təsvir edilir: *"...insan psixikasında əks olunan dünyanın bütöv mənzərəsinin, yaddaş, mental leksikon, konseptual sistem, beyin dilinin (lingua mentalis) operativ, məzmunlu vahidi*" (Kubryakova, Demyankov, Pankrats, Luzina, 1997: 89-90). İnsan bu dünyanı dərk edərkən şüurunda fərqli koqnitiv proseslər cərəyan edir. İnsandan asılı olmayan obyektiv gerçəklik saysız-hesabsız məfhumlardan ibarətdir. Onların bəziləri cəmiyyət üçün xüsusi əhəmiyyət daşıyır. Beyindəki koqnisiya zamanı həmin məfhumlar qiymətləndirilir. Onlar haqqında mədəni təsəvvürlərin sayı çoxalır. Beləliklə, dil şüurunda tədricən konseptlər yaranır.

A.P.Babuşkin konseptin mahiyyəti haqqında qeyd edir: "*Biz konsepti kollektiv şüurun istənilən diskret vahidi kimi başa düşürük. Bu vahid real və ya ideal dünyanın predmetini əks etdirir və dil daşıyıcılarının milli yaddaşında verbal qəlib şəklində saxlanılır*" (Babushkin, 1997: 222). Deməli, konseptin diskret əlamətə malik olması onun mərhələli olaraq müxtəlif zamanlarda dəyişkənliyə məruz qalmasından xəbər verir. Əlbəttə, konseptin hərəkətində müəyyən durğunluq dövrü də yaşana bilər.

## Nəticə

Bizim fikrimizcə, konseptdəki mənanın və məzmunun genişlənməsi həm də onun təkamülü deməkdir. Deməli, özündə həm dil, həm də mədəniyyətə aid universal informasiyanı daşıyan konsept xalqın dəyərlər sisteminə daxil olaraq onun müvafiq dünya biliklərini əks etdirir.

## Ədəbiyyat

1. *Şükürova, A.İ. (2013). Koqnitiv dilçilikdə konsept anlayışının tədqiqatına dair. Tətbiqi dilçiliyin müasir problemləri. Respublika Elmi-Praktiki Konfransın materialları. Bakı, 10-11 dekabr, s.246-248.*
2. *Stepanov, Yu.S. (1997). Konstanti: Slovar russkoy kulturi. Moskva: shkola Yaziki russkoy kulturi, 824 s.*
3. http://linguaeterna.com/vocabula/show.php?n=9729
4. Demyankov, V.Z. (2001). Ponyatie i kontsept v khudozhestvennoy literature i v nauchnom yazike. Moskva: Voprosi filologii. № 1, s.35-47.
5. Demyankov, V.Z. (2007). Termin «kontsept» kak element terminologicheskoy kulturi. Moskva: Yazik kak materiya smisla: Sbornik statey v chest akademika N.Yu.Shvedovoy, RAN: Institut russkogo yazika im. V.V.Vinogradova, s.606-622.
6. Askoldov, S.A. (1997). Kontsept i slovo. Russkaya slovesnost: Antologiya. Moskva: Akademia, s.267-280.
7. Dzyuba, E.V. (2011). Kontsept «um» v russkoy lingvokulture. Ekaterinburg: Ural. gos. ped. un-t., 224 s.
8. Stepanov, Yu.S. (2007). Kontseptı. Tonkaya plenka tsivilizatsii. Moskva: Yaziki slavyanskikh kultur, 600 s.
9. Kubryakova, E.S., Demyankov, V.Z., Pankrats, Yu.Q., Luzina, L.G. (1997). Kratkiy slovar koqnitivnikh terminov. Moskva: Filol. f-t MQU im. M.V.Lomonosova. 245 s.

10. Babushkin, A.P. (1997). Tipi kontseptov v leksiko-frazeologicheskoy semantike yazika, ikh lichnostnaya i natsyonalnaya spetsifika: dissertatsiya na soiskanie uchyonoy stepeni doktora filologicheskikh nauk. Voronej, 330 s.

Göndərilib: 29.06.2023 Qəbul edilib: 13.08.2023

## İÇİNDƏKİLƏR

**Arzu Xəlilzadə**
Azərbaycan Respublikasının enerji diplomatiyasında yeni prioritetlər ............................................6
**Cavadxan Qasımov**
Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəricilərinin
təşəkkülü yeni mərhələdə ...........................................................................................................11
**Salatın Hacıyeva**
Hərbi xidmətçilərin döyüşə psixoloji hazırlığı ...............................................................................20
**Samirə Mərdanlı**
Nizami Gəncəvinin yaradıcılığında “Sirlər xəzinəsi” poeması ......................................................26
**Şəhanə Əsgərova**
Fransız dilində heyvan və quş adlarının metaforlaşması ...............................................................31
**Zəhra Seyidqızı**
İnsanda insanlıq tərbiyəsi ..........................................................................................................35
**Xavər Hüseynova**
Qlobal iqtisadiyyatda müasir idarəetmə nəzəriyyələri ....................................................................41
**Vasif Həziyev**
Qlobal iqtisadiyyatda böhran və antiböhranlı idarəetmə nəzəriyyələri ............................................46
**Zibeydə Quliyeva**
Azərbaycan dilində işlədilən bəzi alınma sözlərin dilimizin qrammatik quruluşuna təsiri ..............51
**Hikmet Aliyev**
Employment impact of adoption of new technologies in the banking sector ..................................55
**Elnur Allahverdiyev**
İdarəetmə prosesi və onun həyata keçirilməsi texnologiyası ..........................................................61
**Asya Mehbalıyeva**
Müasir korporativ idarəetmə modelləri nəzəriyyəsi ........................................................................68
**Aysel Şükürova**
Koqnitiv dilçilikdə “konsept” termini ..........................................................................................73

İmzalandı: 27.08.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 10 ç.v.
Sifariş: 665

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az